# UNEC EKSPERT 5.0

İYUN/2018



BEYNƏLXALQ TİCARƏTDƏ MİLLİ VALYUTALAR VƏ KRİPTOVALYUTALARIN RƏQABƏTİ

## BİLİK İQTİSADİYYATI İQTİSADİ ARTIM və DÖVLƏT

BİLİK İQTİSADİYYATI

SÜNİ İNTELLEKT VƏ BİZNES QƏRARLARI

SOSİAL BİZNES

IV SƏNAYE İNQİLABI VƏ SOSİAL BİZNES

VERGİLƏR

E-TİCARƏTİ VERGİYƏ NECƏ CƏLB ETMƏLİ?

BEYNƏLXALQ TİCARƏT

"MADE IN AZERBAIJAN" VƏ QEYRİ-NEFT İXRACI

AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930

# NİYƏ UNEC?

**İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSADYÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA, REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ**

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə

Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 9 fakültə və 37 kafedra fəaliyyət göstərir;

394 professor və dosent çalışır.



## NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSI (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: Biznesin idarə olunması, Maliyyə, İqtisadiyyat, Mühasibat üçotu və Marketinq;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə Dekanı Türkiyə Universitetləri-nin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti təhsillərini Türkiyədə almış azərbaycanlı və türki-yəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə Fakültəsinin diplomunun Türkiyə (YÖK) "denkliyi" ekvalentliyi vardır.

# UNEC BUSINESS SCHOOL

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya İqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin İdarə Edilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 609;

Fransa, Almaniya, Niderland, Türkiyə, Koreya, Litva universitetləri ilə mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

Harmon İSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar, Layihələrin idarə edilməsi, İdmanın idarə edilməsi, Bank və sığortanın idarə edilməsi, Mühəndislik və idarəetmə riskləri, Səhiyyənin idarə edilməsi, Turizm və otelçiliyin idarə edilməsi.

# Mündəricat

İYUN 2018




**IV sənaye inqilabının iqtisadi metamorfozları** 6

İqtisadiyyatın rəqəmsallaşdırılması və əməliyyatların daha çox virtual aləmdə yerinə yetirilməsi IV sənaye inqilabının əsas fərqləndirici xüsusiyyətlərindəndir.

**Şəbəkə iqtisadiyyatı və iqtisadi artım** 10

Şəbəkə iqtisadiyyatı iqtisadi artımın yeni xüsusiyyətlərini nümayiş etdirir və yeni iqtisadi imkanlarını açır.

**Biliyin maddiləşməsi prosesinin sürətlənməsi** 12

Elmi ədəbiyyatda çox hallarda bilik iqtisadiyyatı və innovasiya iqtisadiyyatı ifadələri oxşar anlayışlar kimi eyniləşdirilsə də fikrimizcə bilik iqtisadiyyatı özünün innovasiya xüsusiyyətləri ilə fərqlənən daha əhatəli iqtisadiyyatdır.

**Bilik iqtisadiyyatı və gələcəyin əmək bazarı** 14

Bilik iqtisadiyyatı texnoloji biliklərin (hi-tech) və istehsalın təşkili sistemlərinin (know-how) hərtərəfli və geniş tətbiq olunmasına əsaslanır.

**Bilik və davranış iqtisadiyyatı** 16

. Bilik istehsal prosesinə nüfus etdikcə əlavə iqtisadi dəyər yaradır və bu dəyər getdikcə artan istiqamətdə davam edir.

**Bilik iqtisadiyyatı üzrə ölkələrin reytinqi** 20

İqtisad elminin qarşısında duran əsas məsələ rifahın və yaşayış standartlarının daha yüksək olduğu davamlı iqtisadi inkişafa nail olmaqdır.

**Ölkəmizdə vergiqoyma sistemi sadələşməlidirmi?** 22

Vergi sisteminin sadə, asan və əlverişli olmasını müəyyən etmək üçün mövcud metodiki yanaşmalardan istifadə olunmaqla digər ölkələrə münasibətdə müqayisəli təhlillər aparılması zəruridir.

**Azərbaycanda Vergi yükünün optimallaşdırılması** 24

Ekonometrik və analitik üsullarla dövlətin fiskal siyasətinin səmərəliliyinin qiymətləndirilməsi əsaslanmış istiqamət hesab olunur.

**Vergi ödəmə mədəniyyətinin formalaşması problemləri** 26

Təsvir edilən model özündə həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının hüquqi hərəkətlərini birləşdirir və vergi münasibətlərinin hər bir iştirakçısı öz vergi mədəniyyəti səviyyəsini müstəqil olaraq müəyyənləşdirir.












# UNEC EKSPERT


**28** **Vergi amnistiyası: beynəlxalq təcrübə**
Vergi amnistiyası ümumi dövlət və yaxud yerli özünü idarəetmə səviyyəsində tətbiq oluna bilər.

**30** **Vergi yoxlamaları, yoxsa Vergi analitikası?**
Biznes ölçüsü üzrə təsnifat qrupundan asılı olaraq vergi ödəyicilərinin universal və sahəvi risklərinin qiymətləndirilməsi üçün müvafiq olaraq vertikal və mütənasib təhlil üsullarından istifadə olunur.

**32** **Biznes – vergi orqanları: Yeni tərəfdaşlıq**
Vergi inzibatçılığının həyata keçirilməsinin əsas istiqamətlərindən biri biznes strukturları (vergi ödəyiciləri) ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulmasından və bu münasibətlərin inkişaf etdirilməsindən ibarətdir.

**34** **Sosial biznesdə vergiqoyma necə olmalıdır?**
Sosial biznesin cəmiyyətdə fəaliyyət sahələrinin genişləndirilməsi üçün, bu sahədə fəaliyyət göstərən strukturların resurs mənbələrinin gücləndirilməsi lazımdır.

**40** **Vergiqoyma və kriptoiqtisadiyyat**
Vergi yığımı güclü iqtisadiyyatın əsas dayaqlarından biridir ki, hazırkı dövrdə bu pul vasitəsi ilə həyata keçirilir.

**46** **Ticarət saldosunun dinamikası və manatın perspektivləri**
Tədiyyə balansı əsasında ölkənin dünya ticarətində iştirak dərəcəsini qiymətləndirmək və onun ödəmə qabiliyyətini müəyyənləşdirmək olar.

**48** **Sosial biznes: dayanıqlı və inklüziv inkişaf**
Dayanıqlı iqtisadi inkişafın əsasında iqtisadiyyatın rəqabət qabiliyyətinin, inklüzivliyinin və sosial rifahın artırılması durur.

**50** **Tələbələr və sosial biznes startapları**
"Sosial biznes" ideyasının reallaşdırılması üçün dünya təcrübəsinə uyğun işlək mexanizmlər tətbiq olunmalıdır.

**52** **Sosial biznesə dəstək: beynəlxalq təcrübə**
Sosial biznes ilk növbədə davamlılıq baxımından cəmiyyətin sosial problemlərini həll etmək və ya aradan qaldırmaq məqsədi ilə yenilikçi bir fəaliyyətdir.

**56** **Sosial biznes: reallıq, yoxsa mif?**
Sosial biznesdə uğur mənfəətlə deyil, yaradılan fayda ilə ölçülür.












# IV SƏNAYE İNQİLABININ İQTİSADİ METAMORFOZLARI

i.e.d.prof. Ümüdvar Əliyev

Son 200 ildə dünyanın iqtisadi inkişafının başlıca cəhətlərindən olub və XVIII əsrin sonları XIX əsrin əvvəllərindən başlamış sənaye inqilablarının genezisinin əmək məhsuldarlığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb etməsi baxımından onun başlıca mərhələlərindən olan sadə əmək kooperasiyasından və manufakturadan irimaşınlı istehsala, daha sonra isə bilik iqtisadiyyatına, nano texnologiyalara, rəqəmsal iqtisadiyyata qədər inkişaf təşkil edir. Bu sənaye inqilabları məhsuldar qüvvələrin inkişafında insanın min illər boyu əldə edə bilmədiyi bir səviyyəyə nail olmağa imkan vermiş, yeni texniki-texnoloji kəşflər nəticəsində işçi funksiyasını insanlarla yanaşı, maşınlar yerinə yetirməyə başlamış, insan əsasən işçidən nəzarətçiyə çevrilmişdir.

Qloballaşan dünyanın iqtisadi inkişafının müasir mərhələsi IV sənaye inqilabı ilə səciyyələnir. IV sənaye inqilabı kiberfiziki sistemlərin kütləvi şəkildə istehsala tədbiqini şərtləndirir. Bu sənaye inqilabı insan həyatının müxtəlif sahələrini: əmək bazarı, həyat mühiti, siyasi sistem, texnoloji uklad və digər sahələrini əhatə edir. Fiziki dünyanın obyektlər çoxluğuna rəqəmsal uçot və nəzarəti minumum edir. Rəqəmsal informasiyanın qeydiyyatı, saxlanılması, ötürülməsi fiziki sistemlər bazasında həyata keçirilir.

İqtisadiyyatın rəqəmsallaşdırılması və əməliyyatların daha çox virtual aləmdə yerinə yetirilməsi IV sənaye inqilabının əsas fərqləndirici xüsusiyyətlərindəndir.

Bu sənaye inqilabının səciyyəvi cəhətlərindən biri də "internet əşya"nın tətbiqidir ki, bu da sənayedə kütləvi şəkildə fərdi sifarişlərin qəbulu və yerinə yetirilməsini mümkün edir, iqtisadi proseslərdə insan faktorunun iştirakının azalması ilə ümumi xərclərin aşağı




düşməsinə şərait yaradır.

Qeyd edək ki, "internet əşya" fəaliyyət və əməliyyatların bir hissəsindən insanın iştirakını istisna edən iqtisadi və ictimai prosesləri yenidən qurmaq qabiliyyətinə malik olan fiziki predmetlərin hesablama şəbəkəsidir.

Müasir dövrdə "internet əşya" bazarı sürətlə artım dövrünü yaşayır. Erikson şirkətinin fikrincə, 2018-ci ildə ötürücü mexanizm



## SAHİBKAR FİKRİ

Alibaba Graup-un prezidenti Maykl Evans qeyd edir ki, yaxın 50-60 ildə internet vasitəsi ilə işləyən 60 mln. kiçik və orta biznes müəssisələri yaradılacaq. Dünya ticarətində aparıcı rol onlara məxsus olacaq, etiketlər dəyişərək "İnternetdə hazırlanmışdır" formasını alacaq.

və qurğularının sayına görə internet of Thinqs (İOT) mobil telefonlarının sayını ötüb keçəcək. IV sənaye inqilabının ən böyük töhfələrindən olan 3D-çap isə istehsalda və yeni məhsulun mənimsənilməsində xərcləri kəskin şəkildə azalda biləcək ən müasir rəqəmsal texnologiyadır. Məlumatlara görə, Amerikanın Aris Cor şirkəti 3D printerinin köməyi ilə bir sutka ərzində 38 kv. metrlik mənzil tikmişdir. Şirkətin əməkdaşlarının dediklərinə görə, tikinti materiallarının 175 illik ömrü var.

3D – çap (peçat) vahid platforma əsasında fiziki obyektlər çoxluğu yaradılmasının universal metodunun ixtirasıdır. (3D ifadəsində "D" işarəsi ingiliscə "dimension" ölçü mənasını verir. 3D-3ölçülü deməkdir.)

IV sənaye inqilabının bütün mərhələlərində insan tədricən ağır fiziki əməkdən, sonradanisə əməyin yeknəsəkliyindən azad olur. Araşdırmalar göstərir ki, IV sənaye inqilabı insanı çoxlu sayda oxşar, təkrarlanan məsələlərin (işlərin) həllindən azad edəcək. Yüksək intellektual və yaradıcı iş üçün imkanlar genişlənəcək. Bu zaman insan daha çox tələb olunan olduğundan daha yüksək qiymət kəsb edəcək.

Dünya İqtisadi Forumunun ekspertlərinin 2018-ci ilin yanvarında dərc olunmuş "Gələcək istehsala hazırlıq" məruzəsində qeyd olunur ki, yeni rəqəmsal texnologiyanın tətbiqi məsrəf-fayda nisbətində dəyişikliyə gətirib çıxaracaq. Nəticədə müəssisələrin ucuz iş qüvvəsinə, xammal bazasına yaxın yerləşməsinin cəlbediciliyi ilə müqayisədə dəyərin əlavə olunması həlqəsi daha müəyyənedici olacaq. Bu halda müəssisələrini uzun müddət ucuz iş qüvvəsinə yaxın yerləşdirilməkdə maraqlı olan ölkələr müəssisələrinin fəaliyyətini dayandırmağa məcbur olub, fəaliyyətlərini istehlakçıya yaxın yerləşdirməkdə maraqlı olacaqlar.



Məsələn, "Adidas" firması hazırda istehsal güclərini Çindən Almaniyaya köçürməyi planlaşdırır. 3 D-printerləri sahəsindəki nailiyyətlər bu prosesi iqtisadi cəhətdən səmərəli edir. Ortamüddətli dövrdə Adidas ABŞ-da, Böyük Britaniyada, Fransada yeni texnologiyadan istifadə etməklə məhsullarını istehlakçıya tez çatdırmaq məqsədi ilə müəssisələr yaratmağı planlaşdırır.

Bütövlükdə götürdükdə müasir dövrdə beynəlxalq ticarətin 12%-i, xidmətlərin isə 15%-i internet vasitəsi ilə həyata keçirilir. IV sənaye inqilabı gələcəkdə bu əməliyyatlarda internetin xidmətlərinin payının daha sürətlə artmasına imkan verəcək.

Alibaba Graup-un prezidenti Maykl Evans qeyd edir ki, yaxın 50-60 ildə internet vasitəsi ilə işləyən 60 mln. kiçik və orta biznes müəssisələri yaradılacaq. Dünya ticarətində aparıcı rol onlara məxsus olacaq, etiketlər dəyişərək "İnternetdə hazırlanmışdır" formasını alacaq.

IV sənaye inqilabı şəraitində yeni texnologiya iqtisadi inkişafda milli sərhədlərin roluna münasibəti də tədricən dəyişməyə başlayır. İlk növbədə bu rəqəmsal iqtisadiyyata aiddir. O, istehsala ciddi təsir göstərərək onun məhsuldarlığını artırır və rəqabət qabiliyyətliliyini yüksəldir. Mütəxəssislərin hesablamalarına görə, emal sənayesində rəqəmsal texnologiyanın tətbiqi bir işçinin məhsul buraxılışını 30 % artırır, iş qüvvəsi məsrəflərini isə 30% aşağı salır.

IV sənaye inqilabı deyilən cəhətlərlə yanaşı, sosial təbəqələşmənin də dərinləşməsinə səbəb ola bilər, yəni çoxlu sayda məsələlərin (işlərin) robotlaşdırılmış həlli aşağı və orta ixtisaslı əməyin qiymətdən düşməsinə rəvac verə bilər. Nəticədə orta sinfin maddi təminatı pisləşə bilər, belə ki, o, özünün insan kapitalı kimi inkişafına kifayət qədər məsrəf sərf edə bilməz. Bu isə öz növbəsində dayağı orta sinifdən ibarət olan cəmiyyətdə sosial-iqtisadi sistemin zəifləməsinə gətirib çıxara bilən problemlər yarada bilər.

Rəqəmsal iqtisadiyyat üçün coğrafi sərhədlər şərti xarakter daşıdığından rəqəmsal iqtisadiyyatın inkişaf etdiyi ölkələrin təsirindən qorunmaq üçün IV sənaye inqilabının zəif inkişaf etdiyi ölkələrdə o, cümlədən də Azərbaycanda çox ciddi qabaqlayıcı tədbirlər həyata keçirilməlidir. Bu qabaqlayıcı tədbirlər ilk növbədə milli iqtisadiyyatda virtual aləmin üstünlüklərindən istifadənin gücləndirilməsinə istiqamətlənməlidir. Fikrimizcə belə olarsa, ölkəmiz IV sənaye inqilabının nailiyyətlərindən daha yaxşı bəhrələnmək imkanı əldə edər.

# BİLİK İQTİSADİYYATI, İQTİSADİ ARTIM VƏ DÖVLƏT

dos. Elşən Bağırzadə

XX əsrin 60–70-ci illərindən başlayaraq elektronlaşmada, informasiya və kommunikasiya texnologiyalarında ortaya çıxan inqilabi yenilikləri, onların sürətlə iqtisadiyyata tətbiqini və xidmətlər sektorunun ciddi şəkildə yüksəlişini nəzərə alan elm adamları dünya iqtisadiyyatının inkişafındakı bu yeni mərhələyə müxtəlif adlar verməyə başladılar. “Post-sənaye”, “post-iqtisadiyyat”, “post-kapitalizm”, “informasiya cəmiyyəti”, “bilik cəmiyyəti” kimi adlar bunlardan bəziləridir. Bir də vaxtilə Peter Drucker tərəfindən populyarlaşdırılan “bilik iqtisadiyyatı” termini (ing. knowledge economy və ya knowledge based economy) var. Bu termin də dünya iqtisadiyyatının bu yeni inkişaf mərhələsində yaradılan hər bir əlavə dəyərin daha çox bilikdən istifadəyə əsaslanmasını, başqa sözlə, iqtisadi fəaliyyətlərin getdikcə xammaltutumlu, əməktutumlu, enerjitutumlu olmaqdan çıxaraq daha çox biliktutumlu olmasını ifadə etmək üçün istifadə edilir.

**Post – sənaye**

**Bilik Cəmiyyəti**

Müasir dünya iqtisadiyyatında bilik, yaradılan əlavə dəyərin başlıca mənbəyi olduğu kimi, rəqabət gücünü də təmin edən əsas amildir. Artıq dünyada ucuz xammala, ucuz əmək ehtiyatlarına əsaslanan firmalar / iqtisadiyyatlar, biliyə, yüksək texnologiyaya əsaslanan firmalar / iqtisadiyyatlar qarşısında rəqabət etməkdə çətinlik çəkirlər. Bir qədər obrazlı ifadə etsək, bu gün qumu yalnız tikinti materialı kimi istifadə edən təbii resurslara əsaslanan iqtisadiyyatlar yoxsul, qumu şüşə istehsalında istifadə edən sənayeləşmiş iqtisadiyyatlar orta gəlirli, qumu çip istehsalında istifadə edən biliklərə əsaslanan iqtisadiyyatlar isə zəngin iqtisadiyyatlardır.

Biliyə əsaslanan iqtisadi fəaliyyətlər daha yüksək əlavə dəyərə malik məhsulların istehsalına, daha yüksək məhsuldarlığa imkan verdiyindən, ölkələrin də sürətlə zənginləşməsinə səbəb olurlar. Kənd təsərrüfatı malları kimi, məhsullar istehsal edən iqtisadiyyatlar ilə mobil telefon, mikroprosessor kimi məhsullar istehsal edən iqtisadiyyatların məhsuldarlıq səviyyələri arasındakı fərqin uçurum olduğuna yəqin ki, heç kim etiraz etməz. Son model bir “i-phone” markalı telefonu idxal etmək istəyən pomidor istehsalçısı bir ölkənin nə qədər pomidor ixrac etməli olduğunu və buna nə qədər vaxt və əmək sərf etməli olduğunu düşündükdə, hesab edirəm ki, məsələ kifayət qədər aydın olur.

Şübhəsiz ki, zamanla iqtisadi fəaliyyətlərin xarakteri dəyişsə də, məqsədi heç vaxt dəyişmir. Bilik iqtisadiyyatında

1 DÖVLƏTİN EDƏCƏKLƏRİ:
İlk növbədə yüksək keyfiyyətli təhsil sisteminin, tətdqiqat universitetlərinin, yaradıcılığın mənbəyi olacaq texnoparkların və s. formalaşdırılması.

2 Azad bazar mexanizminin qaydalarını qəbul etmək və onların icrasına nəzarət etməkdir.

da iqtisadi fəaliyyətlərin məqsədi daha yüksək iqtisadi artıma nail olaraq əhalinin həyat səviyyəsini daha da yüksəltməkdir. Biliyin strateji məhsula çevrildiyi bilik iqtisadiyyatında iqtisadi artımın da əsas mənbələri kimi insan kapitalı və texnologiya çıxış edir. Elmə və təhsilə qoyulan investisiyalar yeni biliklər və yüksək insan kapitalı doğurur, bunlar innovasiyalara (texnologiyalar) və onların iqtisadiyyata tətbiqinə imkan verir, sonuncu iqtisadi artımı sürətləndirir, daha yüksək iqtisadi artım da elmə və təhsilə daha çox investisiya qoymağa şərait yaradır. Göründüyü kimi, bilik iqtisadiyyatında elm və təhsilin inkişafı ilə iqtisadi artım arasında belə bir zəncirvari əlaqə mövcuddur. Onun üçün də resurslar hesabına iqtisadi artım əldə edən ölkələr bilik iqtisadiyyatına keçidi təmin etmək üçün tədricən elmə və təhsilə investisiyaları artıraraq bu zəncirvari əlaqənin qurulmasına nail olmağa çalışmalıdırlar.

Bəs bilik iqtisadiyyatında dövlətin iqtisadi artımdakı rolu nədən ibarətdir? Şübhəsiz ki, dövlət ilk növbədə özəl sektorun təkbaşına edə bilməyəcəyi yüksək keyfiyyətli təhsil sistemini, tətdqiqat universitetlərini, yaradıcılığın mənbəyi olacaq texno-parkları və s. formalaşdırmalıdır.

Dövlətin etməli olduğu digər bir iş də azad bazar mexanizminin qaydalarını qəbul etmək və onların icrasına nəzarət etməkdir. Bu qaydalar bir tərəfdən rəqabəti, təşəbbüskarlığı, yaradıcılığı, yenilikçiliyi təşviq etdiyi halda, digər tərəfdən də haqsız rəqabətin qarşısını almalıdır. Nəzərə almaq lazımdır ki, bilik iqtisadiyyatı həm də yaradıcı iqtisadiyyatdır və yaradıcılıq fəaliyyətləri daha azad rəqabət mühitini, eləcə də intellektual mülkiyyət hüquqlarının daha ciddi qorunmasını tələb edir.

Bu qeyd edilənlərlə yanaşı, təbii ki, dövlət makroiqtisadi vəziyyəti də stabil və tarazlı şəkildə idarə edə bilməlidir. Hər şeydən öncə ona görə ki, bilik iqtisadiyyatı getdikcə iqtisadi qloballaşmanı daha da dərinləşdirir və qlobal iqtisadiyyat şəraitində ölkələrin makroiqtisadi mühitinin dayanıqlığını təmin etmək də çətinləşir. Buna görə də əvvəlki dövlərlə müqayisədə daha çevik makroiqtisadi siyasətə ehtiyac artır.

Bütün bu şərtlər altında universitetlər və tədqiqat qurumlarının ortaya qoyduğu innovasiyalar və insan kapitalı ilə iqtisadiyyatın ehtiyacları arasında iqtisadiyyatın ortaya qoyduğu mal və xidmətlərlə də bazarın ehtiyacları arasında düzgün koordinasiya qurulursa, daha iqtisadi artımın qarşısında da elə bir maneə qalmır.



## Biliyə əsaslanan iqtisadi fəaliyyətlər
## **Ölkələrin sürətlə zənginləşməsinə səbəb olur**



# Şəbəkə iqtisadiyyatı və iqtisadi artım

i.e.d. Arzu Hüseynova

Şəbəkə iqtisadiyyatı iqtisadi artımın yeni xüsusiyyətlərini nümayiş etdirir və yeni iqtisadi imkanlarını açır.

Bu gün informasiya texnologiyalarının sosial-iqtisadi inkişafa təsiri və bu prosesləri əks etdirən "şəbəkə iqtisadiyyatı" haqqında çox danışılır. "Şəbəkə iqtisadiyyatı" anlayışı ilk dəfə 1997-ci ildə Avropa Komissiyasının Məruzəsində istifadə edilmişdir. Şəbəkə iqtisadiyyatı dedikdə, internet şəbəkəsinin informasiya-kommunikasiya şəbəkələrinin, yüksək texnologiyalar və informasiya məhsullarının istifadəsi nəticəsində formalaşan iqtisadiyyat başa düşülür. "Qlobal şəbəkə iqtisadiyyatı" anlayışı isə iqtisadi sistemin tərkibi olan istənilən şirkət və ya fərdi şəxsin problemsiz və minimal xərclərlə istənilən digər şirkət və ya fərdi şəxslə birgə iş, ideya və ya nau-hau (know-how) mübadiləsi, ticarət və s. sahədə qarşılıqlı fəaliyyət göstərdikləri mövcud mühit başa düşülür.



"Şəbəkə iqtisadiyyatı" anlayışı elmi ədəbiyyatlarda, bir çox ölkələrin rəsmi sənədlərində, həmçinin beynəlxalq sənəd dövriyyəsində geniş istifadə edilərək rəsmi status almışdır. Bu anlayış informasiya texnologiyalarının (İT) təsiri nəticəsində iqtisadiyyatda baş verən sistem dəyişikliklərini əhatə edir. Şəbəkə iqtisadiyyatı region və ya dövlətin yeni informasiya mərhələsinin inkişafının məğzini əks etdirir. Şəbəkə iqtisadiyyatı müxtəlif informasiya şəbəkələrinin (korporativ şəbəkə (intranet), işgüzar əməkdaşlıq şəbəkəsi (ekstranet), qlobal şəbəkə) istifadəsi şəraitində yaranıb və informasiya-kommunikasiya texnologiyalarının (İKT) istifadəsinin genişlənməsi nəticəsində müəyyən ərazidə sosial və iqtisadi mühitdə dərin sistem dəyişiklikləri ilə xarakterizə edilir. Beləliklə, şəbəkə iqtisadiyyatı altıncı sənaye (industrial) və ya birinci post-industrialın quruluş əsas amili hesab edilir. Bu iqtisadiyyatda cəmiyyətin inkişafının əsasını düşüncə sürəti ilə informasiya ötürülməsi; nanotexnologiya; gen mühəndisliyi; süni intellekt; innovasiya ideyası kimi elementlər təşkil edir.

Şəbəkə iqtisadiyyatında informasiya ehtiyatlarının istifadəsini aşağıdakı kimi göstərə bilərik:

Şəbəkə iqtisadiyyatı = ənənəvi iqtisadiyyat + informasiya ehtiyatları və texnologiyaları.

Şəbəkə iqtisadiyyatına fəaliyyət səmərəliliyi istehsal prosesində İT-dən istifadə səviyyəsindən asılı olan iqtisadi sahələr daxil olur. Bunlara virtual müəssisələr, elektron kommersiya, internet, bank, distant təhsil və s. aiddir.

Müasir cəmiyyətdə inkişafın bu mərhələsinə çatan ölkə səmərəli iqtisadi sistemə malik olur. Bu ölkələr inkişafın əsas göstəriciləri (əhalinin həyat səviyyəsi və uzunömürlülük, təhsilin və səhiyyənin inkişaf səviyyəsi, sosial təhlükəsizlik) üzrə ön sıralarda gedirlər. Misal olaraq ABŞ, Yaponiya, Almaniya kimi ölkələri göstərə bilərik. Bu ölkələrdə informasiya-telekommunikasiya sektorunun ÜDM-də payı 65% təşkil edir. Bu ona şahidlik edir ki, İKT-nin inkişafı ölkələrin və regionların rəqabət qabiliyyətliliyinin əsas amilidir.

Bu gün dünya ÜDM-in 3,5%-ni İKT-nin sənaye sektoru təşkil edir. Göstərilən ədəd İKT-nin iqtisadi artıma və insanın həyat fəaliyyətinə təsirini tam əks etdirmir. İKT sektorunun əhəmiyyətli elementləri olan yüksək sürətli internet və ya mobil geniş zolaqlı rabitə ölkənin və ya regionun bütün vacib iqtisadi göstəricilərinin artımını dəstəkləyir. Digər tərəfdən bu texnologiyalar insanların qarşılıqlı fəaliyyəti proseslərini sürətləndirir və asanlaşdırır, iqtisadiyyatın müxtəlif sahələrində əmək məhsuldarlığını artırır, əlavə sosial-iqtisadi effekt






# ŞƏBƏKƏ İQTİSADİYYATINDA İQTİSADİ ARTIMIN DOMİNANTI İNFORMASİYA OLUR!

yaradır. Misal kimi, McKinsey şirkətinin hesablamala-rından alınan nəticəni çəkək. McKinsey hesablama-larına görə, inkişaf etməkdə olan ölkələrin ərazisində yalnız mobil geniş zolaqlı rabitənin əhatə dairəsinin inkişaf etmiş ölkələrin indiki halına qədər artırılması dünya ÜDM-nin 300-420 mlrd. dollar sərhədlərində artmasına təminat verə bilər. Bunun nəticəsində yüksək texnoloji avadanlıq və elektron cihazla, ofşor (offshore) xidmətlər və aut sorsinq (out sorting) sahələrində 14 mln. yeni iş yeri açmaq olar.

İKT-nin iqtisadi artımda rolu son qlobal maliyyə-iqtisadi böhrandan sonra daha da artıb. İnkişaf etmiş ölkələrin rəhbərləri hesab edirlər ki, geniş zolaqlı rabitəyə maliyyə xərclərinin artırılması, yaşıl energetikaya özəl-dövlət investisiyası, elektron kartların səhiyyəyə, müasir kompüterlərin sosial-iqtisadi sahələrə tətbiqi və rəqəmsal infrastrukturun inkişafı ölkənin rəqabət qabiliyyətliliyinin dəstəklənməsinin səmərəli və doğru yoludur. Müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə İKT sahəsinə investisiya axını iqtisadi artımın əsas stimuludur. Ölkənin İKT-yə hazır olması ilə onların rəqabət qabiliyyətlilik səviyyəsi arasında çox sıx qarşılıqlı əlaqə var. Ölkənin İKT sektorunun inkişafı ilə dünyada onun rəqabət qabiliyyətliliyinin yüksək səviyyəsi qarşılıqlı əlaqədə izlənilir. Çünki informasiya texnologiyaları uzunmüddətli perspektivdə iqtisadi sistemin səmərəliliyini daim artırır.

İqtisadi artım ölkə iqtisadiyyatına birbaşa və dolayı təsir ilə əldə edilir. Birbaşa təsir uyğun texnoloji infrastruktura dövlət və özəl investisiyası cəmiyyətin bu sahələrinə informasiya-kommunikasiya xidmətlərinin verimliliyinin artırılması və informasiya sektorunda əhalinin məşğulluğunun artırılması kimi amillərdir.

İnformasiya texnologiyalarına və rabitə şəbəkələrinə stabil investisiya yeni iş yerlərinin yaradılması, əhali tərəfindən xidmət və sosial nemətlərdən istifadə səviyyəsinin artırılmasına gətirir. Bu da cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinə müsbət təsir edir.

İKT sektorunun inkişafına dolayı təsir əmək məhsuldarlığında, informasiya texnologiyaları sahəsində yüksək potensiallı ölkələrdə birbaşa qısamüddətli və uzunmüddətli xarici investisiyaların gücləndirilməsində, innovasiya klasterlərinin, elmi-istehsalat birliklərinin və elm şəhərciklərinin yaradılmasında, informasiya xidmətlərinin digər ölkələrə aktiv eksportunda əks edilir.

İKT-nin inkişaf səviyyəsinin ölkə iqtisadiyyatına təsirini tamamlamaq üçün bu sahənin qiymətləndirilməsi və qeydiyyatı sistemi olmalıdır. Bu gün belə qiymətləndirməyə müxtəlif yanaşmalar mövcuddur:

1. İnformasiya cəmiyyətinin vəziyyət indeksi ( Information Society Index);
2. İnformasiya bərabərsizliyi indeksi (DOT Forse Index);
3. K4D (Knowledge for Development) indikatorlar sistemi;
4. Ölkənin şəbəkə iqtisadiyyatına hazırlığının qiymətləndirilməsinin Harvard metodikası.

Beləliklə, informasiya texnologiyası inkişafa təkan verir. Bu heç bir şəkildə qısamüddətli bir fenomen kimi qəbul edilə bilməz. O, elmi və texnoloji tərəqqinin yollarını və vasitələrini radikal şəkildə dəyişən empirik qanunauyğunluğa toxunur. Bəzi texniki qanunauyğunluqların təhlili göstərir ki, onların təsiri texnoloji aspektlərlə məhdudlaşmır, həm də geniş iqtisadi nəticələrə malikdir. İnformasiya texnologiyaları nailiyyətlərinə əsaslanan şəbəkə iqtisadiyyatının inkişafı ilə sənaye iqtisadiyyatının bəzi ənənəvi qanunları öz əhəmiyyətini itirir, yeni iqtisadi fəaliyyət növü yaranır.

Şəbəkə iqtisadiyyatında iqtisadi artımın dominantı informasiya olur və bazis innovasiyanın nüvəsini rəqəmsal və kompüter texnikası təşkil edir. Burada əmək bölünməsinə əsaslanan funksional ixtisaslaşma yerini texnoloji şəbəkələr əsasında əmək proseslərinin inteqrasiyasına verir. Şəbəkə iqtisadiyyatına keçidi telekommunikasiya infrastrukturu təmin edir.



# BİLİYİN MADDİLƏŞMƏSİ PROSESİNİN SÜRƏTLƏNMƏSİ

i.e.d., prof. İrşad Kərimli

## Biliyin maddiləşməsi mərhələli və ardıcıl dəyişiklik tələb edir

Biliyin maddiləşməsini sürətləndirmək üçün mərhələli və ardıcıl dəyişikliklər həyata keçirilməlidir. Mərhələli dəyişiklik elektron texnologiya vasitələrinin, yəni İKT məhsullarının istehsalı və tətbiqinin genişləndirilməsi əsasında, ardıcıl dəyişikliklər isə əsaslı iqtisadi-təşkilati və texniki-texnoloji islahatların həyata keçirilməsi ilə aparılmalıdır.

Elmi ədəbiyyatda çox hallarda bilik iqtisadiyyatı və innovasiya iqtisadiyyatı ifadələri oxşar anlayışlar kimi eyniləşdirilsə də, fikrimizcə, bilik iqtisadiyyatı özünün innovasiya xüsusiyyətləri ilə fərqlənən daha əhatəli iqtisadiyyatdır. Bunu aşağıdakı şəkildə göstərilən ardıcıllıqdan da görmək olar (şəkil 1).



Beynəlxalq iqtisadiyyatda biliklərin istehsalı, yayılması və istifadəsi sürətlə baş verir, birinin istifadəsi başa çatmamış digərinin istehsalı başlayır. Bu halı Azərbaycan iqtisadiyyatı ilə onun real və xidmət sektorları ilə, xüsusən təhsil sistemi ilə əlaqələndirmək, təhsil müəssisələrinin texniki, iqtisadi, sosial və fiziki mühitinə uyğunlaşdırmaq tələb olunur. Reallıq belədir ki, Azərbaycanın təhsil sistemində yeni innovasiya texnologiyalarının tətbiqi ilə əlaqədar əsaslı islahatların aparılması məsələsinin həlli olduqca vacibdir. Belə ki, təhsil müəssisələrində tədris prosesinin, elmi-tədqiqat işlərinin və habelə inzibati-təsərrüfat fəaliyyətinin idarə olunmasının əsasında elektron idarəetmə texnologiyalarının yaratdığı mövcud və real imkanları mənimsəmək, onlardan bəhrələnmək dayanır.

## Elektron idarəetmə texnologiyalarından istifadədə UNEC təcrübəsi

UNEC-in auditoriyalarında tədris prosesi elektron idarəetmə texnologiyalarının köməyi ilə yaradılan pozitiv imkanlar, xüsusən müəllim və tələbələrin elektron kabinetləri və tədris auditoriyalarında qurulan elektron tribunalar diqqəti daha çox cəlb edir. Elektron tribunaların köməyi ilə həmin kabinetlərdə yerləşdirilən tədris, təlim, tərbiyə və bütünlükdə biliklərin istehsalı, ötürülməsi və istifadəsi ilə bağlı bütün materiallardan zaman və məkan baxımından faydalı istifadə olunur.

UNEC-in inzibati-təsərrüfat fəaliyyəti elektron idarəetmə texnologiyalarının köməyi ilə elektron sənəd dövriyyəsindən istifadə edilir. Elektron idarəetmə sistemlərinin UNEC-in istər tədris-elm və istərsə də inzibati-təsərrüfat fəaliyyətində tədricən hərtərəfli tətbiq olunması, informasiya resurslarının sistemli hazırlanmasını və istifadəsini zəruri etmişdir. İnformasiya resurslarından tədricən, eyni zamanda mərhələli qaydada istifadə, fikrimizcə, bilik iqtisadiyyatının nüvəsini təşkil edən: innovasiya, təhsil və İKT kimi biri digərindən ayrılmaz 3 prosesin UNEC-in gələcək fəaliyyətində çox əhəmiyyətli olacağı indidən hiss olunur.

## Universitetlərdə texnoloji infrastrukturun yaradılması və ixtisaslı kadrların mövcudluğu

İnformasiya texnologiyalarından istifadənin kadr hazırlığının bir sahəsindən digərinə keçidi, professor-müəllim heyətindən və inzibati işçilərdən ibarət mütəxəssislərdən uyğun peşə səviyyəsini və minimal informasiya toplamaq və istifadə etmək savadının olmasını tələb edir. Eyni zamanda yeni informasiya resurslarından və texnologiyalarından istifadə təhsildə yeni elmi biliklər və bu biliklərin kommersiya məhsuluna çevrilməsi imkanlarını artırır. Bu mənada informasiya resurslarının və İKT-nin daha geniş miqyasda yayılması üçün əsas şərt hesab olunan biliyin qiymətli məhsula çevrilməsi imkanlarının artırılması diqqəti daha çox cəlb edir. İlk növbədə yeni innovativ biliklərin istehsalı və yayılması texnologiyası innovativ təhsil ideyalarının geniş tətbiqinə yol açmalıdır. Bu yolun uğurlu olması universitetlərdə texnoloji infrastrukturun yaradılmasından, bunun özü isə yüksək ixtisaslı mütəxəssis kadrların mövcudluğundan asılı olacaqdır.



Şəkil 1.

İnnovativ bilik istehsalı üçün innovativ təhsil ideyalarının yaradılması və tətbiqi lazımdır. İnnovativ biliklərin istehsalı təhsil sistemində innovativ təhsil ideyalarından nə qədər çox asılıdırsa, innovativ ideyalarda bir o qədər çox texnoloji infrastrukturun inkişafından və bu strukturda çalışan ixtisaslı mütəxəssislərin tərkibindən asılı olur. Belə asılılığın özü elektron mühitin yaradılmasını, yəni elektron resurslardan istifadəni artırmaqla biliyin yüksək dəyərli məhsula çevrilməsi imkanlarını artırır.

## Elektron vasitələrdən istifadə səviyyəsi ilə elektron resursların keyfiyyəti arasında əlaqə

Ali təhsil müəssisələrində mütəxəssis hazırlığı və elmi tədqiqatlarla yanaşı, innovasiyalı inkişafın təmin edilməsi kimi iki başlıca vəzifə biri digərini tamamlamalıdır. Yəni təhsilin, tədqiqatın və innovasiyanın hər birini nəyin ki, ayrı-ayrılıqda və habelə birlikdə keyfiyyət göstəricilərinin yüksəlməsi dərəcəsi müəyyən edilə bilsin. Daha sadə desək, bilikləri öyrədənlərin və öyrənənlərin elektron öyrətmə vasitələrinin köməyi ilə elektron resurslardan istifadənin mövcud və potensial imkanları aşkara çıxarıla bilsin. Elektron resursların çox saylı elementləri sistemləşdirilərək əldə olunan ümumi nəticələrə qiymət verilərkən aşağıdakı şəkildə göstərilən ardıcıllığa fikir vermək lazım gəlir (şəkil 2).

Sxematik təsvirdən görünür ki, elektron resursların potensial imkanları ilə onların mövcudluğu arasında qarşılıqlı şərtlənmə tələb olunsa da, bütün hallarda həmin şərtlənmənin reallığı hələ ki formalaşmamışdır. Yəni Azərbaycanda təhsil sisteminin, elmin və innovasiyanın potensial imkanları çox olsa da həmin imkanların elektron biliklərə çevrilərək maddiləşməsində, son məhsula keçməsi imkanlarının reallaşmasında boşluqlar çoxdur. Daha böyük boşluq elektron resurslar üzrə əldə olunan nəticənin keyfiyyəti ilə həmin resurslardan istifadədə birbaşa iştirak edən elektron vasitələrin səviyyəsi arasındakı uyğunsuzluqdadır. Bu, Azərbaycanda nəyin ki, elektron vasitələrlə və habelə elektron resurslarla işləyə bilən yüksək ixtisaslı mütəxəssis kadrların azlığından irəli gəlir.

Öyrədənlərin və öyrənənlərin elektron öyrətmə vasitələrinin köməyi ilə elektron resurslardan istifadənin mövcud və potensial imkanları aşkara çıxarılmalıdır.



Şəkil 2. Elektron resursların potensial imkanları və mövcudluğu



# BİLİK İQTİSADİYYATI VƏ GƏLƏCƏYİN ƏMƏK BAZARI

i.e.f.d. Əliağa İsmayilzadə

20-ci əsrin 90-cı illərinin sonlarından etibarən elmi dövriyyəyə geniş daxil edilmiş "bilik iqtisadiyyatı" və ya "biliyə əsaslanan iqtisadiyyat" anlayışı (İngilis dilindən tərcümədə «knowledge-based economy») Avstriya-Amerika alimi Fritz Machlup tərəfindən 1962-ci ildə irəli sürülmüşdür.

Gələcək iqtisadiyyatın inkişafında biliklərin artan əhəmiyyəti T. Schultz və G. Beckerin insan kapitalı, E.Denison və R. Solownun iqtisadi modelləri, M.Porterin beynəlxalq rəqabət qabiliyyətliliyi nəzəriyyəsi və digər bir çox tanınmış elmi nəzəriyyələrində dərin əsaslandırma tapmışdır.

G. Becker, "İnsan kapitalı: nəzəri və empirik analiz " adlı məşhur kitabında təhsil və elmin birbaşa məhsuldar qüvvəyə çevrilməsini və onların prioritet maliyyələşdirilməsinə ehtiyac olduğunu əsaslandırmışdır.

Bu iqtisadiyyatın xarakterik xüsusiyyətləri iqtisadiyyatın maddi-texniki təşkili və idarə edilməsində istifadə edilən amillərdə dərin dəyişikliklərin baş verməsi olmuşdur. Bilik iqtisadiyyatı texnoloji biliklərin (hi-tech) və istehsalın təşkili sistemlərinin (know-how) hərtərəfli və geniş tətbiq olunmasına əsaslanır. "İqtisadiyyatın intellektuallaşdırılması" getdikcə daha geniş və daha dərin bir xarakter qazanır.

Bu iqtisadiyyatın əhəmiyyətli bir xüsusiyyəti burada sənaye iqtisadiyyatı dövrünün "son məhsuldarlığın azalması" qanununun, "gəlirlərin artan qanunu" ilə əvəzlənməsidir. Təsədüfi deyildir ki, intellektual, elm tutumlu məhsulların inkişafı ilə məşğul olan şirkətlər (IBM, APPLE, Microsoft və s.) bu gün ön plana çıxır. Bu cür şirkətlərin işləməsinin bir xüsusiyyəti də onların malik olduğu maddi aktivlərinin dəyərinin kiçik olması və onların bazar dəyərlərinin bundan dəfələrlə çox olmasıdır. Bu, son məhsulun (onların fəaliyyətinin nəticəsi) fiziki, maddi şeylər sayəsində deyil, bu məhsulu istehsal edən işçilərin bilik və bacarıqlarının səyi ilə mümkün oldu.

Bilik iqtisadiyyatında daha rəqabətli iqtisadiyyatlar daha çox təhsil və elmin inkişafına maliyyə yatırırlar. Elmi tədqiqatlar və inkişaflar (İT) üçün ABŞ, Çin, Yaponiya və Almaniya kimi dünya liderləri təkcə 2015-ci ildə, müvafiq olaraq, 457,0; 368,7; 166,9 və 108,8 milyard ABŞ dolları xərcləmişlər. Daxili xərclərin tədqiqat və inkişafı üçün ÜDM-ə nisbəti OECD ölkələri üçün 1995-ci ildə 1,99% -dən 2014-cü ildə 2,38% -ə və nəzərdən keçirilən dövrdə AB-28 ölkələri üzrə 1,60% -dən 1,95% -ə artmışdır.

İnformasiya iqtisadiyyatının sahə strukturu da sənaye dövrünün iqtisadiyyatından tamamilə fərqlənir. O, xidmət sektorunun sürətli inkişafı ilə xarakterizə olunur. Xidmət sektorunun ən sürətlə inkişaf edən, bilik və məlumatlara əsaslanan, alt sektorları əsasən təhsil, tədqiqat və inkişaf, telekommunikasiya və biznes xidmətləri kimi seqmentlər ilə

# ELM MƏHSULDAR QÜVVƏYƏ ÇEVRİLMİŞDİR





təmsil olunur. Dünya Bankının hesablamalarına görə, 2016-cı ilin yanvarın 1-nə olan vəziyyətə görə, dünyada ÜDM-in təxminən 70% -i bu sektorda, AB və ABŞ kimi ən inkişaf etmiş ölkələrdə isə 70-80% istehsal olunmuşdur.

İnformasiya iqtisadiyyatının inkişafı məşğulluğun kəmiyyət və keyfiyyət strukturuna getdikcə daha geniş təsir göstərir. Keyfiyyət nöqteyi-nəzərindən ixtisaslı əməyin payı mütəmadi olaraq artır. İnkişaf etmiş ölkələr və keçid iqtisadiyyatı olan ölkələrin əksəriyyəti üçün ali və orta ixtisas təhsilli işçilərin yüksək nisbəti xarakterikdir. Məsələn, inkişaf etmiş ölkələrdə orta məktəb məzunlarının sayı demək olar ki, universitet abituriyentlərinə bərabərdir, onların ümumi sayında ali təhsili olan işçilərin payı artır. 21-ci əsrin ilk onilliyində Almaniya, Yaponiya, ABŞ, Kanada kimi ölkələrdə böyüklər üçün təhsilin müddəti 12-14 ilə çatmışdır.

Yeni biliklərin, məlumatın toplanması, analizi, emalı, saxlanılması və istifadəsi ilə bağlı peşələrin əhəmiyyəti getdikcə artır. Bu proseslər gəlirlərin qeyri-bərabər bölüşdürülməsinə şərait yaradır və onu ali təhsilin və yüksək ixtisaslı əməyin xeyrinə istiqamətləndirilməsinə kömək edir.

Kəmiyyət baxımından iqtisadiyyatın birinci və ikinci sahələrdə məşğulluğunun azaldılması və onun iqtisadiyyatın üçüncü sahəsinin xeyrinə yenidən bölüşdürülməsi prosesi mövcuddur. Bu sahə, yəni xidmət sektorunda, inkişaf etmiş ölkələrdə bütün məşğul olanların 60–70% -ni təşkil edir.

Sonda qeyd etmək lazımdır ki, iqtisadiyyatın inkişafında müasir tendensiyaların işgüzar bazarının inkişafı üçün uzunmüddətli perspektivlərə ekstrapolyasiyası ali təhsillə yüksək ixtisaslı işin artan üstünlüyü barədə danışmağa imkan verir ki, bu da standart düşüncə deyil, standartlaşdırma bacarığı, müxtəlif şəbəkəyə inteqrasiya etmək bacarığı, məlumatın təhlili və ümumiləşdirilməsi qabiliyyətinə yönəldiləcəkdir.

Klassik yanaşmada zənginliyin mənbəyi qəbul edilən əmək, torpaq, kapital kimi ənənəvi amillərin yerini günümüzdə bilik tutur. Bilik istehsal prosesinə nüfuz etdikcə əlavə iqtisadi dəyər yaradır və bu dəyər getdikcə artan istiqamətdə davam edir. Ona görə də müasir dünyada sosial-iqtisadi inkişafın yeni istiqaməti bilik əsaslı iqtisadiyyatdır. Bilik iqtisadiyyatı iqtisadi fəaliyyətlərin biliyə əsaslanaraq həyata keçirildiyi struktur deməkdir. Burada biliyin əldə edilməsi, emalı və konvertasiyası ilə onun paylanması əhatə edilir. Yəni bilik iqtisadiyyatı biliyin yaradılması ilə birlikdə onun səmərəli istifadəsi və yayılmasına əsaslanan bir sistemdir. Sistemin təməlini formalaşdıran əsas ünsür bilik olduğu kimi, rəqabət mühitinin fundamental amili də bilikdir. Beləliklə, müasir yanaşmalarda bilik iqtisadi resurs olaraq istehsal amili kimi qəbul edilməklə iqtisadi inkişafın əsas mənbəyi halına gəlmişdir.

İnkişaf etməkdə olan ölkələrin düzgün bir planlama ilə insan kapitalına, institutsional sistemin effektivliyinin artırılmasına, uyğun kommunikasiya texnologiyalarına, innovativ və sağlam rəqabətə əsaslanan sahibkarlıq mühitinin formalaşmasına investisiya etməklə qlobal dünyadakı “bilik inqilabından” faydalanmaqları mümkündür. Finlandiya, Cənubi Koreya, Yeni Zelandiya, İrlandiya, Malaziya, Sinqapur, son illərdə Çin və Hindistan kimi ölkələrdəki sürətli inkişaf buna nümunə olaraq göstərilə bilər. Dünya Bankının “İnkişaf üçün Bilik Proqramı” (Knowledge for Development-K4D) əlaqədar ölkələrin qlobal bilik iqtisadiyyatında digər ölkələrlə rəqabət qabiliyyətini müqayisəli olaraq qiymətləndirməyə imkan verir. Proqram ölkələrin bilik iqtisadiyyatına keçiddə əsas ala biləcəkləri “dördsütunlu çərçivə” (four-pillar framework) təqdim edir.

Bir ölkədə bilik iqtisadiyyatının formalaşdırılmasının ilk addımı ölkənin özü ilə birlikdə mövcud və potensial rəqiblərin güclü və



zəif tərəflərinin başa düşülməsidir. Bu addımdan sonra hədəflər müəyyənləşdirilməli, ona uyğun siyasət formalaşdırılıb investisiya edilməlidir. “Dördsütunlu çərçivə”yə görə bilik iqtisadiyyatının fundamental əsasları 4 göstərici üzərində bina edilmişdir. Bunlar: iqtisadi və institutsional rejim, təhsil və ixtisaslı kadr potensialı, informasiya-kommunikasiya infrastrukturu və innovasiya sistemidir.

Bu 4 əsasa görə formalaşdırılan “Biliyin Qiymətləndirilməsi Metodologiyası” (Knowledge Assessment Metodology-KAM) isə illər üzrə dəyişməklə, ümumilikdə 83 adda müxtəlif struktur və keyfiyyət dəyişmələrinə görə ölkələrin bilik iqtisadiyyatı baxımından nisbi performanslarını müqayisə etmək imkanı verir. Bundan əlavə, qeyd edilən metodologiya ilə seçilmiş xüsusi göstəricilərə görə hazırlanan ölkə hesabatı və ölkələrarası müqayisə də təmin edilə bilər. Biliyin qiymətləndirilməsi metodologiyasından istifadənin asanlığı, şəffaflığı və əlyetənliyi onun dövlət rəsmiləri, siyasətçilər, tədqiqatçılar, vətəndaş cəmiyyətinin nümayəndələri və özəl sektor tərəfindən geniş şəkildə istifadə edilməsinə şərait yarat-mışdır.

Ölkələrin və ya regionların bilik iqtisadiyyatına ümumi hazırlıq səviyyəsinin ölçülməsində ən çox istifadə edilən göstərici “Bilik İqtisadiyyatı İndeksi”dir (Knowledge Economy Index-KEI). Bu indeks hər bir ölkənin fəaliyyət



səviyyəsini yuxarıda qeyd edilən dördsütunlu çərçivəyə müvafiq olaraq 12 indikator üzərindən qiymətləndirir.

Bilik iqtisadiyyatının inkişaf etdirilməsi üçün iqtisadi və institutsional rejim elə qurulmalıdır ki, mövcud olan ilə yeni yaradılan biliyin effektiv istifadəsinə və sahibkarlıq fəaliyyətlərinin stimullaşdırılmasına gətirib çıxarsın. Bunun üçün isə bu sahədə həm tarif və qeyri-tarif məhdudiyyətlərin minimallaşdırılması, həm də ümumi idarəetmə keyfiyyətinin artırılması və hüququn üstünlüyü prinsipinin hamı tərəfindən qəbul edildiyi bir cəmiyyət formalaşmalıdır.

Bilik iqtisadiyyatının təhsil sütunu biliyin yaradılması, istifadə olunması və yayılması üçün ehtiyac duyulan bilik və bacarıqların təmin olunması prosesini özündə əks etdirir. Güclü informasiya kommunikasiya

# BİLİK və DAVRANIŞ İQTİSADİYYATI

i.ü.f.d. Altay İsmayılov






**Bilik İqtisadiyyatının əsas göstəriciləri**

| Bilik İqtisadiyyatının “4 sütunu” | Nəzərə alınan indikatorlar |
|---|---|
| İqtisadi və İnstitutsional Rejim | • Tarif və qeyri-tarif məhdudiyyətləri<br>• İdarəetmə keyfiyyəti<br>• Hüququn üstünlüyü |
| Təhsil və ixtisaslı kadr potensialı | • Oxuma-yazma dərəcəsi<br>• Orta təhsilli olanların faizi<br>• Ali təhsil alanların faizi |
| İnformasiya – kommunikasiya infrastrukturu | • Əhalinin hər 1000 nəfərinə düşən telefon sayı<br>• Əhalinin hər 1000 nəfərinə düşən kompüter sayı<br>• Əhalinin hər 1000 nəfərinə düşən internet istifadəçilərinin sayı |
| İnnovasiya sistemi | • Adambaşına düşən royalti ödənişləri və gəlirləri<br>• Texniki sahədə dərc olunan jurnal məqalələrinin sayı (hər milyon nəfərə düşən)<br>• Alınan beynəlxalq patentlərin sayı (hər milyon nəfərə düşən) |

Mənbə: Dünya Bankı

infrastrukturunun qurulması isə bilik iqtisadiyyatının inkişaf etdirilməsi üçün informasiyanın emal edilməsi və yayılması baxımından əhəmiyyətlidir. Çünki bilik iqtisadiyyatı və yeniliklərin tətbiqi birbaşa informasiyaya, onun emalına və yayılmasına, daha dəqiq desək, tətbiqinə əsaslanır. Bu baxımdan, güclü informasiya kommunikasiya infrastrukturu daha aktiv innovasiya sisteminin qurulması, bazarın ehtiyaclarının müəyyənləşdirilərək yeni texnologiyaların yaradılması və tətbiqinin stimullaşdırılmasında əhəmiyyətli rola malikdir. Qurulacaq innovasiya sistemi özündə iş dünyası, tədqiqat mərkəzləri, universitetləri və s. birləşdirir. Bu çərçivədə qeyd edilməlidir ki, bilik əsaslı iqtisadiyyatın formalaşdırılması üçün ilkin olaraq uyğun mühitin yaradılmasına ehtiyac vardır.

Sağlam təməllər üzərində qurulmalı olan bilik əsaslı iqtisadiyyata paralel olaraq, günümüzdə iqtisadi sferada geniş müzakirə obyektinə çevrilən istiqamətlərdən biri də davranış iqtisadiyyatıdır. Bilik iqtisadiyyatından fərqli olaraq, davranış iqtisadiyyatı sistemin necə işlədiyinə və işləməli olduğuna dair güclü nəzəri və normativ fərziyyələrə malik deyil. Bunun yerinə mövcud olan nəzəriyyələr insan davranışı baxımından nəzərdən keçirilərək təhlil edilir. Bu məqsədlə digər elm sahələrindən, xüsusilə psixologiya, sosiologiya, nevroloji, koqnitiv elmlərdən və s. əldə edilən nəticələr iqtisadi sahədə insan davranışlarını izah etmək məqsədilə istifadə edilir. Beləliklə, bilik iqtisadiyyatında olduğu kimi, biliyin yaradılması, konstruktiv yanaşmalarda yer alan elmi konsepsiyaların dinamikası və bu sahənin elm adamları tərəfindən davranış əsaslı iddiaların tətbiqi dəstəklənsə də bütün bunlar davranış iqtisadiyyatında mühüm bir rol oynamır.

Davranış iqtisadiyyatının metodoloji fokusu aparılan eksperimentlər üzərindədir. Bu istiqamətdə laboratoriya və sahə eksperimentləri arasında bir fərq qoyulur. İlkin mərhələdə laboratoriya təcrübəsi daha dominant ikən, getdikcə sahə eksperimentləri daha əhəmiyyətli hala gəlmişdir. Buna paralel olaraq nevroloji ölçmələrin tətbiqi də çoxalmışdır. Müşahidə edilən seçimin arxa planındakı alqoritmlərin təsvirinə və onların biofiziki tətbiqinə fokuslanan yeni bir sahə – neyro iqtisadiyyat sahəsi ortaya çıxmışdır. Görünən odur ki, getdikcə qeyd edilən amillərin prosesə qoşulması ilə məsələ yeni insan davranışları nəzəriyyələrinin təməllərinin atılmasına qədər genişlənəcəkdir. Burada xüsusi olaraq qeyd edilməlidir ki, iqtisadiyyatın bu yeni istiqamətinin inkişafı üçün də yüksək səviyyəli təhsil, inkişaf etmiş informasiya-kommunikasiya texnologiyaları, müasir innovasiya ekosistemi və bütün bunların düzgün və maneəsiz işləməsini təmin edən təşviqedici institutsional mexanizmə ehtiyac vardır. Bu da bir ölkədə davranış iqtisadiyyatının inkişafının onun bilik əsaslı iqtisadiyyatının şərtlərini ödəməsi ilə də bilavasitə əlaqədar olduğunu deməyə əsas verir.



# SÜNİ İNTELLEKT və BİZNES QƏRARLARI

dos. Ülviyyə Rzayeva

Müasir dünya emal olunmamış məlumatlar yükü altında sanki boğulur: natamamlıq, unikallıq və qeyri-adi dinamizm ilə xarakterizə olunan bu məlumatlar axınlarının formal strukturlaşması mümkün olmadığından "standart" verilənlər bazaları burada gücsüzdür. Məlumatlar axınının sürətlə artması iş metodlarında əhəmiyyətli dəyişikliklərə gətirib çıxarır.Bu proseslər yalnız məlumatların emalı və təhlilinin avtomatlaşdırılmasını deyil, həm də informasiya və təşkilati proseslərin intellektuallaşdırılmasını, bu istiqamətdə effektiv üsulların qurulmasını və həyata keçirilməsini təmin edən intellektual qərarların dəstək texnologiyalarını tələb edir.

Son zamanlar təbii zəkanın həll edə bilməyəcəyi yüksək dərəcədə mürəkkəb və aktual problemlərə dair cavabların tapılması üçün süni intellekt sistemlərinin yaradılması və tətbiqinə ehtiyac duyulur. Belə informasiya sistemlərinin yaradılması məsələləri cəmiyyət həyatında ən önəmlilərdən biridir. Bu məsələlərin qoyuluşu və həlli bilik mühəndisliyi, riyazi modelləşdirmə və məlumatların emalı sahəsində tədqiqatlara əsaslanan intellektual idarəetmə nəzəriyyəsinin və praktikasının nailiyyətləri sayəsində mümkün olmuşdur.

Müxtəlif təşkilati-texniki, texnoloji və insan-maşın sistemlərindən ibarət olan mövcud sosiotexniki sistemlər məqsədli və məqsədyönlü sistemlər sinfinə aid edilir. Onlar müvafiq vəziyyətə və effektivlik meyarlarına uyğun olaraq davranış seçimi azadlığını həyata keçirir. İnformasiyanı əldə, bərpa və istifadə etmək qabiliyyətinə malik olan bu məqsədli sistemlər intellektual sistemlər (İS) adlandırılır.

İntellektuallığın mühüm əlaməti sistemdə aşkar şəkildə olmayan həllərin çıxarılması, generasiyası və qurulması qabiliyyətidir. Bu xassədə sistemin deduktiv nəticəni almaq bacarığı ("təfəkkür"ü) öz əksini tapır. İnformasiya baxımından bəzən bu əlamət sistemdə açıq şəkildə təqdim olmayan yeni bir intellektual məlumatın yaradılması və yayılması qabiliyyəti kimi şərh olunur. İntellektual informasiya kimi semantik və praqmatik xüsusiyyətlərə malik olan məlumatlar başa düşülür, yəni bu məlumatlar müəyyən bir mənaya malikdir və müəyyən məqsədyönlü tədbirlər üçün nəzərdə tutulur. Belə ki, semantika və praqmatikanın İS-də təmsil olunmasının ən effektiv üsulu qraflar şəklində müəyyən informasiya strukturlarının qurulmasıdır ki, onların zirvələrində informasiya məğzləri yerləşir, qövsləri isə zirvələr arasında qarşılıqlı əlaqələrə uyğundur.

İntellektual sistemlərin əhəmiyyətli xüsusiyyəti qərar qəbulu prosesinin qeyri-səlis, qeyri-müəyyən, natamam olması problemi ilə bağlıdır. Süni intellekt nəzəriyyəsində bu barədə bir neçə əlaqəli istiqamət var. Ortodoksal evristik istiqamətə həsr olunmuş mənbələrdə




qeyd olunur ki, qərar qəbulu prosesi prinsipcə ciddi şəkildə formalaşdırıla bilməz. Bu nöqteyi - nəzərdən qərar qəbuletmə prosesinin modeli təcrübə ilə təsdiqlənmiş və deduktiv sistemi təşkil edən bir sıra qaydalar və üsullar toplusu kimi təqdim olunur. Başqa bir baxımdan, insan məntiqi olaraq qərarları qəbul edir və buna görə də qərar qəbuletmə prosesi alqoritm şəklində, yəni formal əməliyyatlar sırası kimi yazıla bilər. Lakin əksər hallarda qərarları qəbul edən şəxs öz qərar qəbuletmə prosesini rəsmi şəkildə (formal dildə) təqdim edə bilməz. Bu onunla bağlıdır ki, qeyri-müəyyənlik prinsipi qərar qəbuletmə fenomeninin təbiətindədir.

İntellektual sistemlər aşağıdakı səciyyəvi xüsusiyyətlərlə xarakterizə olunur:

• İS mühitin və fəaliyyət sahəsinin dünya modelinin əhatə dairəsini və məzmununu genişləndirən açıq informasiya sistemi kimi çıxış etməlidir;

• İS müəyyən edilmiş bir məqsəd əsasında son nəticənin əldə edilmə üsullarını, yollarını və vasitələrini müəyyən edir;




• İS həm səhih, həm də haqiqətə uyğun nəticələr qaydalarından istifadə edərək, natamam məlumatlar şəraitində mühakimələrin irəli sürülməsi imkanına malikdir və beləliklə, yeni məlumatlar yaratmalıdır;

• İS tərəfindən biliklərin təxmin edilməsi, ümumiləşdirilməsi və konseptləşdirilməsi üçün onun müəyyən imkanları (mexanizmləri, üsulları, alqoritmləri, proqramları və s.) olmalıdır;

• İS öz səlahiyyətləri çərçivəsində problemləri başa düşməli və onları həll etməlidir;

• İS ətraf dünyanın vəziyyətlərini, surətlərini, proseslərini və hallarını tanımalıdır;

• İS fəaliyyət prosesində yalnız məlum məlumatlardan istifadə etməməlidir, həm də yeni məlumatlar (verilənlər, biliklər) yaratmalıdır, yəni intellektual informasiya resurslarının istehsalçısı və mənbəyi kimi çıxış etməlidir.

Mövcud qərar qəbul etməyə dəstək sistemləri (QQDS) tərəfindən insan qərar qəbuletmə proseslərinin modelləşdirilməsi üçün onlara yuxarıda sadalanan intellektuallıq xassələrinin verilməsi zəruridir. Bu zaman əldə edilən QQDS-lər intellektual adlandırıla bilər. İntellektuallıq öz daxili sistemində xarici aləm modelinin mövcudluğunu nəzərdə tutur. Bu model giriş sorğusunun qiymətləndirilməsində sistemin müstəqilliyinə, sorğunun səmərəli və praqmatik şəkildə şərh edilməsinə, semantika baxımından xarici dünyanın düzgün modelləşdirilməsinə imkan verir.

Bildiyimiz kimi, çoxmeyarlı qərarların qəbul edilməsi məsələsinin ümumi qoyuluşu analitiklər və qərar qəbul edən şəxslər tərəfindən fərz olunmuş meyarlara cavab verən mövcud variantlardan ən yaxşı həllin seçilməsindən ibarətdir. Buna görə hazırda işlənilən çox istifadəçi interaktiv QQDS aşağıdakı şərtlərə uyğun olmalıdır:

1. Müstəqil əməliyyat verənlər bazalarından və digər xarici mənbələrdən məlumatları səmərəli çıxarmalıdır və filtrləməlidir;
2. Predmet sahəsi haqqında xronoloji məlumatları yığmalıdır və saxlanılmasını təmin etməlidir;
3. Predmet sahəsində vəziyyəti təhlil etməlidir və problemi (strukturlaşdırılmış, zəif strukturlaşdırılmış və ya strukturlaşdırılmamış) səlis ifadə etməlidir;
4. Analitiklərin və ya qərar qəbul edən şəxslərin seçimlərini müəyyənləşdirməyə kömək etməlidir;
5. Əhəmiyyətli meyarların sayını seçmək və hər birinin nəticələrinin ölçmə şkalasını nəzərə alaraq onların növünü (skalyar, vektor, qeyri-səlis və s.) müəyyənləşdirməlidir;
6. Hər bir meyara uyğun hədəf verməlidir;
7. İstənilən hipotezləri, həlləri (ssenariləri, hərəkətləri) sintez və/və ya generasiya etməlidir;
8. Qəbul olunmuş meyarlara əsasən hipotezlərin qiymətləndirilməsini aparmalıdır və mümkün olan dəstdən ən yaxşı seçimi təklif etməlidir;
9. Qəbul edilən qərarların vəziyyəti barədə mütəmadi məlumat mübadiləsini təmin etməli və ekspertlərin qrup qərarlarında razılaşmada kömək etməlidir;
10. Qəbul edilən qərarları modelləşdirməlidir;
11. Qərarların mümkün nəticələrini təhlil etməlidir;
12. Qəbul edilmiş qərarların icrası barədə məlumat toplamalıdır və onları qiymətləndirməlidir.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, hal-hazırda QQDS quruluşunun bazisini məlumatlar anbarı təşkil edir. Bu sistemin ümumi strukturunu aşağıdakı kimi təqdim edirik:





# BİLİK İQTİSADİYYATI
## ÜZRƏ ÖLKƏLƏRİN REYTİNQİ

Xətai Alıyev

İqtisad elminin qarşısında duran əsas məsələ rifahın və yaşayış standartlarının daha yüksək olduğu davamlı iqtisadi inkişafa nail olmaqdır. Ötən əsrdə aparılan elmi tədqiqatlar əsasən istehsal əsaslı iqtisadi artımın tədqiqinə həsr olunmuşdu. Yeni dövr isə biliyin əsas rol aldığı, ixtisaslı kadr potensialının ən böyük sərvət hesab edildiyi bir dövrdür. Təsadüfi deyil ki, bu gün aparıcı iqtisadi gücə sahib olan ölkələr insan kapitalının inkişafına, başqa sözlə, bilik əsaslı iqtisadiyyatın qurulması və inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir və kifayət qədər böyük maliyyə vəsaiti xərcləyir. Uzun müddətli iqtisadi artımın əldə olunması üçün biliyin yaradılması və istifadəsi, həmçinin bu prosesin daha effektiv olması üçün lazım olan iqtisadi və institutsional şəraitin qurulması zəruridir.

Bilik iqtisadiyyatı səviyyəsinin ölçülməsi üçün Dünya Bankı tərəfindən Biliyin Qiymətləndirilməsi Metodologiyası (Knowledge Assessment Methodology (KAM)) inkişaf etdirilmişdir. Ölkələr üzrə qiymətləndirmə iqtisadiyyatlarda əlverişli iqtisadi və institutsional rejimin mövcud olması, təhsil səviyyəsi və ixtisaslı kadr potensialının yüksək olması, effektiv innovasiya sistemi və müasir informasiya texnologiyaları strukturunun mövcudluğuna əsasən aparılır.

Qeyd olunan metodologiyaya əsasən fərqli regionlar və ölkələr üçün bilik iqtisadiyyatı kriteriyaları üzrə çoxistiqamətli qiymətləndirmə 2012-ci ildə aparılıb və indeks dəyərləri hesablanılıb. İndeks dəyərlərində 0 ən aşağı, 10 isə ən yüksək hədd olaraq müəyyən edilib. Bu hesablamada həm Bilik İqtisadiyyatı İndeksi (Knowledge Economy Index) və Bilik İndeksi (Knowledge Index), həm də bilik əsaslı iqtisadiyyatın sütunlarını formalaşdıran İqtisadi Təşviq Rejimi İndeksi (Economic Incentive Regime Index), Təhsil İndeksi (Education Index), İnnovasiya İndeksi (Innovation Index) və İnformasiya - Kommunikasiya Texnologiyaları İndeksi (Information and Communications Technologies Index) dəyərləri təqdim edilir.

Qeyd etmək lazımdır ki, Bilik İqtisadiyyatı İndeksinin Bilik İndeksindən fərqi birincinin hesablanmasında iqtisadi və institutsional rejim faktorunun da daxil edilməsidir. Belə ki, Bilik İndeksi,Təhsil İndeksi, İnnovasiya İndeksi və İnformasiya - Kommunikasiya Texnologiyaları İndeksi əsasında müəyyən olunur.

**Bilik İqtisadiyyatı İndeksi kriteriyaları üzrə Azərbaycanın indeks dəyəri və ölkə sıralamasında yeri**

| Adı | İndeks dəyəri | Reytinq |
|---|---|---|
| İqtisadi Təşviq Rejimi İndeksi | 3,36 | 103 |
| Təhsil İndeksi | 4,66 | 84 |
| İnnovasiya İndeksi | 4,01 | 90 |
| İKT İndeksi | 4,93 | 79 |

Mənbə: Dünya Bankı

Bilik iqtisadiyyatı üzrə fərqli regionlar və gəlir səviyyəsinə görə ölkə qrupları arasında müqayisə aparıldıqda iqtisadiyyatların "biliyə əsaslanma" səviyyəsinin iqtisadi inkişaf və gəlir səviyyəsi ilə birbaşa əlaqəli olduğu təsdiqini tapır. İqtisadi regionlar üzrə reytinq sıralamasında ilk 3 yeri müvafiq olaraq Şimali Amerika, Avropa və Mərkəzi Asiya, Şərqi Asiya və Sakit Okean regionu tutur, sonuncu, 7-ci yerdə isə Afrika regionu təmsil olunur. Latın Amerikası, Orta Şərq və Şimali Afrika və Cənubi Asiya isə sıralamada 4-6-cı yerdə qərarlaşır. Gəlir qrupuna görə ölkə qruplarının reytinq sıralamasında da ilk yeri yüksək gəlir qrupuna (high income) daxil olan ölkələr tutur və bilik iqtisadiyyatı reytinqi ölkə qrupları üçün gəlir səviyyəsinə tam mütənasibdir. Aşağıdakı cədvəldə bilik iqtisadiyyatı üzrə ölkələrin 2012-ci ilin reytinqində hər bir indeks üzrə ilk onluğa düşən ölkələr verilmişdir. Təəssüf ki, belə hesablama sonrakı illər üçün aparılmamışdır. Yeni reytinqin 2018-ci ilin sentyabrında elan edilməsi gözlənilir.

İndi isə bilik iqtisadiyyatı reytinqində Azərbaycanın mövqeyinə nəzər yetirək. 2012-ci ildə Azərbaycan Bilik İqtisadiyyatı İndeksi üzrə mümkün 10 baldan 4,56 indeks qiyməti ilə 146 ölkə arasında 79-cu pillədə qərarlaşmışdır. Ölkənin Bilik İndeksi dəyəri isə 4,96 və bu indeks üzrə reytinqdə yeri 77-dir. Bilik İqtisadiyyatı İndeksinin alt kateqoriyaları üzrə reytinq sıralamasında Azərbaycanın mövqeyi isə aşağıdakı kimidir:



Biliyin müasir dövrdə iqtisadi inkişafın ən aparıcı faktoru olduğu artıq birmənalı şəkildə qəbul olunub. 2012-ci ildə bilik iqtisadiyyatı indeksinə görə ölkələrin reytinqində Azərbaycanın yeri orta sıralardadır. Təbii resurslarla zəngin olan Azərbaycan üçün də bilik əsaslı iqtisadiyyatın formalaşması, başqa sözlə, neft kapitalının insan kapitalına çevrilməsi əsas prioritetlərdən biri kimi qəbul edilib. Bu məsələ təsdiq edilən Strateji Yol Xəritəsində də öz əksini tapmışdır. Buna görə də cari ilin sentyabrında elan ediləcək yeni reytinq sıralamasında Azərbaycanın daha ön sıralarda qərarlaşacağı gözlənilləndir.

## BİLİK İQTİSADİYYATI ÜZRƏ ÖLKƏLƏRİN REYTİNQİNDƏ İLK 10-LUQ (2012-Cİ IL)

Mənbə: Dünya Bankı

| İlk 10-luq | Bilik İqtisadiyyatı İndeksi | Bilik İndeksi | İqtisadi Təşviq Rejimi İndeksi | Təhsil İndeksi | İnnovasiya İndeksi | İKT İndeksi |
|---|---|---|---|---|---|---|
| 1 | İsveç | İsveç | Sinqapur | Yeni Zelandiya | İsveçrə | Bəhreyn |
| 2 | Finlandiya | Finlandiya | Finlandiya | Avstraliya | İsveç | İsveç |
| 3 | Danimarka | Niderland | Danimarka | Norveç | Finlandiya | Lüksemburq |
| 4 | Niderland | Tayvan, Çin | İsveç | Cənubi Koreya | Danimarka | Niderland |
| 5 | Norveç | Danimarka | Honqkonq, Çin | Yunanıstan | Sinqapur | Birləşmiş Krallıq |
| 6 | Yeni Zelandiya | Norveç | İsveçrə | İsveç | Niderland | Finlandiya |
| 7 | Kanada | Avstriya | Kanada | İslandiya | ABŞ | İsveçrə |
| 8 | Almaniya | Yeni Zelandiya | Norveç | İrlandiya | İsrail | Almaniya |
| 9 | Avstraliya | ABŞ | Lüksemburq | Tayvan, Çin | Tayvan, Çin | Tayvan, Çin |
| 10 | İsveçrə | Almaniya | Avstriya | İspaniya | Kanada | Honqkonq, Çin |



# ÖLKƏMİZDƏ VERGİQOYMA SİSTEMİ SADƏLƏŞMƏLİDİRMİ?

i.e.d., prof. Yaşar Kəlbiyev

Vergi sisteminin sadə, asan və əlverişli olmasını müəyyən etmək üçün mövcud metodiki yanaşmalardan istifadə olunmaqla digər ölkələrə münasibətdə müqayisəli təhlillər aparılması zəruridir. Belə bir tədqiqat Dünya Bankının Pricewaterhouse Coopers audit şirkəti ilə birgə hazırladığı və 2007-ci ildən başlayaraq hər il dərc olunan Paying Taxes (Vergilərin ödənilməsi) hesabatıdır.

Vergilərin ödənilməsi kimi adlanan bu hesabatlarda tədqiqatçılar müxtəlif ölkələrin vergi sistemlərinin sadəlik və əlverişlilik səviyyəsini qiymətləndirməyi qarşıya məqsəd kimi qoymuşlar.

Hesabatda müəyyən edilən parametrlər əsasında ölkələrin vergi sistemlərinin əlverişli olması üzrə reytinqləri müəyyənləşdirilir. Reytinq orta statistik müəssisənin vergi yükünü korporativ mənfəət verginin, sosial ayırmaların, əməkhaqqından tutulan vergilərin və əməyə hesablanan ayırmaların, əmlak vergisinin, dividendlərdən vergilərin və biznesin ödəməli olduğu digər ödənişlərin inzibatçılığı və ödənilməsi (tutulması) ilə bağlı vergi (inzibati) yükünü, həmçinin hesabatların verilməsi və vergilərin ödənilməsindən sonrakı prosedurları təhlil edir.

Reytinq aşağıdakı 4 parametr əsasında qiymətləndirilir:

- verginin ümumi dərəcəsi vergi yükünün ölçüsü hesab edilir və kommersiya mənfəətindən faiz kimi tutulan bütün vergilərin cəmini ifadə edir;

- üç əsas vergi üzrə (korporativ mənfəət vergisi, əməyə hesablanan vergilər və ayırmalar, istehlak vergiləri) öhdəliklərin yerinə yetirilməsinə sərf olunan



Aparılan tədqiqatlar göstərir ki, dünya ölkələri arasında biznes tərəfindən vergi qanunvericiliyinə riayət olunmasına vaxtın azalması müşahidə edilir. PwC-nin məlumatlarına görə, dünyada orta ölçülü şirkət hesabatların hazırlanmasına və vergilərin ödənilməsinə 251 saat vaxt sərf edir, vergi öhdəliklərinin yerinə yetirilməsi üçün 25 ödəniş həyata keçirir, verginin ümumi orta dərəcəsi isə 40,6% təşkil edir. Baxılan dövrdə hər 3 indikator azalmışdır: ümumi vergi dərəcəsi 0,1 faiz bəndi, vergi tələblərinin gözlənilməsinə sərf olunan vaxt - 8 saat, ödənişlərin sayı-0,8.

**ÖLKƏ REYTİNQİ PARAMETRLƏRİ**

**01. VERGİNİN ÜMUMİ DƏRƏCƏSİ**
**02. VERGİ ÖHDƏLİKLƏRİNƏ SƏRF OLUNAN VAXT**
**03. ÖDƏNİŞLƏRİN SAYI VƏ TEZLİYİ**
**04. SONRAKI PROSEDURLAR**

vaxt sənədləşmənin hazırlanması və hər bir verginin ödənilməsi üçün lazım olan vaxtı əhatə edir;

- ödənişlərin sayı onların tezliyini, yəni müəssisənin il ərzində neçə dəfə müxtəlif növ vergi və ödənişləri həyata keçirdiyini xarakterizə edir.

- hesabatların verilməsi və vergilərin ödənilməsindən sonrakı prosedurlar indeksi. Bu indeks inteqral sxemdə yeni göstərici olmaqla vergilər ödənildikdən sonra biznes tərəfindən yerinə yetirilən bütün prosedurların ümumi vergi (inzibati) yükünü müəyyən edir.

Sonuncu parametr 2017-ci ildən başlayaraq tətbiq olunur. Qiymətləndirmə 4 eyni çəkili komponent əsasında həyata keçirilir (0-100 baladək olan şkala üzrə ölçülür, burada 0 ən pis qiymətləndirmə hesab edilir):

**2014–2015-ci illər üzrə vergilərin ödənilməsi kriterlərinin dinamikası**

| | Ümumi vergi dərəcəsi,% | | Hesabatların hazırlanmasına zəruri vaxt, saat | | Ödəniş sayı | |
|---|---|---|---|---|---|---|
| | **2014** | **2015** | **2014** | **2015** | **2014** | **2015** |
| Dünya ölkələri | 40,7 | 40,6 | 259 | 251 | 25,8 | 25,0 |
| Şərqi Avropa və Mərkəzi Asiya regionu ölkələri | 35,2 | 34,2 | 247 | 233 | 21,2 | 18,4 |
| Azərbaycan | 39,8 | 39,8 | 195 | 195 | 7 | 6 |

Hesabatlarda hər il dünya ölkələri arasında ümumilikdə inzibatçılığın optimallaşdırılması və müvafiq olaraq vergi öhdəliklərinin yerinə yetirilməsinə vergi ödəyicilərinin xərclərinin azalması tendensiyası müşahidə olunur.

Son 8 il ərzində Azərbaycanda vergilərin ödənilməsinin ümumi indeksi üzrə reytinqi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Dünya Bankının məlumatına əsasən, bu göstərici üzrə Azərbaycan 2010-cu ildə 108-ci, 2012-ci ildə 96-cı, 2014-cü ildə 77-ci, 2017-ci ildə isə 33-cü (bir il əvvəl 34-cü) sırada qərarlaşmışdır.

Aparılan tədqiqatlar göstərir ki, dünya ölkələri arasında biznes tərəfindən vergi qanunvericiliyinə riayət olunmasına vaxtın azalması müşahidə edilir. PwC-nin məlumatlarına görə, dünyada orta ölçülü şirkət (60 əməkdaşı və ölkə üzrə əhalinin 1 nəfərinə düşən gəlirin 1050 misli həcmində illik dövriyyəyə malik olan müəssisə) hesabatların hazırlanmasına və vergilərin ödənilməsinə 251 saat vaxt sərf edir, vergi öhdəliklərinin yerinə yetirilməsi üçün 25 ödəniş həyata keçirir, verginin ümumi orta dərəcəsi isə 40,6% təşkil edir. Baxılan dövrdə (2015-ci il üçün) hər 3 indikator azalmışdır: ümumi vergi dərəcəsi 0,1 faiz bəndi, vergi tələblərinin gözlənilməsinə sərf olunan vaxt - 8 saat, ödənişlərin sayı-0,8.

Azərbaycanın da daxil olduğu Şərqi Avropa və Mərkəzi Asiya regionu ölkələri üçün qeyd olunan göstəricilər də azalmağa doğru meyil etmiş və uyğun olaraq 1%, 14 saat və 2,8 faiz bəndi təşkil etmişdir.

Cədvəl məlumatlarından göründüyü kimi,Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün hesablanan vergilərin ödənilməsi göstəriciləri daha sürətli azalmağa meyilli olmuşdur. Azərbaycan üçün isə ilk iki göstərici sabit qalmış, ödəniş sayı kriteri isə 1 vahid aşağı düşmüşdür.

Göstərilən region ölkələri üçün müəyyən edilən orta göstərici ilə müqayisədə ümumi vergi dərəcəsi 2014-cü ildə 4,6 % bəndi, 2015-ci ildə isə 5,6 % bəndi yüksək olmuşdur. Bu regiona daxil olan Şərqi Avropa ölkələrində (Makedoniya-13%, Kosovo-15,2%, Monteneqro – 22,2%, Bosniya və Hersoqovina-22,6%, Albaniya-36,5%) ümumi vergi dərəcəsi aşağı, digər ölkələrdə isə (Moldova-40,4%, Rusiya Federasiyası-47,4%, Ukrayna-51,9%, Belarus-54,8%, Tacikistan-65,2%) yüksək olmuşdur.

Azərbaycanda 2015-ci ildə ümumi vergi dərəcəsi 39,8%, o cümlədən mənfəət vergisi 13,0%, əməyə vergilər və ayırmalar 24,8%, digər vergilər 2% təşkil etmişdir. Region ölkələri üzrə isə uyğun olaraq 12,7%, 18,7% və 2,8% olmuşdur.

Paying Taxes-2017 reytinqində "Hesabatların verilməsi və vergilərin ödənilməsindən sonrakı prosedurlar indeksi" subyekt tərəfindən ƏDV-nin qaytarılması üçün ərizənin verilməsinə sərf olunan vaxtı (saat), ƏDV-nin faktiki qaytarılması müddətini (həftə), mənfəət vergisinin bəyannaməsinin dəqiqləşdirilməsinə sərf olunan vaxtı (saat) və onun yoxlanılması müddətini (həftə) əhatə edir. Qeyd olunan göstərici üzrə bal 100-ə yaxın olduqda vergi sistemi daha sadə və daha əlverişli, 0-a yaxın olduqda isə daha mürəkkəb hesab edilir.

Bu göstəricilərin təhlili göstərir ki, Şərqi Avropa və Mərkəzi Asiya regionu ölkələrindən Serbiya, Moldova, Rusiya Federasiyası, Gürcüstan, Monteneqro, Makedoniya və Albaniya kifayət qədər yüksək göstəricilərə (100 mümkün baldan 80-dən başlayaraq 90 baldan yuxarı) malik olmuşlar. Azərbaycan üçün isə 81 bal təşkil etmişdir.

Nəticə olaraq qeyd edə bilərik ki, son illərdə Azərbaycanın vergi sistemində aparılan effektli islahatlar vergi sisteminin nisbətən sadə və əlverişli olmasına gətirib çıxarmışdır. Buna baxmayaraq dünya ölkələri bir yerdə durmur, özlərinin vergitutma sistemlərində daim təkmilləşmələr və zəruri islahatlar aparırlar.



Ona görə də daha asan, sadə və əlverişli vergi sisteminin yaradılması üçün aşağıdakı istiqamətlərdə islahatların davam etdirilməsi məqsədəmüvafiq hesab edilir:

- Ümumi vergi dərəcəsinin (39,8%) tərkibində əməyə vergilər və ayırmalar (24,8%) region ölkələrin orta göstəricisindən (18,7%) yüksək olduğu üçün bu istiqamətdə tədbirlərin həyata keçirilməsi;
- ƏDV-nin artıq ödənilmiş məbləğlərinin qaytarılması üçün ərizənin və digər zəruri sənədlərin hazırlanmasına və təqdim olunmasına vaxt məsrəfinin (7,5 saat), həmçinin ƏDV-nin faktiki qaytarılmasına sərf olunan vaxt müddətinin (21,2 həftə) azaldılması;
- Vergi orqanına təqdim olunan bəyannamələrin və digər zəruri hesabat sənədlərinin hazırlanmasına və verilməsinə görə sərf olunan vaxtın azaldılması üçün bəzi hesabat (bəyannamə) formalarının təkmilləşdirilərək sadələşdirilməsi.

# AZƏRBAYCANDA VERGİ YÜKÜNÜN OPTİMALLAŞDIRILMASI

*Təhlil göstərir ki, həm ÜDM-in həcminin, həm də büdcə gəlirlərinin artırılması üçün əlverişli şərait yaranmışdır.*

FARİZ QULİYEV

Məlumdur ki, ekonometrik və analitik üsullarla hökumətin fiskal siyasətinin səmərəliliyinin qiymətləndirilməsi əsaslanmış istiqamət hesab olunur. Vergi yükünün ekstremum nöqtədə büdcə ili sona çatdıqdan sonra ekonometrik qiymətləndirilməsinə ikiparametrli metodun tətbiq edilmək mümkündür ki, bunun vasitəsilə fiskal siyasətin cari dövrdə inkişaf xüsusiyyətlərini müəyyən etmək olur. Fiskal siyasətin müəyyən dövrlərdə iqtisadi artıma və istehsal aktivliyinə maneə törətməsi imkanı onun uyğunsuzluğuna səbəb olur ki, bu da iqtisadi subyektlərin fəaliyyətinin kiçilməsinə, o cümlədən xərc tələb edən istehsal və digər iqtisadi aktivlik yaradan sahələrin gəlir həddinin azalmasına və bazardan sıxışdırılmasına səbəb ola bilər. Nəticədə iqtisadi geriləmə labüd hal alar.



Vergi yükünün tənzimlənməsi istiqamətlərini müəyyən etmək məqsədi ilə Azərbaycan reallığı üçün tətbiq edilmiş Laffer modelinin nəticələrindən irəli gələn ÜDM və büdcə gəlirlərinin həcminə maksimum qiymət artımı verən optimal vergi yükünün qiymətinin təyin edilmiş şəklinə baxaq:

Təhlil göstərir ki, ölkənin iki tipli Laffer nöqtələri arasında çox az fərq mövcuddur. Bu o deməkdir ki, həm ÜDM-in həcminin, həm də büdcə gəlirlərinin artırılması üçün əlverişli şərait yaranmışdır. 2015-ci ildə 1-ci və 2-ci tip Laffer nöqtələrinin faktiki vergi yükündən kiçik olması onu deməyə əsas verir ki, fiskal siyasətin effektivliyi aşağı olmuşdur. Buradan belə çıxır ki, gələcək hesabat illərində faktiki vergi yükünün azaldılması məqsədəuyğundur. Vergi yükünün formalaşmasında xüsusi payı olan mənfəət vergisi, ƏDV və fiziki şəxslərin gəlir vergisinin aşağı salınması nəzərdə tutulur. Bu məqsədlə hər bir vergi növü üzrə ekonometrik modelləşdirmənin aparılması optimal vergi dərəcəsini təyin etməyə imkan verir ki, bununla da daha səmərəli vergi siyasətinin reallaşdırılması mümkündür.



Hansı tərəfdən baxılmasından asılı olmayaraq vergi yükünün tənzimlənməsi istiqamətləri təsərrüfat subyektlərinin vergiödəmə qabiliyyəti problemlərinə və vergi potensialının inkişafı probleminə söykənir. Bu baxımdan dünya ölkələrində vergi qanunvericiliyinin və inzibatçılığının vəziyyətini, ölkələr arasında vergi məqsədləri üçün informasiya mübadiləsini və şəffaflığı, o cümlədən gəlirlərin vergidən yayınması meyillərini və ölkələrin iqtisadi inkişaf xüsusiyyətlərini nəzərə almadan vergi yükünün





tənzimlənməsi istiqamətlərini müəyyən etmək mümkün deyildir.

Onu da qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə nominal və faktiki vergi yükünün bir-birinə yaxın olması iri vergi ödəyicilərinin vergi planlaşdırmasını, maliyyə resurslarının axını pozulmur və dövlət büdcəsinin gəlir hissəsi təmin edilir. Zəif inkişaf etmiş ölkələrdə isə nominal yük çox yüksəkdir ki, bu da sahibkarların dövlət məmurlarından asılılığına gətirir, müşahidə olunmayan iqtisadi fəaliyyəti artırır, beynəlxalq şirkətlərin gəlirlərini müxtəlif mexanizmlərlə digər yurisdiksiyalara yönləndirməsinə, şəffaflığın pozulmasına, korrupsiyanın inkişafına və əksər hallarda isə inkişaf etməkdə olan ölkələrin nominal vergi yükünü azaltmasına səbəb olur.

O da məlumdur ki, ölkədə fəaliyyət göstərən yerli və ya beynəlxalq vergi rezidentinin vergidən yayınması imkanlarını aşkar etmək üçün dünyanın müxtəlif ölkələrinin vergi sistemində fəaliyyət göstərən əlaqəli təşkilatlar barədə məlumatları əldə etmək çətin başa gələn prosesdir.

Buradan irəli gələrək ölkə daxilində fəaliyyət göstərən və iri vergi ödəyiciləri olan beynəlxalq təşkilatların gəlirlərini ölkə xaricinə yönləndirməsi məsələsinə diqqət yetirmək məqsədəuyğundur. Bunun üçün vergi ödəyicisi olan hüquqi şəxsin iki metoddan istifadə etməsi mümkündür. Bunlardan biri vergi yükü yüksək olan ölkələrdə təsərrüfat subyektlərinin borc kapitalından istifadə etməsi və ya borc kapitalının digər aktivlərə olan faiz nisbətinin yüksəldilməsidir. Burada məqsəd faiz xərclərini artıraraq hesabat ilində vergiyə cəlb edilən gəlirlərin azaldılmasıdır. Başqa bir vasitə kimi beynəlxalq vergi ödəyicilərinin şirkət daxili transfert qiymətlərindən istifadə etməklə, o cümlədən qeyri-maddi aktivlərini nisbətən az vergi dərəcəsi tətbiq edilən regionlarda yerləşdirməklə öz vergi bazasını azaltmaq məqsədi güdməsidir. Digər hal isə hüquqi şəxslərin və beynəlxalq şirkətlərin daha az gəlirli layihələrini məhz vergi yükü yüksək olan ölkələrdə həyata keçirməyə meyilli olmasındadır.

İnkişaf etməkdə olan ölkələrdə transmilli şirkətlər tərəfindən əldə edilən gəlirin vergidən yayınmasının daha bir metodu da vardır ki, bu “ticari əməliyyatların yanlış dəyərləndirilməsi” metodudur. Bu metoda görə inkişaf etməkdə olan ölkələrlə idxal və ixrac əməliyyatlarının həcmi əsas götürülür ki, burada yanlış dəyərləndirilmiş idxal və ya ixrac əməliyyatları nəticəsində inkişaf etməkdə olan ölkələrdən kapital axınının miqdarı nəzərdə tutulur.

Vergi yükünün tənzimlənməsi istiqamətinin müəyyən edilməsində yuxarıda qeyd edilən metodlara əlavə olaraq beynəlxalq şirkətlərin öz gəlirini “vergi sığınacaqları” adlandırılan vergi sistemlərə yönləndirməsi də vacib məsələdir.

Beləliklə, məlum olur ki, vergi yükünün tənzimlənməsi istiqamətləri kompleks amillərin qarşılıqlı təsiri ilə müəyyən edilməlidir. Tədqiqatda bu nəticəyə gəlinmişdir ki, vergi yükünün səviyyəsi yalnız verginin ölkə daxilində fiskal, tənzimləyici, bölüşdürücü və digər funksiyalarının qarşılıqlı fəaliyyəti, o cümlədən ölkə daxilində iqtisadi subyektlərin elastik asılılığı nəzərə alınmaqla tənzimlənməli deyildir. Həmçinin vergi yükünün tənzimlənməsi istiqamətlərinin seçilməsi üçün ölkədə fəaliyyət göstərən transmilli şirkət, müəssisə və hüquqi şəxslərin vergidən yayınması məqsədilə bilərəkdən borclanması, onların öz subyektləri ilə transfert qiymətlərindən istifadə etməsi, qeyri-maddi aktivlərini digər regionlarda yerləşdirməsi və az gəlirli layihələrini məhz vergi dərəcəsi yüksək olan ölkədə həyata keçirməsi kimi amilləri nəzərə alınmalıdır.

| Vergi yükünün optimal səviyyəsi | |
|---|---|
| Vergi yükünün ÜDM-in həcminə maksimum artım verdiyi 1-ci tip Laffer nöqtəsi | 15,4805 % |
| Vergi yükünün büdcə daxilolmalarının həcminə maksimum artım verdiyi 2-ci tip Laffer nöqtəsi | 15,5973 % |

# VERGİ Ödəmə



dos. Leyla Mehdiyeva

Vergi ödəmə mədəniyyətinin formalaşması özündə iqtisadi, sosial və hüquqi aspektləri birləşdirən mürəkkəb bir prosesdir. Bu elə bir modeldir ki, özündə həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının hüquqi hərəkətlərini birləşdirir və vergi münasibətlərinin hər bir iştirakçısı öz vergi mədəniyyəti səviyyəsini müstəqil olaraq müəyyənləşdirir.

Hər hansı bir ölkənin iqtisadi gücü əsasən büdcəyə daxil olan maliyyə vəsaitinin həcmi ilə müəyyən edilir. Həmçinin dövlət büdcəsinin formalaşmasında və fiskal dayanıqlığın gücləndirilməsində isə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən vergilər və onun səviyyəsi əsas rol oynayır.

“Vergi ödəmə mədəniyyəti” ifadəsinin özünü əhalinin bütövlükdə vergi sisteminə, vergilərin ödənilməsinə münasibətin vətəndaş mövqeyi kimi müəyyənləşdirmək olar. Fikrimizcə, bu ifadəni hər bir insana olduğu kimi, ümumilikdə cəmiyyətə də aid etmək olar. Vergi ödəmə mədəniyyəti siyasi mədəniyyətin tərkib hissəsi kimi çıxış etməklə vətəndaşların vergiləri ödəməyin dövlət və cəmiyyət üçün zəruri olmasını başa düşmələri, həmçinin ödəmə zamanı öz vəzifə və öhdəliklərini bilmələrini özündə birləşdirir. Bu əsasən əhalinin öz vəzifə və hüquqlarını dərk etməsindən, bütövlükdə cəmiyyətin mənəviyyatından və hər bir vətəndaşın mentalitetindən irəli gəlir.

Əksər tədqiqatçılar vergi ödəməkdən yayınmanı yaradan səbəbləri ümumiləşdirərək onları obyektiv və subyektiv səbəblərə bölmüşlər. Belə ki, obyektiv səbəblər vergi ödəyicisinin iradəsindən asılı olmur və şərait yaradıcı və məcburedici səbəblərə ayrılırlar. Şərait yaradıcı səbəblərə vergidən yayınmanın iqtisadi-hüquqi sadəliyi aid edilir. Şərait yaradıcı səbəblər hüquqi və təşkilatı səbəblərə ayrılırlar. Öz növbəsində hüquqi səbəblər vergi qanunvericiliyinin qeyri-təkmil olması ilə əlaqəlidir. Belə ki, hüquqi qeyri-müəyyənlik vergi ödəyicilərinə vergi ödəmələrindən yayınmağa və vergi məbləğlərini azaltmaq üçün variantlar axtarmağa şərait yaradır. Məcburedici səbəblər kimi isə vergi dərəcələrinin yüksək olması göstərilir. Subyektiv səbəblərə gəldikdə isə bu səbəblər vergi ödəyicisinin özünün vətəndaş mövqeyi və şəxsi keyfiyyətləri ilə əlaqələndirilir.

Vergi ödəyicilərinin vergiləri nə qədər və necə ödəmək haqqında məlumatlandırılması vergi orqanlarının fəaliyyətlərinin təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərir. Son dövrlərdə vergi orqanlarının vergi ödəyicilərin məlumatlandırması və xidməti sahəsindəki fəaliyyəti müsbət istiqamətdə dəyişmişdir. Lakin hələ də fiziki şəxslərin və sahibkarların bir çoxu bəzi hallarda

vergiləri ödəməmələrini bağışlanmalı hal hesab edirlər və bu zaman bunu bir sıra səbəblərlə əlaqələndirirlər: həyat səviyyələrinin aşağı olması ilə, məşğulluqla bağlı problemləri olduğu üçün vətəndaşların güzəştli kateqoriyalara aid olduqları ilə və s. Bundan başqa, gözlənilməz situasiyaların yarandığını, vergiləri ödəməmək imkanının olmasını, yəni qanunvericilikdəki boşluqlardan istifadə imkanlarının yaranmasını da səbəb kimi göstərənlər var.

Vergi ödəmə mədəniyyətinin səviyyəsinin yüksəldilməsi bir sıra müasir yanaşmalar tələb edir. Vergi ödəmə mədəniyyətinin artırılması məqsədilə vergi ödəyicilərinin vəziyyətini yaxşılaşdıran

## ...DƏNİYYƏTİNİN ...RMALAŞMASI ...ROBLEMLƏRİ

və onların hüquqlarını artıran müxtəlif proqramların hazırlanması zəruridir. Fikrimizcə, nümunəvi vergi ödəyiciləri üçün kiçik üstünlüklər büdcəyə vergi daxilolmalarını artıra bilər. Həmçinin kiçik və orta biznes subyektlərinə güzəşt sisteminin tətbiqi bütövlükdə dövlətin vergi potensialını gücləndirər.

Tədqiqatlar göstərir ki, vergi ödəmə mədəniyyəti problemi hər bir dövlətin inkişafında mühüm sahədir və hec də çoxsaylı və yüksək dərəcəli vergilərlə əlaqədar deyildir. Daha çox insanların vergi biliklərinin az olması və vergi ödəməyə mənfi yanaşmaları ilə bağlıdır. Vergi ödəmə mədəniyyətinin səviyyəsinin yüksəldilməsi məqsədilə aşağıdakıların həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- cəmiyyətdə vergi ödəmə mədəniyyətinin inkişafına təkan verəcək və vergi ödəyicilərinin vətəndaşlıq mövqeyini fəallaşdıracaq tədbirlərin həyata keçirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi, daha doğrusu, sadələşdirilməsi;
- vergi xidməti orqanlarının vergi ödəyiciləri ilə ünsiyyətinin keyfiyyətinin artırılması;
- vergi daxilolmalarından istifadənin səmərəliliyinin və məqsədliliyinin yüksəldilməsi;
- vergiyə cəlbetmənin proqressiv formasının tətbiqinin genişləndirilməsi;
- vergi mübahisələrinin həll edilməsi mexanizminin təkmilləşdirilməsi;
- vətəndaşların vergi maarifləndirilməsi ilə təmin olunması və kütləvi-informasiya vasitələri vasitəsilə reklam-informasiya tədbirlərinin həyata keçirilməsi;
- vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı münasibətlərinin səmərəliliyinin artırılması.

Professionallıq və qarşılıqlı məsuliyyət dövlətin və vergi ödəyicilərinin əməkdaşlığının yeni mərhələsinin, həmçinin yüksək vergi mədəniyyətinin və vergi intizamının əsas göstəriciləri hesab edilir. Bu məqsədlə vergi orqanları tərəfindən vergi ödəyicisi üçün əlverişli şərait yaradılmalıdır. Buraya vergi hesabatlarının qəbulu mərkəzlərində komfortlu şərait, web-resursların fəaliyyəti, vergi xidmətlərindən elektron qaydada yararlanmaq imkanı, kütləvi-izahedici tədbirlərin həyata keçirilməsini aid etmək olar. Bütün bu tədbirlər həm vergi ödəyicisinin, həm də vergi orqanı əməkdaşının müəyyən davranış qaydalarını formalaşdırmağa imkan verə bilər.

**1**

Cəmiyyətdə vergi ödəmə mədəniyyətinin inkişafına təkan verəcək və vergi ödəyicilərinin vətəndaşlıq mövqeyini fəallaşdıracaq tədbirlərin həyata keçirilməsi

**2**

Vətəndaşların vergi maarifləndirilməsi ilə təmin olunması və kütləvi informasiya vasitələri vasitəsilə reklam-informasiya tədbirlərinin həyata keçirilməsi

**3**

Vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı münasibətlərinin səmərəliliyinin artırılması

# Vergi amnistiyası: BEYNƏLXALQ TƏCRÜBƏ

dos. İMRAN RZAYEV

Vergi amnistiyası dedikdə vergi qanunvericiliyinin pozulmasında günahkar olan şəxsin inzibati, maliyyə və cinayət məsuliyyətinə görə təqsirləndirilməsindən tamamilə və ya qismən azad edilməsi başa düşülür.

Vergi amnistiyası dövlət xəzinəsinə vergi daxilolmalarının artırılmasına və qanundan kənar kölgə iqtisadiyyatında əldə olunan gəlir və əmlakların aşkarlanmasına imkan yaradır. Digər tərəfdən, amnistiyanın tətbiq edilməsinin əsas əhəmiyyəti ondan ibarətdir ki, vergi ödəyicisi bir daha vergi borclarının yığılmasında, onların vaxtında ödənilməməsində maraqlı olmayacaq və zamanında öz öhdəliklərini tam və vaxtında dövlət büdcəsinə ödəməyə çalışacaqdır.

Vergi amnistiyasının müəyyən çatışmayan tərəfləri də vardır. Əvvəla, amnistiya elan edilməklə vergi qanunvericiliyini pozan vergi ödəyiciləri digər vicdanlı vergi ödəyicilərindən əlverişli mövqedə dururlar. İkincisi, bir sıra vergi ödəyiciləri gələcəkdə də amnistiyaların mövcud olacağına ümid edərək öz gəlirlərinin müəyyən hissəsini gizlətməyi daha üstün tuturlar. Ona görə də amnistiya keçirildikdən sonra da vergi ödəyicilərinin vergi öhdəliklərini vaxtında və tam həcmdə ödənilməsinə vergi orqanları tərəfindən çox ciddi nəzarətihəyata keçirməlidirlər.

Dünya miqyasında vergi amnistiyası ilə əlaqədar zəngin beynəlxalq təcrübə mövcuddur. Ayrı-ayrı ölkələrdə vergi amnistiyası müxtəlif formalarda həyata keçirilir. Həmin ölkələrə Argentinanı, Belçikanı, Almaniyanı, Hindistanı, İrlandiyanı, İtaliyanı, Türkiyəni, Pakistanı, Fransanı və s. göstərmək olar. Məlumdur ki, bu ölkələrin heç də hamısında vergi amnistiyası lazım olan nəticəni verməmişdir. Gözlənilən nəticəni verən vergi amnistiyasının əsaslı nümunəsi kimi 1988-ci ildə İrlandiyada tətbiq edilən vergi amnistiyasını qeyd etmək olar. İrlandiyada keçirilən amnistiya proqramı nəticəsində ümumi daxili məhsulun 2,5 faizi qədər əlavə vəsait dövlət





"Vergi amnistiyası dövlət xəzinəsinə vergi daxilolmalarının artırılmasına və qanundan kənar kölgə iqtisadiyyatında əldə olunan gəlir və əmlakların aşkarlanmasına imkan yaradır"

RESTART

xəzinəsində cəmləşdirilmişdir ki, bu da dövlətin büdcə defisitinin ödənilməsi üçün lazım olan vəsaitdən də çox olmuşdur. Amerika Birləşmiş Ştatlarının ayrı-ayrı ştatlarında da vaxtaşırı olaraq vergi amnistiyaları tətbiq edilir. Beynəlxalq təcrübə göstərir ki, vergi amnistiyası o zaman əlverişli nəticələnir ki, eyni zamanda gücləndirilmiş vergi nəzarəti tətbiq olumuş olsun.

Qeyd etmək lazımdır ki,, beynəlxalq təcrübə göstərir ki, tətbiq edilən vergi amnistiyasının əlverişli keçirilməsi üçün, birinci növbədə, aşağıdakı əsas şərtlərə riayət edilməlidir:

- vergi məsuliyyətinə məruz qalmama zəmanəti çox ciddi olmalı;
- informasiya və kommersiya sirrinin qorunması təmin edilməli;
- dövlət vergi amnistiyası birdəfəlik xarakter kəsb etməlidir;
- hərtərəfli məlumatlandırma və təbliğat, informasiya kampaniyası həyata keçirilməli;
- dövlət vergi amnistiyası ilə bərabər, vergi qanunvericiliyinin pozulması hallarına qarşı nəzərdə tutulan məsuliyyət tədbirləri daha da sərtləşdirilməlidir.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, vergi amnistiyası mühüm əhəmiyyət kəsb edən iqtisadi siyasətdir və onun əhəmiyyətli həyata keçirilməsi iqtisadiyyatın dayanıqlı vəziyyətindən, cəmiyyətdə formalaşmış qanunlara hörmət etmə mədəniyyətindən və insanların milli mentalitetindən çox asılıdır. Ən başlıcası, vergi qanunvericiliyinin pozulması hallarının qarşısı zamanında alınarsa, onda heç bir vergi amnistiyasının həyata keçirilməsinə ehtiyac da qalmaz.

Vergi qanunvericiliyinə vaxtında əməl edilməsinə nail olunması üçün ölkədə sadə və konkret vergitutma sistemi yaradılmalı, vergi yükünün ağırlığı isə ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun və sahibkarlığın inkişafı üçün əlverişli səviyyədə olmalıdır.

"Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 474-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2017-ci il tarixli fərmanı Respublikamızda tətbiq olunan ilk vergi amnistiyasıdır. Amnistiyada birinci növbədə vergi ödəyicilərinin vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər üzrə borclarının tənzimlənməsi olmuşdur. Yəni vergi ödəyicilərinin vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borcları müvafiq icra hakimiyyəti orqanı tərəfindən silinməsi nəzərdə tutulmuşdur.

Vergi amnistiyası haqqında qanuna əsasən vergi orqanları tərəfindən aparılmış digər vergi nəzarəti tədbirləri və yoxlamaları zamanı vergi ödəyicilərinə tətbiq edilmiş maliyyə sanksiyaları üzrə yaranmış vergi borclarının silinməsi aşağıdakı qaydada həyata keçirilir:

-vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30 faizi ödənildikdə – maliyyə sanksiyalarının ödənilməmiş 70 faizi müvafiq icra hakimiyyəti orqanı tərəfindən silinir;

-vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar–fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənildikdə – maliyyə sanksiyalarının ödənilməmiş 50 faizi müvafiq icra hakimiyyəti orqanı tərəfindən silinir;

- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənildikdə – maliyyə sanksiyalarının ödənilməmiş 30 faizi müvafiq icra hakimiyyəti orqanı tərəfindən silinir.

# Vergi yoxlamaları, yoxsa vergi analitikası

VERGİ ORQANLARI TƏRƏFİNDƏN KEÇİRİLƏN YOXLAMALAR KAMERAL VƏ YA SƏYYAR OLA BİLƏR. VERGİ YOXLAMALARI KEÇİRİLDİKDƏ, VERGİ ORQANLARI VƏ ONLARIN VƏZİFƏLİ ŞƏXSLƏRİ DÜZGÜN QƏRAR QƏBUL EDİLMƏSİ ÜÇÜN ƏHƏMİYYƏTLİ OLAN BÜTÜN HALLARI, O CÜMLƏDƏN VERGİ ÖDƏYİCİSİ ÜÇÜN ƏLVERİŞLİ OLAN HALLARI AYDINLAŞDIRMALIDIRLAR.

dos. **ZÖHRAB PAŞAYEV**

Kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə getmədən vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və və mənbəyi məlum olan məlumatlar əsasında keçirilir. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir.

Səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir. Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması keçirildikdə, vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilməsinə baxmayaraq, növbədənkənar səyyar vergi yoxlaması zamanı vergi ödəyicisinə bildiriş göndərilmir. Növbəti səyyar vergi yoxlamasında göndərilən bildirişdə vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir. Səyyar vergi yoxlaması zamanı vergi orqanının vəzifəli şəxsləri Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin tələblərinə əməl etməlidirlər. Bununla bağlı vergi orqanları tərəfindən sahibkarlıq sahəsində aparılan yoxlamaların illik yoxlama planı tərtib edilir.

Növbəti səyyar vergi yoxlaması məqsədi ilə vergi ödəyicisinin seçilməsi təsərrüfat subyektləri və fəaliyyət sahələri üzrə vergidən yayınma risklərinin qiymətləndirilməsinə və riskli vergi ödəyicilərinin müəyyən edilməsinə əsaslanır. Bu zaman risklər nəzərə alınmaqla səyyar vergi yoxlaması məqsədləri üçün vergi ödəyicilərinin avtomatlaşdırılmış seçimi həyata keçirilir. Xüsusi vergi rejimli müəssisələrdə səyyar vergi yoxlaması bu xarakterli ödəyicilərin fəaliyyətini tənzimləyən qanunvericiliyin və digər normativ hüquqi aktların xüsusiyyətləri nəzərə alınmaqla təyin edilir. AVİS-dən istifadə edilərkən sahələr üzrə spesifik risklərin müəyyən edilməsi və bu risklərin qiymətləndirilməsi üçün istifadə olunan məlumatların dəqiqliyi araşdırılmalıdır. Risklərin qiymətləndirilməsi və vergi potensialının (məbləğlərin) hesablanması ilə bağlı təhlillərin aparılması üçün parametrlər, analoji (eyni fəaliyyət növü və biznes qrupa aid olan vergi ödəyicilərinin və onlara məxsus olan obyektlərin göstəricilərini əks etdirən aşağıdakı məlumatlar əsasında müəyyən edilir:

- Bəyan edilmiş son (dəqiqləşdirilmiş) dövriyyə, son xronometraj və ya səyyar vergi yoxlamasının nəticələri üzrə dövriyyə və ödənilmiş vergilər;
- Fəaliyyət sahəsi üçün spesifik parametrlər (əsas sahə, işçilərin sayı, kommunal xərclər, əməkhaqqı, ödənilmiş vergilər və sair.

Cədvəl məlumatlarına əsasən, 2016-cı ildə 7088 yoxlama nəzarət tədbiri, o cümlədən növbəti səyyar vergi yoxlaması üçün 1661, növbədənkənar səyyar vergi yoxlaması üçün 5427 riskli vergi ödəyicisi seçilmişdir ki, yoxlama nəticəsində hesablanmış əlavə vəsait, faiz, tətbiq edilmiş maliyyə sanksiyası və inzibati cərimələr 971990,2 min manat olmuşdur. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklər AVİS vasitəsilə elektron qaydada müəyyən edilir və qiymətləndirilir. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklər iki növə bölünür: 1. Universal risklər ($R^U$) 2. Sahəvi risklər ($R^S$).

Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin təhlili üçün iki analitik üsul tətbiq olunur:

- Vertikal təhlil – bir və ya bir neçə iqtisadi göstəriciləri üzrə



## RİSKLƏRİN TƏ

| Robj | Robj | Ri (ba |
|---|---|---|
| -5% ≤ | 0% | 0 |
| 1% | 10% | 1 |
| 11% | 20% | 2 |
| 21% | 30% | 3 |
| 31% | 50% | 4 |
| 51% | 70% | 5 |
| 71% | 90% | 6 |
| 91% | ≥100% | 7 |

## Səyyar vergi yoxlamasının mərhələləri

- səyyar vergi yoxlaması məqsədilə vergi ödəyicilərinin seçilməsi
- səyyar vergi yoxlamasının başlanması
- səyyar vergi yoxlamasında ilkin araşdırma
- səyyar vergi yoxlamasında planlaşdırma
- vergidən yayınma risklərinin təhlili və müəyyən edilməsi
- səyyar vergi yoxlamasının nəticələrinin müzakirəsi və qiymətləndirilməsi
- səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi

## ...HLİLİ CƏDVƏLİ

| ...skin qiyməti ...al) $Qr^{k}_{obj}$ | RİSK ALT - QRUPU | RİSK ALT - QRUPUNUN ADI |
|---|---|---|
| | NR | Risk yoxdur |
| | VL | Risk çox azdır |
| | L | Risk azdır |
| | LM | Risk az orta arasındadır |
| | M | Orta risk |
| | MH | Risk orta yüksək arasındadır |
| | H | Yüksək risk |
| | VH | Çox yüksək risk |

vergi ödəyicilərinin və ya onlara məxsus obyektlərin eyni sahədə çalışan və eyni biznes ölçüsü olan digər vergi ödəyicilərinin və ya onlara məxsus analoji obyektləri ilə müqayisə olunur və risk müəyyən edilərək qiymətləndirilir.

- Mütənasib təhlil – hər hansı vergi ödəyicisi üçün digər analoji vergi ödəyiciləri olmadığı halda hesabat dövrü üzrə bu vergi ödəyicisinin göstəricilərinin qiymətləri əvvəlki illərin göstəricilərinin orta qiymətləri ilə müqayisə olunur və risk müəyyən edilərək qiymətləndirilir.

Biznes ölçüsü üzrə təsnifat qrupundan asılı olaraq vergi ödəyicilərinin universal və sahəvi risklərinin qiymətləndirilməsi üçün müvafiq olaraq vertikal və mütənasib təhlil üsullarından istifadə olunur. Təhlillərin nəticələrinə əsasən, müəyyən olunan risklər faizlə ifadə olunur və faizlərin nisbətlərinə müvafiq olaraq 7 ballıq şkala əsasında hər risk intervalı üzrə qiymət (bal) müəyyən olunur. Faizlərin nisbətlərinə müvafiq olaraq 7 ballıq şkala əsasında hər risk intervalı üzrə qiymət (bal) müəyyən olunur.

Cədvəl 1. 2016-cı il ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları barədə illik hesabat

| Sıra sayı | Yoxlama və nəzarət tədbirlərinin növü | Yoxlama və nəzarət tədbirlərinin sayı | Yoxlama və nəzarət tədbirlərinə sərf edilmiş iş günlərinin sayı | Yoxlama və nəzarət tədbirləri nəticəsində hesablanmış əlavə vəsait, faiz, tətbiq edilmiş maliyyə sanksiyası və inzibati cərimələr - cəmi (minmanatla) | o cümlədən | | | | Normativ hüquqi aktların tez-tez pozulan müddəaları | Vergi ödəyicilərinin şikayəti əsasında: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Əlavə vəsait (min manatla) | Maliyyə sanksiyası (min manatla) | İnzibati cərimələr (min manatla) | Faiz (min manatla) | | Ləğv olunmuş qərarların sayı | Dəyişiklik edilmiş qərarların sayı |
| 1 | Səyyar vergi yoxlaması - cəmi | 7088 | 215876,0 | 971990,2 | 628454,2 | 342317,3 | 120,6 | 1098,1 | Vergi Məcəlləsinin 57.1, 58.1 və 58.6-cı maddələrinin müddəalar | 16 | 16 |
| 1.1 | növbəti | 1 661 | 50618,0 | 229062,8 | 144018,1 | 84815,4 | 14,2 | 215,1 | Vergi Məcəlləsinin 57.1, 58.1 və 58.6-cı maddələrinin müddəaları | 1 | 2 |
| 1.2 | növbədən kənar | 5 427 | 165258,0 | 742927,4 | 484436,1 | 257501,9 | 106,4 | 883,0 | Vergi Məcəlləsinin 57.1, 58.1 və 58.6-cı maddələrinin müddəaları | 15 | 14 |





# BİZNES – VERGİ ORQANLARI: YENİ TƏRƏFDAŞLIQ

i.e.n. Ramiz Məhərrəmov

Vergi inzibatçılığının həyata keçirilməsinin əsas istiqamətlərindən biri biznes strukturları (vergi ödəyiciləri) ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulmasından və bu münasibətlərin inkişaf etdirilməsindən ibarətdir.

Ölkəmizdə qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi məqsədilə vergi orqanı ilə vergi ödəyiciləri arasında vergi partnyorluğu sazişləri bağlanır. Bununla əlaqədar olaraq Vergi Məcəlləsinə müvafiq əlavələr edilmiş, Nazirlər Kabinetinin 19 iyul 2013-cü il tarixli, 190 nömrəli Qərarı ilə "Vergi partnyorluğu Sazişinin bağlanması Qaydaları" təsdiq edilmişdir.

Bu saziş vergi orqanı ilə vergi ödəyicisi arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanır, vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanılan razılaşmadır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 15.1.15-1-ci maddəsində göstərildiyi kimi, vergi ödəyicisi vergi risklərinin minimallaşdırılması məqsədilə "Vergi partnyorluğu Sazişi" bağlamaq üçün Vergilər Nazirliyinin müəyyən etdiyi formada ərizə ilə vergi orqanlarına müraciət edə bilər.

Bir çox ölkələrin, o cümlədən İrlandiyanın, İsveçrənin, Niderlandın və ABŞ-in təcrübəsi göstərir ki, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlər partnyorluq və qarşılıqlı əməkdaşlıq əsasında qurulduqda vergi ödəyicilərinin işgüzar aktivliyinə və azad iqtisadi fəaliyyətinə xələl gətirilmədən minimal resurslarla maksimum səmərəli vergi nəzarətinin təşkili və həyata keçirilməsi təmin olunur.

Cənubi Koreya Respublikasında vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sistemi ABŞ təcrübəsi əsasında qurulmuşdur. Qeyd olunan təcrübə öyrənilərək vergi ödəyicilərinin müstəqilliyi və onlara qərəzsiz münasibətin təmin edilməsi üçün Vergi ödəyicilərinin vəkillik institutu (Taxpayer Advocate Office) yaradılmışdır. Bu tədbirlər vergi ödəyicilərinin məmnuniyyətini və vergi idarəetmə sisteminin inkişafını təmin etməyə kömək etmişdir.

Vergi ödəyiciləri onlarda keçirilmiş vergi yoxlamasının nəticələrindən, yəni vergi orqanlarının konkret qərarlarından narazı olduqları halda hesablanmış vergini ödəmədən ilk növbədə birbaşa yoxlayıcı orqana şikayət etmək hüquqları vardır. Qeyd olunan şikayət təmin olunmadığı halda artıq vergi ödəyicisinə hesablanmış vergilərə faizlər hesablanmağa başlayır. Bundan sonra vergi ödəyicisi regional vergi orqanına şikayət edə bilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 62-ci maddəsi hər bir vergi ödəyicisinin vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayəti yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə verilməsi hüququnu nəzərdə tutur.

Bir çox ölkələrdə, məsələn, Cənubi Koreya, Mavriki, Tanzaniya, Ruanda ölkələrində Vergi Ödəyiciləri Günü qeyd olunur. Mavriki ölkəsində bu hətta Milli Vergi Ödəyiciləri Günü kimi adlanır, ölkədə vergi mədəniyyətinin stimullaşdırılmasında vacib alətlərdən biri kimi çıxış edir. Vergidən yayınmaq deyil, nümunəvi olmaq və öhdənə düşən vergiləri qürurla ödəmək bir vətənpərvərlik aktı kimi tanınır.

Hər il dövlət rəsmiləri, özəl sektor nümayəndələri, vergi ödəyiciləri və digər maraqlı tərəflərin iştirakı ilə "Vergi əməletməsi millətin qürurudur" şüarı altında Ruanda Gəlirlər







Administrasiyası tərəfindən tədbir həyata keçirilir və vergilərini vaxtında ödəyən, işgüzar fəaliyyətlərində innovasiyalara üstünlük verən, vergilər ödəməklə iqtisadi inkişafa dəstək verən nümunəvi vergi ödəyiciləri mükafatlandırılır.

Cənubi Koreyada Vergi Ödəyiciləri Günündə nümunəvi vergi ödəyiciləri mükafatlandırılır, ən nümunəvi – model vergi ödəyicisi seçilir, prezident mükafatı ilə təltif edilir və bir il ərzində Koreya vergi xidmətinin səfiri titulunu əldə edir.

Vergi ödəyicilərini vergilərini vaxtında ödəmələrini stimullaşdırmaq məqsədilə Hindistanın Maliyyə Nazirliyi tərəfindən nümunəvi vergi ödəyicilərinə müxtəlif kateqoriyalar üzrə Qymətləndirmə Sertifikatları təqdim edilir.

Portuqaliyada vergi ödəyiciləri avtomobil ilə həvəsləndirilir (dövlət lotereyası). Ölkədə avtomobil uduşları "maliyyə sahəsində fırıldaqçılıqla və vergidən yayınma halları ilə mübarizə" məqsədilə 2014-cü ilin yanvar ayından etibarən hər həftə oynanılır.

Gürcüstan hökuməti sahibkarların həvəsləndirilməsi məqsədilə 2010-cu ildən etibarən "Ədalətli vergi ödəyicisi" statusunu tətbiq edir. İlk olaraq, "Ədalətli vergi ödəyicisi" sertifikatı orta sahibkarlıq subyektləri olan beş gürcü şirkətinə təqdim edilmişdir. Bu, vergi yoxlaması zamanı fəaliyyətlərində pozuntular aşkar edilməyən, vergiləri dövlətə vicdanla ödəyən və mühasibatlıqlarında boşluqlar olmayan şirkətlərə şamil edilmişdir.

Qazaxıstanda hər il ənənəvi olaraq ən yaxşı vergi ödəyicisi və xarici iqtisadi fəaliyyətin iştirakçıları mükafatlandırılır.

Yarışma dövlət qarşısında vəzifələrin vicdanla yerinə yetirilməsinə görə verilən dəyərin ifadəsidir. Bu növ tədbirlər vergi ödəyiciləri və nəzarət orqanları arasında tərəfdaşlıq münasibətlərinin yaxşılaşdırılmasına, şəffaflığın və münasibətlərdə etibarın artmasına xidmət edir.

Qazaxıstanda pilot layihə kimi "yaşıl dəhliz" nəzarət olunan, vergi və gömrük sahələrində cinayət məsuliyyətinə cəlb edilməyən iri vergi ödəyiciləri üçün yaradılıb.

Belə sahibkarlar idxal-ixrac əməliyyatları zamanı gömrük nəzarətinin bütün formalarından azad edilib. Sadələşdirilmiş güzəştləri intizamlı əmtəə istehsalçıları və ixracatçı olan səlahiyyətli iqtisadi operatorlara da şamil edilir.

Pakistanda nümunəvi vergi ödəyiciləri üçün gömrük məntəqələrində "yaşıl dəhliz" və ya "Sürətli zolaq imkanı" yaradılıb. İmkandan "Fəal vergi ödəyiciləri siyahısına" daxil olan iş adamları yararlanır.

Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə «Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi qaydaları» təsdiq edilmişdir. Qaydalar «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamının müvafiq bəndinin icrası məqsədilə hazırlanmışdır. Məqsəd vergi öhdəliklərini tam və vaxtında yerinə yetirən, vergi qanunvericiliyinə əməl edən nümunəvi vergi ödəyicilərinin seçilib fərqləndirilməsi və fəaliyyətlərinin təşviq edilməsindən ibarətdir.

Azərbaycanda da "yaşıl dəhliz" layihəsi tətbiq olunur. Yaşıl dəhliz – şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli xidmətlərin göstərilməsi prinsipidir.

Vergi hesabatlarını nəzərdə tutulmuş müddətlərdə təqdim edən, vergiləri tam həcmdə və vaxtında ödəyən, muzdlu işçilərinin sayını və əməkhaqqılarını düzgün bəyan edən, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına əsasən aparan, gücləndirilmiş elektron imzaya sahib olan və yazışmaların elektron şəkildə aparılmasına üstünlük verən, saxta sənədlər (o cümlədən ciddi hesabat sənədləri) qəbul və təqdim etməyən (əmtəəsiz əməliyyatlar aparmayan) və son 3 il ərzində iqtisadi sahədə cinayətin törədilməsinə görə barəsində cinayət təqibi aparılmayan (bəraətverici əsaslarla icraatına xitam verilmiş cinayət işləri istisna olmaqla) vergi ödəyiciləri bu layihədən bəhrələnə bilərlər.

Yuxarıda qeyd olunanlardan başqa, Azərbaycan Respublikasının Vergi Məcəlləsində partnyorluq münasibətlərinin qurulması məqsədilə vergi ödəyicilərinin bir sıra hüquqları və vergi orqanlarının vəzifələri müəyyən edilmişdir. Bunlardan ən əsası vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar almaq hüququdur.

## ASİYA TƏCRÜBƏSİ

Cənubi Koreyada Vergi Ödəyiciləri Günündə nümunəvi vergi ödəyiciləri mükafatlandırılır, ən nümunəvi – model vergi ödəyicisi seçilir, prezident mükafatı ilə təltif edilir və bir il ərzində Koreya vergi xidmətinin səfiri titulunu əldə edir.



## YENİ TREND

# SOSİAL BİZNESDƏ VERGİQOYMA NECƏ OLMALIDIR?

Sosial biznes dünyada yeni bir sosial transformasiya və inkişaf vasitəsi kimi sürətlə yayılmağa başlamışdır. Sosial biznes strukturları Hindistandan İngiltərəyə qədər dünyanın çox sayda ölkəsində fəaliyyət göstərir.

### ƏDALƏTLİ TİCARƏT

Azgəlirli insanlara mikrokreditlər verən banklar, beynəlxalq ticarətdə “ədalətli ticarət” anlayışı gətirən idxalat-ixracat şirkətləri, milyonlarca insana məşğulluq imkanı təmin edən kooperativləri bu hərəkata nümunə kimi göstərmək olar.

### MƏNFƏƏT, YA BƏRABƏRLİK?

Sosial anlayış çərçivəsində isə sahibkarlıq prinsipləri mənfəətin maksimumlaşdırılması əvəzinə sosial problemlərin həllinə istiqaməlendirilməyə çalışılır.

i.ü.f.d. Gəray Musayev



Sosial biznes dünyada yeni bir sosial transformasiya və inkişaf vasitəsi kimi sürətlə yayılmağa başlamışdır. Sosial biznes strukturları Hindistandan İngiltərəyə qədər dünyanın çox sayda ölkəsində fəaliyyət göstərir. Azgəlirli insanlara mikrokreditlər verən banklar, beynəlxalq ticarətdə “ədalətli ticarət” anlayışı gətirən idxalat-ixracat şirkətləri, milyonlarca insana məşğulluq imkanı təmin edən kooperativləri bu hərəkata nümunə kimi göstərmək olar.

Dünyada sayları minlərlə ölçülən bu fəaliyyətlər sosial və biznes anlayışlarını birlikdə ehtiva edir. Biznes anlayışı çərçivəsində kommersiya fəaliyyətlərində olduğu kimi, problem və fürsətləri görməklə düzgün qiymətləndirmələr aparılaraq, risk alaraq innovativ metodlarla həll yolları gətirilir, sosial anlayış çərçivəsində isə sahibkarlıq prinsipləri mənfəətin maksimumlaşdırılması əvəzinə sosial problemlərin həllinə istiqamətləndirilməyə çalışılır. Bununla yanaşı, sosial biznes yanaşması sosial problemlərin həllində sistematik transformasiyanı hədəfləyir. Sosial biznes fəaliyyət göstərdiyi sahələrdə problemləri tək-tək həll etmək əvəzinə sistematik transformasiya yaratmağı, həll yollarını genişləndirməyi

## SOSİAL BİZNESƏ GÜZƏŞTLƏR

• SOSİAL BİZNES STRUKTURLARINA CƏLB EDİLƏN MALİYYƏ RESURSLARINDAN – MƏNBƏDƏN VERGİLƏR TUTULMAMALIDIR,

• SOSİAL BİZNES STRUKTURLARINA, KOMMERSİYA TƏŞKİLATLARINA TƏTBİQ OLUNAN GƏLİR VƏ MƏNFƏƏT VERGİSİ DƏRƏCƏLƏRİNDƏN DAHA AZ VERGİ DƏRƏCƏLƏRİ TƏTBİQ OLUNMALIDIR.

• SOSİAL BİZNES SAHƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN STRUKTURLAR MÜƏYYƏN DÖVRİYYƏYƏ QƏDƏR VERGİYƏ CƏLB EDİLMƏLİDİRLƏR.



və uzunmüddətli dövrdə ictimaiyyətin dəstəyini qazanaraq problemin aradan qaldırılması məqsədini daşıyır. Beləliklə, sosial biznes sosial problemlərin həllində biznes əsaslarını və bazar iqtisadiyyatı metodlarını mənimsəyən sistematik transformasiya qurumları kimi özünü göstərir. Bu qurumlar mənfəət məqsədi daşımayan qeyri-hökumət təşkilatları və ya sirkət və kooperativlər kimi fəaliyyət göstərirlər.

Sosial biznesin əsas xüsusiyyəti kommersiya fəaliyyətlərindən sosial missiyalarını reallaşdırmaq üçün istifadə etmələridir. Sosial biznes bu mənada digər biznes formalarından fərqlənir. Biznes şirkətlərinin əksinə, sosial biznesdə uğur göstəricisi əldə edilən mənfəət yox, cəmiyyətdə yaradılan müsbət təsirlərdir.

Bazar iqtisadiyyatı şərtlərində əmtəə və xidmət istehsal edərək kommersiya fəaliyyəti həyata keçirən sosial biznes strukturları bu fəaliyyətlərdən əldə etdiyi gəlirləri yenidən sosial məqsədlər üçün istifadə edirlər. Ancaq kommersiya şirkətlərində olduğu kimi, sosial biznes strukturları öz fəaliyyətlərində kreativ, cəsarətli və sahibkarlıq ruhu ilə hərəkət edirlər.

Fikrimizi ümumiləşdirsək sosial biznesin aşağıdakı faydalarını qeyd etmək mümkündür:

• Səmərəli və keyfiyyətli sosial xidmətlər təmin edərək dövlətin yükünü azaldır,

• Məşğulluq imkanları yaradır,

• İqtisadi subyekt kimi iqtisadi artıma töhfə verir,

• Azgəlirli kateqoriyadakı insanlara məşğulluq imkanları yaradaraq onların cəmiyyətə inteqrasiya olmalarına köməklik edir,

• İnsan kapitalının inkişafına imkan yaradır,

• Qeyri-hökumət təşkilatları üçün dayanıqlı maliyyə resursları yaradaraq vətəndaş cəmiyyətinin və demokratiyanın inkişafını gücləndirir.

Sosial biznesin cəmiyyətdə fəaliyyət sahələrinin genişləndirilməsi üçün, fikrimizcə, bu sahədə fəaliyyət göstərən strukturların resurs mənbələrinin gücləndirilməsi lazımdır. Bunun üçün isə sosial biznes strukturlarının kommersiya şirkətlərindən fərqli bir qanunvericilik əsasında fəaliyyətlərinin təşkili zərurəti yaranır. Kommersiya şirkətlərinin fəaliyyətlərini tənzimləyən qanunvericilikdən fərqli, sosial biznesi dəstəkləyən qanunvericiliyin qurulması sosial biznesin cəmiyyətin bütün təbəqələrinə yayılmasına şərait yarada bilər. Böyük Britaniyada "Cəmiyyətin maraqlarına xidmət edən şirkət", Belçikada Sosial faydalı şirkət, Çexiya Respublikasında "İctimai faydalı şirkət" kimi qanunvericilikdə nəzərdə tutulan şirkət tipləri buna nümunə kimi göstərilə bilər.

Hazırda sosial biznes sahəsində fəaliyyət göstərən strukturlara kommersiya fəaliyyəti göstərən şirkətlərdə olduğu kimi, vergilər tətbiq olunur və vergi sahəsində əlavə güzəştlər nəzərdə tutulmur. Fikrimizcə, sosial biznes sahəsində fəaliyyət göstərən strukturların fəaliyyət sahələrinin genişləndirilməsi üçün vergiqoymada müəyyən güzəştlər tətbiq edilə bilər:

• Bu strukturlar kommersiya strukturlarından fərqləndirilməli və bu yanaşma vergiqoymada nəzərə alınmalıdır,

• Sosial biznes strukturlarına cəlb edilən maliyyə resurslarından - mənbədən vergilər tutulmamalıdır,

• Sosial biznes strukturlarına, kommersiya təşkilatlarına tətbiq olunan gəlir və mənfəət vergisi dərəcələrindən daha az vergi dərəcələri tətbiq olunmalıdır.

• Sosial biznes sahəsində fəaliyyət göstərən strukturlar müəyyən dövriyyəyə qədər vergiyə cəlb edilməlidirlər.

# ELEKTRON TİCARƏTİ
## VERGİYƏ NECƏ CƏLB ETMƏLİ?

Əbilxan İsayev

İnformasiya texnologiyaları sahəsində baş verən dinamik inkişaf biznes subyektlərinin fəaliyyət dairəsinin genişlənməsində yeni imkanlar yaradır. Artıq əmtəə və xidmətlərin maddi aləmdəki dövriyyəsində baş verən rəqabət öz yerini getdikcə virtual aləmə verməkdədir. Elektron satış sistemlərinin inkişafı sahibkarlara öz əmtəə və xidmətlərini internet üzərindən satmağa kömək edir. Bu baxımdan müasir dövrdə





elektron ticarət (e-ticarət) əmtəə və xidmətlərini realizə edilməsində ən əlverişli satış vasitələrindən biridir.

Hazırda qlobal e-ticarət bazarı 2 trilyon ABŞ dollarını keçir. E-ticarətin inkişafının "Elektron hökumət" Dövlət Proqramının prioritetlərindən biri olması, internet istifadəçilərinin sayının artması, bank kartlarının sayının çoxalması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internetdən alış-veriş etməyə meyilli olan gənc əhalinin sayının çoxluğu, eləcə də beynəlxalq tendensiyalar Azərbaycanda e-ticarət həcminin yaxın illərdə nəzərəçarpacaq dərəcədə artacağına əsas verir.

Dünyada elektron ticarətin vergilərdən azad olunması və ya ənənəvi ticarət kimi vergiyə cəlb olunması şəklində iki yanaşma mövcuddur. Vergiyə cəlb olunma ilə bağlı əsas problemlər yurisdiksiyanın və vergi ödəyicisinin müəyyən edilməsi, vergi borclarının alınması, vergi uçotu, mənbədə tutulmayan vergilərə görə məsuliyyət, əməliyyatların aidiyyəti orqanların nəzarətindən kənarda qalması ilə bağlıdır.

Elektron ticarət informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı və xidmətlərin göstərilməsi, o cümlədən faktorinq, lizinq, investisiya qoyuluşu, məsləhət və bank xidmətləri, sığorta kimi ticari və işgüzar fəaliyyətlərdir. 1970-ci ildə ABŞ-da kompüter şəbəkəsi üzrə məlumatın elektron mübadiləsi (Electronic Data Exchange) və kompüter şəbəkələrində vəsaitin bank vasitəsilə elektron köçürülməsi (Electronic Fund Transfer) ilə e-ticarətin əsası qoyulmuşdur.

**E-ticarətin Vergiyə Cəlb Edilməsi ilə Bağlı Yanaşmalar**

Əksər ölkələrdə e-ticarətin vergiyə cəlb olunması Aİ-nin və OECD-nin müəyyən etdiyi ümumi prinsiplərlə tənzimlənir. Həmin ölkələrdə mövcud olan e-ticarət qanunları daha çox telekommunikasiya xidmətlərinin lisenziyalaşdırılması, elektron imzanın tətbiqi, elektron və kağız sənədlərin qüvvələrinin bərabərləşdirilməsi, təhlükəsizliyin təmini, istehlakçı hüquqlarının qorunması və əqli mülkiyyətin qorunması kimi sahələri əhatə edir.

Avropa İttifaqının e-ticarət subyektlərinin vergiyə cəlb edilməsi üzrə müəyyən etdiyi və OECD-nin mövqeyinə uyğun yanaşması aşağıdakı elementləri əhatə edir:

* e-ticarətin vergiyə cəlb edilməsində yeni yanaşmaya ehtiyac yoxdur (ƏDV kifayət edir);

* elektron məhsul əmtəə kimi deyil, xidmət kimi vergiyə cəlb edilir;

* istehlak vergisi istehlak yerinə uyğun tutulmalıdır.

ABŞ-ın e-ticarət subyektlərinin vergiyə cəlb edilməsində istifadə etdiyi əsas prinsip yeni vergilərin tətbiq edilməməsidir. İnternetin Vergidən Azadolması Qanununa (Internet Tax Freedom Act-ITFA) görə, artıq qüvvədə olan vergilər olduğu kimi və ya qismən transformasiya





TT
ƏTİN ÜÇ
RİYASINI
ƏN EDİR:

qəmsallaşdırılmış
rda ticarəti;
n ilə malların və ya
yn rejimdə ticarəti;
əqdim edilməsi.

edilərək tətbiq edilə bilər. ITFA e-ticarətə hər hansı diskriminativ xarakterli vergiləri qadağan edir.

Cənub-Şərqi Asiya ölkələrində e-ticarətin vergiyə cəlb olunması ümumi vergitutma prinsipləri əsasında həyata keçirilir. Yaponiyada e-ticarət OECD tərəfindən verilən tərifə uyğun olaraq qəbul edilir. Lakin bəzi hallarda e-ticarətdə daxili rəqabətin qorunması və vergi yükünün optimallaşdırılması səbəbindən bir sıra vergilər də tətbiq edilir.

**Azərbaycanda E-ticarətin Miqyası və Hüquqi Çərçivəsi**

Azərbaycanda e-ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, onun iştirakçıları-nın hüquq və vəzifələrini, həmçinin qanunvericiliyin pozulmasına görə məsuliyyət 2005-ci ildə qəbul olunmuş "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. 2008-ci ildə isə "SilverKey Azərbaycan" şirkəti Azərbaycanda ilk dəfə olaraq "GoldenPay" adlı onlayn ödəmə sistemi qurub. Eyni zamanda Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində ölkədə qlobal informasiya cəmiyyətinin bir hissəsi olan elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun və hüquqi bazasının inkişafı təmin olunmaqla, yerli məhsul və xidmətlərin xarici bazarlara çıxışının elektron ticarət vasitəsilə həyata keçirilməsi təşviq edilməsinin vacibliyi vurğulanmaqdadır.

Dövlət Statistika Komitəsinin göstəricilərinə görə, 2014-cü ilin 1 yanvarına respublikamızda elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 2 586,0 min manat təşkil etmişdir. Azərbaycanda e-ticarət ənənəvi ticarət əməliyyatlarının cəmi 4%-ni təşkil edir. Azərbaycanda e-ticarət vasitəsilə əhali əsasən restoranlardan yemək, ərzaq, parfümeriya məhsulları, kiçik elektron cihazlar sifariş edirlər. Həmçinin respublikamızda ixrac olunan neft və neft məhsullarının dünya bazarında fond birjalarında reallaşdırılması, banklararası həyata keçirilən əməliyyatlar, bir sıra malların – aviabiletlər, qiymətli kağızlarla əməliyyatların, həmçinin bir sıra xidmətlərin – mehmanxana nömrələrinin bron olunması və digər xidmətlərin xüsusi proqram təminatlarından istifadə olunmaqla e-ticarət həyata keçirilir. Ölkəmizdə e-ticarət münasibətlərində idxal əməliyyatları çoxluq təşkil edir. Dünyanın iri e-ticarət portalları - "e-bay.com", "amazon.com", "shopping.com"un xidmətlərindən geniş istifadə olunur. Bundan başqa, sosial şəbəkələrdə geniş reklam olunan vasitəçilər ABŞ, Türkiyə, BƏƏ və Avropa ölkələrindən məhsulların gətirilməsi xidmətləri təklif edirlər.

**Azərbaycanda E-Ticarətin Vergiyə Cəlb Olunması Məsələləri**

Elektron ticarətin virtual aləmdə həyata keçirilməsi bu

## E-TİCARƏTİN ƏMƏLİYYATLARI HƏYATA KEÇİRİLMƏ İSTİQAMƏTLƏRİNƏ GÖRƏ NÖVLƏRİ:

**B2B (business-to-business)** - şirkətlər arasındakı e-ticarət münasibətləridir;
**C2C (consumer-to-consumer)** - istehlakçı arasında olan e-ticarət münasibətləridir (ebay.com);
**B2G (business-to-government)** - kommersiya strukturları ilə dövlət orqanları arasında olan e-ticarət münasibətləridir;
**G2B (government-to-business)** - hökumətlə şirkət arasındakı e-ticarət münasibətləridir (vergi bəyannaməsinin internetdə doldurulması);
**B2C (business-to-consumer)** - şirkətlə istehlakçı arasındakı e-ticarət münasibətləridir (internet mağazalar, amazon.com);
**C2B (consumer-to-business)**- istehlakçı ilə şirkət arasında olan e-ticarət münasibətləridir (priceline.com).

## E-TİCARƏT VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN BAŞLICA FƏALİYYƏT NÖVLƏRİ:

1. Elektron sistemlərindən istifadə etməklə sifariş olunan "fiziki" malların satışı;
2. Elektron əmtəələrin satışı (proqramlar, musiqilər);
3. Real vaxt rejimində maliyyə xidmətlərinin göstərilməsi (broker və s.);
4. İnformasiya xidmətlərinə çıxışın əldə olunması;
5. Telekommunikasiya xidmətləri (vebinarların, videokonfranslar)

növ əməliyyatların vergiyə cəlb olunması işini xeyli çətinləşdirir. Elektron ticarət üzrə fəaliyyəti həyata keçirən tərəflərin (istehlakçının və satıcının) fərqli ölkələrdə məskunlaşması, informasiya sistemlərinin (serverlərin) isə xarici ölkə ərazisində yerləşməsi əmtəə və xidmətlərin təqdim edildiyi yerin, vergi ödəyicisinin və vergi məbləğinin müəyyən olunmasını mürəkkəbləşdirir.

Müasir dövrdə e-ticarət bu sahənin aparıcı Qərb ölkələrində, gömrük rüsumlarının, eləcə də hər hansı bir nəzarət prosedurunun olmadığı azad virtual aləmdə inkişaf edir. Belə qayda əsasən internet üzərindən məhsullar ixrac edən və bu bazarda hakim mövqe tutan və onların ixracatçıları kimi çıxış edən inkişaf etmiş iri sənaye ölkələri üçün sərfəlidir.

Azərbaycanda elektron ticarət əməliyyatlarının vergiyə cəlb olunması bir sıra məsələlərin təyinindən asılıdır:

- e-ticarət əməliyyatlarını təqdim edən hüquqi və fiziki şəxslərin yerlərinin müəyyən olunmasındakı çətinliklər;
- dünya dövlətlərinin e-ticarət, vergi, informasiya texnologiyaları sahəsindəki qanunvericiliyinin fərqli olması;
- kiberqaydaların pozulmasına görə qanunvericiliklərin müxtəlif olması;
- e-ticarət xidmətləri təqdim edən müəssisələrin elektron sistemlərinin fərqli ölkələrdə yerləşməsi və s. göstərmək olar.

Azərbaycanda elektron ticarətin ənənəvi ticarət kimi vergiyə cəlb olunması məqsədəuyğun olacaqdır. Bu, iki sahə arasında rəqabət bərabərliyinin təmin olunması baxımından əhəmiyyətlidir. Bu məqsədlə vergi qanunvericiliyinə e-ticarətlə bağlı anlayışların daxil edilməsi, e-ticarətin vergiyə cəlb olunmasının inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi və e-ticarətlə bağlı məlumat bazasının formalaşdırılması vacibdir. Bununla yanaşı, ölkəmizdə e-ticarətin nisbətən gənc sahə olduğunu nəzərə alaraq, bu sahədəki yeniliklərin mərhələli şəkildə həyata keçirilməsi və genişmiqyaslı məlumatlandırma və maarifləndirmə tədbirləri ilə müşayiət olunması böyük əhəmiyyət daşıyır.



# E-TİCARƏTİN VERGİLƏRİ

## E-TİCARƏTDƏ DAİMİ NÜMAYƏNDƏLİK VƏ REZİDENTLİK PROBLEMLƏRİ

E-ticarət əməliyyatları üzrə vergi öhdəliyinin müəyyən edilməsi üçün daimi nümayəndəlik və rezidentlik məsələsi xüsusi əhəmiyyət kəsb edir. OECD yanaşmasına görə, "internet saytı özlüyündə daimi nümayəndəlik yaratmır və yalnız internet saytı yüklənən serverə daimi nümayəndəlik kimi baxıla bilər". OECD tərəfindən irəli sürülən bu düşüncə beynəlxalq aləmdə tam olaraq dəstəklənmir. Bir sıra OECD dövlətləri hesab edirlər ki, serverə göstərilən xidmətlər müstəqil agent tərəfindən həyata keçirilərsə, server daimi nümayəndəlik yaratmır.

## E-TİCARƏTDƏ BİRBAŞA VERGİLƏR

İnkişaf etmiş ölkələrdə e-ticarət üzrə birbaşa vergilər vergi ödəyiciləri tərəfindən ənənəvi üsulla ödənilir. Lakin e-ticarətdə elektron xidmət göstərildikdə və rəqəmsal mal təqdim edildikdə aparılmış əməliyyatın xidmətə, hüquqlardan istifadəyə və ya malın satışına aid olmasının müəyyən edilməsində çətinlik yaranır. Bu növ əməliyyatlarla bağlı əldə olunan gəlirlərin sahibkarlıqdan əldə olunan mənfəət, yoxsa qeyri-maddi əmlakın istifadə hüququnun verilməsinə görə royalti olduğunu müəyyən etmək lazım olur. E-ticarət vasitəsilə aparılan əməliyyatlardan əldə olunan gəlirlərin royalti və ya sahibkarlıqdan əldə olunan gəlir olması hələ də mübahisəli məsələ olaraq qalır.

## E-TİCARƏTDƏ DOLAYI VERGİLƏR

OECD-nin 1998-ci il tarixli Ottava Vergitutma Şərtləri Çərçivəsi hesabatında istehlak vergisi ilə bağlı iki əsas tövsiyə var:

- aparılan xarici ticarət əməliyyatlarında malların istehlak edildiyi yerin vergitutma yeri hesab olunması;
- istehlak vergilərinə münasibətdə əldə olunan rəqəmsal mallara xidmət kimi baxılması.

Ümumi olaraq, istehlak yeri malı alanın və ya mal çatdırılan yerin ünvanı hesab olunur. Lakin təcrübədə mal elektron olaraq yüklənirsə və ya internet vasitəsilə elektron olaraq çatdırılırsa, burada istehlakçının ünvanı mövcud deyil. Bu isə vergi orqanları üçün böyük çətinlik yaradır. Bu sahədə vergi sistemlərinin üzləşdiyi birinci problem, e-satıcılar öz mallarını və ya xidmətlərini aşağı ƏDV dərəcəsi olan ölkələrdən təklif etməklə, yüksək ƏDV dərəcəsi olan dövlətlərdə yerləşən rəqiblərindən daha çox gəlir əldə edirlər. İkincisi, bütün ölkələr ƏDV sisteminə malik deyil.

## E-TİCARƏTİN VERGİ İNZİBATÇILIĞI

E-ticarətin vergi inzibatçılığında rast gəlinən ümumi problemləri (fiziki çatdırılma olmadıqda) bu şəkildə ümumiləşdirmək mümkündür:

- yurisdiksiyanın müəyyən edilməsi – rezidentlik və ya mənbə dövləti;
- vergi ödəyicisinin müəyyən edilməsi – anonimlik;
- vergi borclarının alınması – e-satıcıların ölkə daxilində aktivləri olmadığı üçün vergi borclarının əmlak şəklində alınması mümkün olmur;
- vergilərin mənbədə tutulması və uçota durma məsələləri;
- mənbədə tutulmayan vergilərə görə məsuliyyət;
- əməliyyatların gömrük orqanlarının nəzarətindən kənarda qalması problemi.

## E-TİCARƏTLƏ BAĞLI XÜSUSİ VERGİ NÖVLƏRİ

Hazır proqram təminatı/Sifariş edilən proqram təminatı. Bir çox ABŞ ştatı hazır proqram təminatını vergiyə cəlb edir, digər ştatlar isə maddi əsasda çatdırılan sifariş proqram təminatını vergiyə cəlb etmir. Onlar bunu onunla izah edirlər ki, bu məhsulların satışı maddi əmlakdan çox peşəkar xidmət kateqoriyasına aiddir. Bir çox ştat elektron şəkildə çatdırılan (internetdən yüklənən) proqram təminatını satış və istifadə vergisindən azad edib.

Bitlərə görə vergi (Bit Tax). Bitlərə görə vergi tətbiq etmək təklifi 1994-cü ildə Belçikada irəli sürülmüşdür. Avropa Birliyinin Yüksək Səviyyəli Ekspertlər Qrupunun 1996-cı il tarixli sənədində qeyd edilirdi ki, "milli, ştat və ya hətta yerli hökumətin vergi gəlirlərinin ənənəvi olaraq əsasını təşkil edən fiziki məhsulların paylanmasının vergiyə cəlb edilməsi sürətlə sarsılır".

Bitlərə görə verginin tətbiq edilməsi ilə bağlı detallı plan olmasa da, əsas konsepsiya bitlərə görə toplanan vergi gəlirlərinin müəyyən formula əsasən yurisdiksiyalar arasında paylanmasıdır. Texniki maneələrdən savayı digər çatışmazlıq odur ki, vergiyə cəlb edilənin əsas dəyəri nəzərə alınmır. Bu növ vergi 1998-ci ildə OECD-nin Ottava görüşündə sərt şəkildə tənqid edilmişdir. Bu təklif Aİ tərəfindən də dəstəklənməmişdir. Bitlərə görə vergi ABŞ-da xüsusi olaraq İnternetin Vergidən Azadolması Qanunu ilə qadağan edilib.

# VERGİQOYMA və KRİPTOİQTİSADİYYAT

BİZİM İSTƏKLƏRİMİZDƏN ASILI OLMAYARAQ KRİPTOVALYUTA ARTIQ HƏYATIMIZA DAXİL OLUR. BU GÜN BİTCOİN HAQQINDA MƏLUMATI OLMAYAN İNSANA TƏSADÜF ETMƏK ÇƏTİNDİR. TƏBİİ HALDIR Kİ, BİR ÇOXLARI BUNUN ÜZƏRİNDƏ PUL QAZANMAĞI DÜŞÜNÜR. ƏN YAXŞI SEÇİM İSTİFADƏÇİLƏRİN KRİPTOVALYUTANI ALA VƏ YA BAŞQA BİRİ İLƏ MÜBADİLƏ EDƏ BİLƏCƏYİ BİRJANIN İŞƏ SALINMASIDIR. BUNU ETMƏK HEÇ DƏ ÇƏTİN DEYİL.

FƏXRİ MƏMMƏDOV

Vergi yığımı güclü iqtisadiyyatın əsas dayaqlarından biridir ki, hazırkı dövrdə bu, pul ilə həyata keçirilir. Pulun özü də zamanla inkişaf edir və daha geniş imkanlara sahib olur ki, bu da ödəniş vasitəsi kimi onun formasının dəyişməsində özünü göstərir. Belə dəyişmələrə əsas nümunə kimi, elektron pul və kriptovalyutanı göstərmək olar. Kriptovalyuta özü də valyutanın bir növüdür və elektron ödəniş şəbəkəsində artıq öz yerini tutmaqdadır. Kriptovalyutalar da öz aralarında rəqabət aparır ki, sonda ən çox istifadə olunan kriptovalyutanın ödəniş vasitəsi kimi yaxın gələcəkdə əsas pul vahidi olma ehtimalı gündən günə artır. Kriptovalyuta demək olar ki, heç bir dövlətin siyasətindən, qanunlarından, pul vahidindən asılı deyil və tənzimləyici orqanı yoxdur. Bu valyutaların qiyməti bazarda tələb-təklif əsasında müəyyən olunur və müxtəlif valyutalar ilə mövcud bazar məzzənəsi ilə mübadilə olunur. Kriptovalyutalardan istifadəni heç bir ölkə məcbur və ya qadağa edə bilməz ki, blokçeyn sistemində rəqəmsal valyutanın dövriyyəsinə və ondan istifadə edənlərə hələ ki, heç kim nəzarət edə bilmir. İnflyasiyanın ən az həddə olması, mərkəzi idarəetmə orqanının olmaması və məxfiliyin qorunması kriptovalyutalara olan marağı artırır ki, bu da kriptobazarın artıq kifayət qədər böyüməsinə gətirib çıxardıb. 100 milyardlarla ölçülən kriptovalyuta bazar kapitalı hazırda vergidən demək olar ki, kənarda qalmışdır.



Artıq 9 ildir ki, blokçeyn sürətlə inkişaf edir. Blokçeyn sisteminin əsas valyutası olan bitkoin artıq beynəlxalq vitual valyutaya çevrilib ki, ona artıq rəqəmsal qızıl da deyilir. Onlayn alqı-satqı və maliyyə fəaliyyətləri artıq qeyri-mərkəzləşdirilmişdir. Belə ki, fəaliyyət iştirakçıları bir-biri ilə horizontal səviyyədə əlaqə yaradırlar. Bunun nəticəsində kriptovalyutalar ölkə sərhədlərindən kənarlara və bütün dünyaya yayılır. Kriptovalyutaların emissiyası əsasən minlərlə kompüterlərin müxtəlif riyazı alqoritm hesablamalar etməsi ilə, yəni mayninq ilə baş verir ki, bu da öz növbəsində çox sürətlə təkmilləşir.

Hər bir ölkə öz valyutasının emissiyası ilə bərabər, fiskal və monetar siyasət həyata keçirməklə iqtisadiyyatını tənzimləyir. Mütəxəssislərin fikrincə, kriptovalyuta sahibləri və onlardan istifadə edənlər qanunla müəyyənləşdirilmiş vergiləri ödəməlidirlər. 2017-ci ildə kriptovalyutaların, əsasən də bitkoinin qiymətinin fantastik qalxması bu valyutaların vergiyə tətbiq olunması prosesini sürətləndirdi. Demək olar ki, istənilən bitkoin və digər kriptovalyutaların istifadəsi, köçürülməsi, xərclənməsi, dəyişdirilməsi və hətta mayninqinə belə vergi tətbiq oluna bilər. Artıq əminliklə demək olar ki, 2018-ci il kriptovalyutaların vergiyə tətbiqi ili olacaq. Bitkoinin meydana gəlməsindən indiyə kimi Amerikada cəmi bir neçə yüz nəfər adam kriptovalyutalardan əldə etdiyi gəlir haqqına könüllü hesabat verib ki, reallıqda bu rəqəmin sayı minlərlə olmalı idi. Problem əslində kriptovalyutaların tanınmasındadır ki, burada qeyri-müəyyənlik hökm sürür. Hazırda hökumətlər kriptovalyutaları tanımaq və ya tanımamaq, tanıyırıqsa necə tanımaq məsələ-sinə uyğun






olaraq qanunvericiliyi təkmilləşdirirlər. Kriptovalyutaların alışı və satışı və ya onun ödəniş vasitəsi kimi xidmət və malların alınmasında istifadəsi zamanı ödənməli olan vergi mühasibatlığı tam olaraq bir çox insanlar, siyasətçilər və maliyyəçilər üçün aydın deyildir.

Kriptovalyuta istifadəçilərinin özü isə bir çox hallarda qanunda kriptovalyutaların tanınması metodu ilə razılaşmır və ya sadəcə olaraq professional şəkildə gəlirlərini gizlədərək rahatlıqla vergilərdən yayına bilir. Müxtəlif ölkələrin təcrübəsinə baxsaq görərik ki, ölkələr arasında da kriptovalyutaya baxış və qanunvericilikdə vergiyə tətbiq olunma müxtəlifdir.

Amerikada kriptovalyutalar mülkiyyət kimi nəzərdən keçirilir və əgər investisiya qısamüddətlidirsə, kapitalın artımı üzrə vegi tətbiq edilir. Uzunmüddətli investisya zamanı vergi dərəcəsi bu aktivlərin əldə tutulma müddətinə görə müəyyən olunur. Əgər kriptovalyutanın satışı bir il çərçivəsində həyata keçirilirsə, o zaman vergi onun alışı vaxtından 25% təşkil edir. Əgər bir ildən çox olarsa, vergi 0-20% arasında dəyişir. Kanadada kriptovalyuta məhsul kimi düşünülür və kapitalın artımına vergilər tətbiq olunur. Böyük Britaniya ilk zamanlar kriptovalyuta əməliyyatlarına ƏDV tətbiq etsə də, 2014-cü ildə bu qərar ləğv olundu. Bunun əvəzinə gəlir vergisi və korporativ vergi tətbiq edilməyə başlandı. Bu ölkədə mayninq şirkətləri dərəcəsi 20% olan korporativ vergi ödəyirlər. Bundan başqa, investorlar aktivlərinin bir hissəsini qohum üzvlərinə də hədiyyə verə bilərlər. Deməк olar ki, vergi bütün valyuta əməliyyatları və rəqəmsal aktivlərin bütün növlərindən alınır.

İsveçrədə kriptovalyutalar “xarici valyuta” kimi qəbul edilir və gəlir əldə edildiyi halda gəlir vergisi tətbiq edilir. Yaponiyada kriptovalyuta əmtəə hesab olunur. 2017-ci ilin iyul ayından etibarən istehlakçılara vergi tətbiq ediblər. İstifadəçilər üç növ – gəlir, korporativ və kapital mənfəəti üzrə vergiyə cəlb olunurlar.

İtaliya və Rusiyada isə kriptovalyutalar üzrə ticarətə vergi tətbiq edilmir.

Ölkəmizdə isə həm fiziki şəxslərin, həm də şirkətlərin kriptovalyutalar üzrə gəlirləri vergiyə tətbiq olunacaq ki, hazırda qanunvericilik bu sahə üzrə təkmilləşdirilir.

Kriptovalyutalar blokçeyn sisteminin tərkib hissəsidir ki, bu sistemin də sərhədi yoxdur. Bu pulları müxtəlif elektron və ya offline cüzdanlarda gizlətmək çox asandır və kriptovalyuta nağdlaşdırılmayana qədər onlara vergi tətbiq olunması demək olar ki, real deyil. Qeyt etdiyimiz kimi, bir çox ölkələrdə hələ də qanunvericiliklə kriptovalyutalara vergi tətbiq olunmayıb və bu pulların sahibləri vergidən yayınmaq üçün sadəcə olaraq nağdlaşdırmanı başqa ölkədə həyata keçirə bilərlər. Bunun qarşısının alınması üçün ilk növbədə kriptovalyutaların bütün dünya üzrə vahid bir standardla tanınması həyata keçirilməli, sonradan bu sahə üzrə beynəlxalq normalar işlənib hazırlanmalıdır. Ölkələr arasında bu sahə üzrə birgə əməkdaşlıq və qanunvericiliyin uyğunlaşdırılması baş tutarsa, bu zaman kriptovalyutaların vergiyə tətbiq olunması tam olaraq öz bəhrəsini verə bilər.



# BEYNƏLXALQ TİCARƏTDƏ MİLLİ VALYUTALAR VƏ KRİPTOVALYUTALARIN RƏQABƏTİ

Əhliman Abbasov






Kriptovalyutaların yeni bir ödəmə vasitəsi kimi getdikcə populyarlaşması onun beynəlxalq ödəmələrdə də istifadəsi ilə bağlı məsələləri aktuallaşdırır. Kriptovalyutaların daha sürətli və daha aşağı tranzaksiya xərcləri ilə ödəmələri həyata keçirmə qabiliyyətləri dünyanın müxtəlif yerlərində insanların və şirkətlərin beynəlxalq ödəmələrin həyata keçirilməsində bu yeni faktora diqqətini cəlb edir. Bu baxımdan, bitkoin mövcud şəraitdə digər kriptovalyuta növləri ilə müqayisədə istər spekulyasiya vasitəsi kimi, istərsə də ödəmə aləti kimi daha populyardır.

Bitkoin yüksək kriptoqrafik metodlara əsaslanan innovativ texnologiyanın təqdim etdiyi təhlükəsiz və sürətli ödəmə alternatividir. Bu ödəmə sistemində ödəmə tranzaksiyaları digər bitkoin istifadəçiləri tərəfindən zəncirvari formada təsdiqlənməsi nəticəsində tamamlanır. Bu ödəmə prosesi əlaqələndirici bankların kənarda saxlanıldığı mexanizm olaraq təxminən 10 dəqiqə ərzində tamamlanır. Bu baxımdan, mərkəzi banklar və kommersiya bankları da bitkoin texnologiyasının tətbiq imkanlarını öyrənərək ənənəvi beynəlxalq ödəmə mexanizminin sürətini və təhlükəsizliyini artırmağa çalışırlar.

Beynəlxalq səviyyədə fəaliyyət göstərən şirkətlərin alış və satışlarını bilavasitə bitkoinlə həyata keçirmələri bir neçə xarici valyutada hesabların idarə olunması ehtiyacını ortadan qaldıra bilər. Bitkoin vasitəsilə beynəlxalq hesablaşmalar eyni zamanda daha yüksək sürət, təhlükəsizlik və konfidensiallıq təqdim edir. Beynəlxalq ticarət münasibətlərində bitkoin ilə ödəmələrin həyata keçirilməsi bir çox risklərin azalmasına və ya-xud da ortadan qalxmasına təsir göstərə bilər. Məsələn, bitkoin vasitəsilə ödəmənin həyata keçirilməsi üçün sistemdəki elek-tron valletdə öncədən tələb olunan həcmdə bitkoinin olması gərəkliyindən kredit riski məsələsi burada ortadan qalxır. Bitkoin vasitəsilə beynəlxalq ödənişlər zamanı tranzaksiya haqlarının da ənənəvi formalı ödəmə sistemi ilə müqayisədə daha aşağı məbləğdə ortaya çıxması mümkündür.

Bir neçə ölkədə fəaliyyət göstərən şirkətlər üçün ödəmələrin bitkoin vasitəsilə həyata keçirilməsi mürəkkəb valyuta menecmentinin daha səmərəli və sadələşdirilmiş forma ilə əvəzlənməsinə imkan yarada bilər. Bitkoindən istifadə yüksək valyuta volatilliyinin müşahidə olunduğu ölkələrdə fəaliyyət göstərən şirkətlər üçün də yerli valyutadakı ani dəyər dəyişkənliyinin neqativ təsirlərindən sığortalanmağa kömək edər.

Ancaq bitkoin hələ ki bir çox ölkələrdə geniş şəkildə

# DAHA SÜRƏTLİ DAHA AŞAĞI TRANZAKSİYA XƏRCLƏRİ




istifadə edilmir, eyni zamanda bəzi ölkələrdə onun istifadəsi qanunla məhdudlaşdırılıb. Bu baxımdan, hal-hazırda beynəlxalq səviyyədə fəaliyyət göstərən şirkətlərin öz maliyyə hesablaşmalarını bitkoin vasitəsilə həyata keçirmələri praktik olaraq mümkünsüzdür. Hətta bəzi şirkətlərin beynəlxalq ödəmələrin qəbulu zamanı öz istehlakçılarına bitkoinlə ödəmə imkanı yaratmasına baxmayaraq, bu gün bitkoin istehlakçıları üçün də heç də yüksək səviyyədə üstünlük verilən ödəmə vasitəsi hesab edilmir. Bu baxımdan da şirkətlər məcburi olaraq ödənişlərinin dollar, funt, avro vasitəsilə həyata keçirilməsi üçün ənənəvi ödəmə metodlarına şərait yaratmalı olurlar. Eyni zamanda mövcud şərtlərdə təchizatçılar da bitkoin vasitəsilə ödəmələrin qəbul edilməsinə həm istəksiz ola bilərlər, həm də bunu bacarmaya bilərlər. Şirkətlər işçilərə və kontraktçılarına olan ödəmələrini də yerli valyutalarla həyata keçirmək məcburiyyətində qala bilərlər. Əgər bu cari şərtlər daxilində şirkətlər öz fəaliyyətini bütövlükdə bitkoin üzərində qura bilmirsə, bu zaman istehlakçılardan olan ödənişlərin bitkoinlə qəbul edilməsi ikitərəfli məzənnə riskləri doğurur. İlk öncə ödəməni həyata keçirən tərəf ənənəvi valyuta ilə bitkoini dəyişərək ödəməni həyata keçirir, daha sonra isə ödəməni qəbul edən tərəf bitkoini ənənəvi valyutaya çevirməli olur. Bitkoinin dollarla ifadə olunan dəyərində yüksək volatilliyin müşahidə olunduğunu nəzərə alsaq, ödəməni həyata keçirən tərəfin üzləşdiyi məzənnə ilə ödəməni qəbul edib bitkoini ənənəvi valyutaya çevirən tərəfin qarşılaşdığı məzənnənin fərqli olması ehtimalı böyükdür. Nəticədə hər iki tərəfin itkilərlə qarşılaşması ehtimalı ortaya çıxır.

Bitkoinin beynəlxalq ödəmələrin vasitəsi kimi istifadəsi ticarətin maliyyələşdirilməsi mexanizmini də dəyişdirə bilər. Bitkoinlə kredit verən qurumların azlığı, ticarətin maliyyələşdirilməsi məsələlərində də çətinliklərin ortaya çıxmasına səbəb ola bilər. Bu zaman hər hansı ənənəvi valyuta ilə borc alınması və bunu bitkoinə çevirmək zərurəti ortaya çıxa bilər, hansı ki, bu da məzənnə riskinin ortaya çıxmasına şərait yaradacaq.

Ümumilikdə, bitkoinin beynəlxalq ödəmələrin həyata keçirilməsində istifadəsi ödəmələrin daha sürətli, təhlükəsiz həyata keçməsinə, daha aşağı tranzaksiya xərclərinin ortaya çıxmasına və valyuta məzənnələrindəki volatillikdən sığortalanmasına kömək edə bilər. Lakin bitkoinin beynəlxalq səviyyədə o qədər də geniş qəbul edilməməsi beynəlxalq şirkətlərə öz fəaliyyətlərini bütövlükdə bitkoin üzərindən qurmasına mane olur. Bu şəraitdə isə bitkoindən istifadə bitkoinin real valyutalara nəzərən məzənnə volatilliyi şirkətləri yüksək səviyyədə məzənnə riskləri ilə qarşı-qarşıya qoya bilər. Lakin bitkoin, eləcə də digər kriptovalyutaların və blokçeyn texnologiyasından istifadənin genişlənməsi ilə birgə, bitkoin beynəlxalq tranzaksiyaların önəmli vasitəsinə çevrilə bilər.

1 Təchizatçılar bitkoin vasitəsilə ödəmələrin qəbul edilməsinə istəksiz ola bilərlər.

2 Şirkətlər işçilərə və kontraktçılarına olan ödəmələrini yerli valyutalarla həyata keçirmək məcburiyyətində qala bilərlər.

3 Nəticədə ikitərəfli məzənnə riskləri yarana bilər.

# MADE IN AZERBAIJAN

## VƏ QEYRİ-NEFT İXRACI

Təhmasib Əlizadə

Dünya Bankının 2017-ci ildə təqdim etdiyi son statistik məlumatlar əsasında ölkənin ixracının mövcud vəziyyətini görmək mümkündür. Qrafik 1-də bu statistik məlumatlara əsaslanaraq, Azərbaycanın ixrac vəziyyətinin trendi qeyd olunub. Bu göstəricilər təqdim olunarkən zaman seriyası 1990 – 2017-ci illər intervalından götürülüb. Bu dövr Azərbaycanın bazar iqtisadiyyatına keçid və neft ixracının yüksəldiyi dövr kimi səciyyələndirilir. Rəsmi statistikaya əsasən, açıq yaşıl ilə mal və xidmətlərin ixracı, ilkin gəlir (2016, ABŞ dolları, $), tünd göy rəngi ilə mal və xidmətlərin






ixracı (2016, ABŞ dolları, $), açıq göy rəngi ilə yüksək texnoloji məhsullar ixracı (2015, ABŞ dolları, $) qeyd olunub. Rəsmi rəqəmlər göstərir ki, 2014-cü ilin ikinci yarısından başlayaraq, Azərbaycanın ümumi mal və xidmət ixracında ciddi eniş müşahidə olunur. Təbii ki, bunun əsas səbəbi 2014-cü ilin ikinci yarısından başlayaraq, dünya neft bazarında neft qiymətlərinin kəskin enməyə başlaması və Azərbaycanın ixracı neftdən asılı olduğuna görə bundan ciddi təsirlənməsidir. Açıq göy rəngi ilə isə Azərbaycanın ixrac əməliyyatlarında yüksək texnoloji məhsulların payı qeyd olunub. Qrafikdən də göründüyü kimi, Azərbaycanda yüksək texnoloji məhsullar ixracı çox aşağı səviyyədədir. Bu statistik məlumatlar ölkə iqtisadiyyatının ixrac müxtəlifliyinin, başqa sözlə, ixrac diversifikasiyasının çox aşağı səviyyədə olduğunu ifadə edir. Bu isə iqtisadi artımın, iqtisadi inkişafın dayanıqlı olmaması ilə nəticələnir. Dövlət Statistika Komitəsinin ölkənin xarici ticarəti ilə bağlı açıqladığı statistik məlumatlar yuxarıda qeyd edilənləri təsdiqləyir. Bununla yanaşı, son illər ərzində ölkənin qeyri-neft ixrac payında isə kənd təsərrüfatının, turizm xidmətlərinin payı yüksəlib.

İxracın diversifikasiyası edilə bilməsi üçün milli markanın yaradılması zəruridir. Ümumiyyətlə, bir ölkənin milli markasının yaradılması və uğurlu nəticə əldə edə bilməsi üçün sənayesinin yüksək inkişafı önəmli faktor hesab olunur. Yəni, hazırda dünyada uğurlu marka kimi qəbul edilən “Made in Japan”, “Made in Germany” və digər bu kimi markalar həmin ölkələrin sahib olduğu yüksək sənaye və daxili bazardakı yüksək rəqabət hesabına formalaşıblar. Eynilə, Azərbaycan üçün də “Made in Azerbaijan” markasının yaradıla bilməsi üçün yüksək sənayenin qurulması, xüsusən də milli iqtisadiyyatda neft sənayesi ilə yanaşı, digər sənayelərin inkişaf etdirilməsi və buna paralel olaraq daxili bazarda rəqabətin təmin olunması böyük əhəmiyyətə malikdir. Yəni, Azərbaycanın ixracında qeyri-neft sənayesi məhsullarının sayını artıra bilmək üçün öncəliklə bu sənayelərin inkişaf etdirilməsi və milli markanın fəaliyyət prinsiplərinin və şərtlərinin doğru tətbiq olunması əsas faktordur. Bu əsasda, hazırda Azərbaycanın çoxtərəfli ticarət əlaqələrini təhlil edərkən, Dünya Bankının (DB), Beynəlxalq Valyuta Fondunun (BVF), Dövlət Statistika Komitəsinin rəsmi statistikasına əsasən texnoloji məhsul ixracında xeyli geri qaldığını gördük. Bunun əsas səbəblərindən biri də Azərbaycanda mikro və makro səviyyədə innovasiya fəaliyyətlərinin aşağı səviyyədə olması, Azərbaycanın Qlobal İnnovasiya İndeksində (QİI) uzun illərdən bəri aşağı səviyyədə qərarlaşmasıdır. İnnovasiyaların tətbiqinin aşağı olması, xüsusən də hazırkı qlobal rəqabət şəraitində ölkənin

MADE IN AZERBAIJAN



ixrac potensialını aşağı salır. Azərbaycanın 2011 – 2017-ci illər aralığında Qlobal İnnovasiya İndeksi hesabatına əsasən mövqeyi və indeksi Qlobal İnnovasiya İndeksində təqdim olunur. Rəsmi rəqəmlərə əsasən demək olar ki, 2013 və 2014-cü illərdə ölkənin mövqeyi (müvafiq olaraq 105 və 101-ci yerlər) əvvəlki 2 ilə (2011, 2012) nəzərən pisləşsə də, ondan sonrakı 3 il (2015, 2016, 2017) ərzində nisbətən yaxşılaşıb. Bu illər ərzində ölkəmizin mövqeyi müvafiq olaraq, 93, 85 və 82-ci yerlər olmuşdur (Qlobal İnnovasiya İndeksi hesabatı). Qeyd edim ki, Qlobal İnnovasiya İndeksi (QİI) hər il yenilənir və ölkələrin innovasiya üzrə rəqabətliliyinə uyğun reytinqlərini müəyyən edir. İnnovasiyalara əsaslanan iqtisadiyyata sahib ölkələr bu indeks üzrə daha uğurlu göstəricilərə sahib olan ölkələrdir. 2016-cı ildə yayımlanan son hesabat dünyada 128 ölkə üzrə tərtib olunub.

**Azərbaycanın ixrac gücünü artırmaq və "Made in Azerbaijan" markasının inkişaf etdirilməsi məqsədilə əsas təkliflər**

Azərbaycanın mövcud ticarət həcmi ilə bağlı aparılan SWOT təhlilin əsas nəticəsi ondan ibarətdir ki, Azərbaycanda hazırda ixracyönlü məhsul istehsalının zəifliyi, qeyri-neft sənayesi məhsullarının ixrac payının aşağı olması və xüsusən də qlobal rəqabətin əsas dinamiklərindən olan yüksək texnologiyaya əsaslanan mal və xidmət istehsalının olduqca zəif inkişafı ölkənin ixrac diversifikasiyasını da zəiflədir.

Qeyri-neft sənayesi ixracını yüksəltmək və milli markanı uğurlu edə bilmək üçün ölkənin sahib olduğu imkanlar doğru dəyərləndirilməlidir. Burada əsas faktor təbii ki, insan kapitalı faktorudur ki, bu da insan faktoruna əsaslanan iqtisadiyyatların dayanıqlılığından əldə olunan bir nəticədir. Xüsusən də bu günə qədər dünyada tətbiq olunan Triple Heliks Modeli (THM) bu mənada Azərbaycan kimi inkişaf etməkdə olan ölkənin dayanıqlı iqtisadi inkişafının təmin olunmasında, ixracyönlü məhsul istehsalının həcminin artırılmasında töhfə verə biləcək bir modeldir. Bu modelin əsas xüsusiyyəti ondan ibarətdir ki, model iqtisadi inkişafın əldə olunması üçün Dövlət-Sənaye-Akademik Sfera əlaqəsinin zəruri olduğunu ifadə edir. Yəni, burada akademik sferanın, sənayenin, dövlətin ayrı-ayrılıqda rolları var və onlar bu rollara uyğun olaraq öz fəaliyyətlərini davam etdirməli və qarşılıqlı əlaqəni yaradaraq, iqtisadi inkişafın təmin olunmasında iştirak etməlidirlər. Akademik sfera bu modelə görə sənayenin tələb etdiyi sahələr üzrə araşdırmalar etməli, mütəxəssislər yetişdirməli, ixtisaslaşmaya fayda verməlidir. Eyni zamanda sənaye və sənayedə təmsil olunan şirkətlər öz vizyonlarını müəyyən edərkən qlobal rəqabətin son trendlərini izləməli, Araşdırma və İnkişaf (A&İ) fəaliyyətlərinə investisiyaları artırmalı və Qlobal Dəyər Zəncirində (QDZ) ixtisaslaşmış məhsul ilə iştirak etməlidirlər. Bu modeldə digər tərəf – dövlət hər iki tərəf üçün hüquqi çərçivəni təmin edən, təşviq proqramları, vizyonu müəyyən edən institutdur. Dövlətin əsas vəzifələrindən biri məhz akademik sferanın və sənayenin ehtiyacı olan reformları gerçəkləşdirmək və onların tətbiq olunmasını təmin etməkdir. Xüsusilə də Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə institutların işləkliyi ixracyönlü məhsul istehsalının artırılmasında, milli markanın yaradılmasında və inkişafında önəmli rol oynayır.

Qrafik 1. Azərbaycanın ixrac vəziyyəti (Dünya Bankı rəsmi statistikası, 2017)



# TİCARƏT SALDOSUNUN DİNAMİKASI VƏ MANAT

dos. İnara Rzayeva

Beynəlxalq bazarda ölkənin maliyyə vəziyyəti adətən tədiyyə balansı ilə qiymətləndirilir.Tədiyyə balansı əsasında ölkənin dünya ticarətində iştirak dərəcəsini qiymətləndirmək və onun ödəmə qabiliyyətini müəyyənləşdirmək olar. Tədiyyə və ticarət balansının vəziyyəti valyuta məzənnəsinə böyük təsir göstərir.

Ticarət balansı idxal olunan məhsulların ölkənin ərazisinə idxalı və ölkədən kənara ixrac edilən malların dəyərini əks etdirən iqtisadi göstəricidir. Ticarət balansı o zaman aktiv sayılır ki, ixrac idxalı üstələyir, əks halda ticarət balansı passivdir. Ticarət balansının müsbət saldosu milli valyuta məzənnəsinin qalxması üçün əlverişli bir amildir.

Bildiyimiz kimi, 2014-cü ildən başlayaraq dünya bazarında neftin qiyməti kəskin şəkildə enib, bu da bütün neft ixrac edən ölkələrin, o cümlədən Azərbaycanın tədiyyə balansına və eyni zamanda ticarət balansına təsirini göstərib. Mərkəzi Bankın məlumatına əsasən, tədiyyə balansının kəsiri 2015-ci ildə maksimum səviyyəyə yüksəlib və bu da manatın dəyərinin 49,6% itirilməsinə səbəb olub (şəkil 1).

Şəkil 1. ABŞ dollarının və manatın nisbətinin dinamikası




Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, 2017

Lakin 2016-cı ildə tədiyyə balansı bir qədər stabilləşib və ilin sonunda hətta profisit yaranıb. Qeyd etmək lazımdır ki, ticarət balansı da öz növbəsində 2014–2016-cı illər ərzində ciddi təsirlərə məruz qalıb.

Qrafikdən görünür ki, Azərbaycanda 2012-ci ildən ixracın həcmi aşağı düşür, lakin idxalın həcmi nisbətən stabil olaraq qalır. Nəticədə ticarət saldosu da 2012-ci ildən kəskin şəkildə azalır. 2014-cü ilin sonundan başlayaraq dünyada neftin qiymətinin ucuzlaşması nəticəsində Azərbaycanın xarici ticarət balansının göstəricisi əvvəlki rüblərə nisbətən təxminən 50% azalmışdır. Göründüyü kimi, 2016-cı ildə ticarət saldosu öz aktivliyini saxlayır, lakin buna baxmayaraq ixrac və idxal arasında olan fərq kəskin şəkildə azalma tendensiyasındadır.

2017-ci ildə Azərbaycanın tədiyyə balansında yüksəlmə müşahidə olunur. Bu



## 2017-Cİ İLDƏ AZƏRBAYCANIN TƏDİYYƏ BALANSINDA YÜKSƏLMƏ MÜŞAHİDƏ OLUNUR

**Şəkil 2. Azərbaycanın 2010–2016-cı illər ərzində xarici ticarət dövriyyəsinin dinamikası (milyon ABŞ dolları ilə)**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017

ilk növbədə dünya bazarında neftin giymətinin 30% artması və eyni zamanda dövlətimiz tərəfindən makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində baş vermişdir. Müsbət tendensiya xarici ticarət balansında da öz əksini göstərmişdir. Beləliklə, 2017-ci ildə ticarət balansı 10,7 mlrd.$ və eyni zamanda xarici ticarət balansının saldosu müsbət olaraq 3,5 mlrd.$ məbləğini təşkil etmişdir.

Beləliklə Azərbaycanın ticarət balansının saldosunun müsbət olması və yüksəlmə tendensiyasını nümayiş etdirməsi milli valyutamızın bərkiməsinə müsbət təsir edir.

Ölkənin maliyyə vəziyyəti adətən **tədiyyə balansı** ilə qiymətləndirilir

Ticarət balansının müsbət saldosu **milli valyuta** məzənnəsinin qalxması üçün əlverişli bir amildir.

Azərbaycanın ticarət balansının saldosunun müsbət olması və yüksəlmə tendensiyasını nümayiş etdirməsi milli valyutamızın bərkiməsinə **müsbət** təsir edir







# SOSİAL BİZNES

## dayanıqlı və inklüziv inkişaf

Azər Ağarzayev

Əhalinin sosial rifahının yüksəldilməsi, gəlirlərinin artırılması, yoxsulluğun azaldılması, insan potensialının inkişafı, aztəminatlı ailələr üçün dayanıqsız passiv sosial təminat tədbirlərindən dayanıqlı aktiv məşğulluq proqramlarının tətbiqinə keçidin təmin edilməsi, işsizlik səviyyəsinin azaldılması və sosial biznes ideyasının iqtisadiyyatın mövcud reallıqları əsasında tətbiqi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və intensivliyinin artırılması sosial-iqtisadi siyasətin prioritet tərkib hissəsi kimi qəbul edilmişdir.

Sosial biznes konsepsiyasının həyata keçirilməsi ilə bağlı dövlət tərəfindən müvafiq sosial-iqtisadi proqramlar qəbul edilmiş və uğurlu nəticələr əldə edilməkdədir. Azərbaycanın Dünya İqtisadi Forumunun (DİF) illik "İnklüziv inkişaf indeksi - 2018" hesabatında inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutması ölkəmizin son illər iqtisadi və sosial sahədə apardığı uğurlu islahatların, reallaşdırdığı layihələrin və dayanıqlı iqtisadiyyatın inkişafı ilə bağlıdır. "İnklüziv inkşaf indeksi" insanların öz ölkələrində iqtisadi inkişafı dəyərləndirmə meyarlarını əks etdirir.

Dayanıqlı iqtisadi inkişafın əsasında iqtisadiyyatın rəqabət qabiliyyətinin, inklüzivliyinin və sosial rifahın artırılması durur.

Artıq ölkədə insan xoşbəxtliyinə, yoxsulluğun, qeyri-bərabərliyin aradan qaldırılmasına, sülh və hər kəsin rifahına, layiqli iş imkanlarının yaradılmasına xidmət edəcək dayanıqlı və inklüziv inkişaf dəyişikliyi yaratmaq üçün aparılan islahatlar öz nəticəsini verməkdədir.

Lakin bununla yanaşı, sosial biznes konsepsiyasının gücləndirilməsi, inkişaf etdirilməsi, bu sahəyə maliyyə vəsaitlərinin cəlb edilməsi, daha geniş yoxsul və azgəlirli əhali təbəqəsini əhatə etməsi üçün bu prosesə dövlətlə bərabər özəl sektor investorlarının, ianə fondlarının, bələdiyyələrin, bank və bank olmayan kredit təşkilatlarının, sosial fondların, dövlət-vətəndaş cəmiyyətlərinin və akademik institutların, görüləcək işlərin sosial iqtisadi əhəmiyyəti, motivasiyası və təbliği məqsədi ilə mətbuat orqanlarının cəlb edilməsinin zəruriliyi əsas şərtdir.

UNEC rektoru prof. Ə.C. Muradov bu barədə xüsusi olaraq qeyd edir: "Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, ölkə rəhbərinin bu sahədə apardığı siyasət, ölkədə fəaliyyət göstərən dövlət-vətəndaş cəmiyyəti-akademik müəssisələr eləcə də sahibkarlıq subyektləri arasında əlaqələrin inkişaf etdirilməsi, onların bir çevrədə fəaliyyətinin zəruriliyi mütləqdir. Azərbaycanda korporativ sosial məsuliyyət, sosial biznes və sosial müdafiə sahəsində elmi-nəzəri yanaşmaların, akademik araşdırmaların, yoxsulluğun azaldılması sahəsində fəaliyyətin Ölkə Prezidentinin xüsusi diqqətində olduğunu və prioritet təşkil etdiyini bildirib".

Sosial sahibkarlar cəmiyyətin ən aktual sosial problemlərinin innovativ həll yollarını müəyyən edən şəxslər hesab olunurlar və öz sosial missiyalarını həyata keçirmək üçün daha effektiv metodlar axtarır, dayanıqlı inkişafa üstünlük verməklə yanaşı, insan inkişafı, insan hüquqları, bərabərlik və yoxsulluğun aradan qaldırılmasına çalışırlar. Sosial sahibkarlar çatışmazlıqları araşdırır, sistemi dəyişməklə problemi həll edir və cəmiyyətin müxtəlif istiqamətlərdə inkişaf etməsi üçün çalışırlar.

Sahibkarlar biznesin xüsusiyyətlərini dəyişdirən kimi, sosial sahibkarlar cəmiyyətin dəyişiklik mənbəyi qismində çıxış edir, sistemləri təkmilləşdirmək, yeni yanaşmaları müəyyənləşdirmək və cəmiyyəti yaxşılığa doğru dəyişmək üçün həll yollarını axtarırlar. Sahibkar tamamilə yeni sənaye sahələri yaradarkən, sosial sahibkar isə sosial problemlərə yeni həllər axtarır və sonra isə onları böyük həcmdə tətbiq edir.

Sosial aspekti təkmilləşdirməyə köməklik edən şirkətlər mütləq dərəcədə maliyyə qazancının əldə edilməsi imkanına istiqamətlənməməlidirlər. Onlar sosial rifahı maksimum dərəcədə artırmaq üçün çalışırlar.

Sosial biznes fəaliyyətinin məqsədi iqtisadi piramidanın ən aşağı hissəsində olan yaşam səviyyəsi ilə əlaqə yaratmaq və onların yaşayış səviyyəsini yaxşılaşdırmaqdır. Biznes-strategiya və sosial biznes gəlirlərinin istifadəsi bu məqsədin əldə edilməsinə həsr edilmişdir.







Bütün dünyada sosial sahibkarlar artıq iqtisadi bərabərsizliyin azalması üzərində işləyirlər. Bir çox sosial şirkətlər iş tapa bilməyən insanları işə götürmək üçün məhsullar və ya xidmətlər hazırlayırlar. Buna misal olaraq, əvvəllər cinayətkar olmuş şəxslərin çalışdığı biznesin dəstəklənməsi üzrə şirkətləri, əlillərin istifadə etdiyi proqram təminatı hazırlayan şirkətləri və s. göstərmək olar.

Sosial müəssisələr həmçinin qadınların keyfiyyətli fəaliyyətini təmin edə bilər. Banqladeşdə 2004-cü ildə əsası qoyulan Hathay Bunano şirkəti təxminən 8 000 qadını işə götürmüşdür, onların əməkhaqqısı, Banqladeş tikiş fabriklərində olan orta əməkhaqqı ilə müqayisədə ikiqat çoxdur. Hathay Bunano qeydiyyata alınan qeyri-kommersiya şirkəti kimi, hal-hazırda Böyük Britaniya və Avstraliya daxil olmaqla, 37 ölkəyə ixrac edən, Pebble adlı distributor şirkətini təsis etmişdir.

Sosial biznes modeli gəlirlərin maksimumlaşdırılmasına cəhd etmir, lakin insanların bir çox ehtiyaclarına yönəldilir.

Grameen Bankın qurucusu, eyni zamanda mikrokredit və mikromaliyyə konsepsiyalarının novatoru professor Muhammad Yunus artıq bu yeni növ olan biznes fəaliyyətinin effektivliyini göstərmişdi: onun iqtisadi davamlılıq şəraitində ciddi çatışmazlığın aradan qaldırılmasına fokuslanmış fikri sayəsində inanılmaz artım potensialının yer aldığı bir neçə modellər yaradılmışdır. M.Yunus qlobal iqtisadiyyatda mövcud olan problemlərin həllinə alternativ yanaşma metodunu təqdim etmişdir.

Azərbaycanda kiçik və orta müəssisələr üçün güclü bir bazar imkanları mövcuddur və bu sistemi dayanıqlı inkişaf konsepsiyasına uyğunlaşdırmaq vacib şərtlərdən biridir. Dünya miqyasında yeni iş yerlərinin 90 faizinin kiçik və orta müəssisələr tərəfindən açılması faktı məhz bu seqmentin inkişaf proseslərində nə dərəcədə zəruri olduğunun bariz nümunəsidir. Sosial sahibkarlığın ölkədə inkşaf etdirilməsi cəmiyyətin yoxsul təbəqələrinin maddi durumunun yaxşılaşdırılmasına, məşğulluq problemlərinin aradan qaldırılmasına, əhalinin gəlirlərinin artırılmasına, işsizliyin azaldılmasına səbəb olur ki, bu da öz növbəsində istehlak səviyyəsinin artmasına, ümumilikdə biznesin inkişafına təkan verir.

Məşğulluğun artımı ilə milli gəlir artır, deməli, istehsalın həcmi də yüksəlir. Əhali gəlirlərinin artımı ilə tələb artır və istehlaka yönəldilən xərclər də yüksəlir. Biznesin mənfəətliliyinin artırılması isə sahibkarlar tərəfindən investisiya qoyuluşuna marağı artırır ki, bu da dayanıqlı iqtisadiyyatın inkişafında əsas faktorlardandır.

Bu nöqteyi-nəzərdən də özəl sektorun dayanıqlı və inklüziv inkişaf məqsədlərində iştirakının təmin edilməsi üçün dövlət tərəfindən sosial sahibkarlığın dəstəklənməsi, bu biznesin təşviqi, təbliği, maarifləndirilməsi, əhəmiyyəti, uğurları ilə bağlı zəruri təlimlərin aparılması eyni zamanda sahibkarlara xüsusi olaraq imtiyazların verilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin inkişaf etdirilməsi, hüquqi normativ bazanın təkmilləşdirilməsi prosesi genişləndirilməlidir. Avropa ölkələrində olduğu kimi, sosial sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi istiqamətində aktiv şəkildə tanıtım, dəstək və yardım fəaliyyətləri dövlət tərəfindən göstərilə bilər.

Bu gün dayanıqlı inkişaf tədricən biznesin ən aktual probleminə çevrilməkdədir. Ona görə də potensial imkanları əldən buraxmamaq üçün biznesə dayanıqlı inkişaf prinsiplərinin tətbiq edilmə imkanlarının daha geniş və diqqətli qiymətləndirilməsini təmin etməklə bu prosesi inkişaf etdirmək qaçılmazdır.

2017-ci ildə həyata keçirilən və dayanıqlı inkişafı təmin edən modern iqtisadi tədbirlər sistemi elmi cəhətdən əsaslandırılmış nəticələrə söykənərək sosial-iqtisadi uğurların təmin olunmasına şərait yaratdı və bu nailiyyətlər beynəlxalq iqtisadi, maliyyə təşkilatları tərəfindən də yüksək qiymətləndirildi. Həyata keçirilən genişmiqyaslı təşviqedici, sosial və institusional islahatlar isə Strateji Yol Xəritəsində nəzərdə tutulan bir sıra prioritet hədəflərin, məqsədlərin reallaşdırılmasında xüsusi rola malikdir.

# TƏLƏBƏLƏR VƏ SOSİAL BİZNES STARTAPLARI





Mircavid Həsənov

Sahibkarlıq subyektlərinin iqtisadi fəallığı hesabına vergilər vasitəsilə büdcə yükünün təmin edilməsi, işsizlik probleminin həlli, gənclərin, o cümlədən universitet tələbələrinin iş həyatına atılmasında "Sosial biznes" konsepsiyası olduqca cəlbedicidir. İqtisadiyyat üzrə Nobel mükafatçısı Muhammad Yunusun müəllifi olduğu bu ideya ayrı-ayrı ölkələrdə yoxsulluq probleminin həllində uğurlu nəticələr göstərməklə iş həyatına atılmaq istəyən gənclər üçün yeni stimul kimi xarakterizə oluna bilər. Əgər ölkəmizdə tələbə gənclərə, sahibkarlıq fəaliyyətində irəliləmək istəyən iş adamlarına biznes inkubatorlar, sənaye parkları, İnformasiya Texnologiyalarının İnkişafı (İKT) Fondu, Sahibkarlığa Kömək Milli Fondu və digər maliyyə təşkilatları vasitəsilə müsabiqə şəraitində dəstək göstərilirsə, "Sosial biznes" konsepsiyasını fərqləndirən amilin hər kəsə açıq olması, olduqca kiçik faizlər hesabına borc vəsaitinin verilməsidir. Ona görə də M.Yunusun bu ideyasının dərindən öyrənilməsi zəruri əhəmiyyət daşıyır. Bu iqtisadi modelin əsas tətbiq məkanı sayılan Banqladeşdə sosial biznesin inkişafını təmin edən faktorlar dəqiq öyrənilməlidir. Çünki bu ideya müharibədən yenicə çıxmış, bitib-tükənməyən problemlərlə üz-üzə dayanmış bir Asiya ölkəsində həyata vəsiqə qazanıb. 1971-ci ildə Banqladeş müstəqillik mübarizəsində qalib gəlməsinə baxmayaraq, verdiyi böyük itkilərdən, yaranmış humanitar fəlakətdən əziyyət çəkirdi: 3 milyon nəfər banqladeşli öldürülmüş, 10 milyon insan isə qonşu Hindistana sığınmışdı. Müharibənin ölkəni viran qoyduğu bir məqamda ABŞ-da özünün parlaq bir karyerasını yarımçıq qoyub öz doğma ölkəsinə qayıdan M.Yunus ölkənin quruculuğunda iştirak etməyə qərar verir. Bu qayıdışı özünə borc bilən gələcək "Nobel"çi sosial biznes ideyasının praktik icraçısına çevrilərək ölkəsini yoxsulluq



girdabından çıxarmaq missiyası üzərində gecə-gündüz işləyir. Cəmi 42 aztəminatlı ailə başçısına 27 dollar kredit verməklə işə başlayan M.Yunus sonradan daha böyük miqdarda krediti cəmiyyətin xidmət vasitəsinə çevirə bilir. 1976-cı ildə 1050 dollarla kredit portfeli olan M.Yunus sonradan rəhbəri olduğu Grameen Bankının 1998-ci ildə 2,4 milyard dollarlıq vəsaitini 2,33 milyon borcalana paylamağı bacarmışdı. Məhz sosial biznesin inkişafı nəticəsində 120 milyon əhalisi olan Banqladeşdə yoxsulluğun səviyyəsi əhəmiyyətli surətdə aşağı düşüb. Kütləvi intihar, aclıqdan-səfalətdən ölən və sabaha inamlarını itirən insanları Grameen Bankı xilas etməkdə tarixi uğura imza atıb. Məhz uzunmüddətli təsirli tədbirlər hesabına Grameen Bankı "keçmiş yoxsulların bankı" adı ilə tanınmağa başlayıb. Belə bir bankın hesabına qazanılan sosial etimad bankçılığın istismarçı mahiyyətinə yenidən baxılmasına səbəb olub. Məhz sosial biznes ideyası indiyə qədər iqtisadiyyatı nüfuzdan salan kreditləşməyə yeni məzmun verib və ona inam yaradıb. Kreditin yalnız kreditorun maraq və mənafeyinin məhək daşı olmadığı ictimaiyyətə məlum olub. Kreditin məzmununda istismarçılıq olmayanda o hər iki tərəfin ortaq maraqlarının aparıcı hissəsinə və uzlaşma nöqtəsinə çevrilir. Elə simvolik həddə kredit faizləri nəzərdə tutulur ki, normal sahibkar gəlirlərinin cüzi bir hissəsini kreditora ödəməklə asanlıqla fəaliyyətini genişləndirə bilir. Digər tərəfdən isə bizneslə məşğul olmaq yalnız biznes elitasının fəaliyyəti ilə məhdudlaşmamalıdır. Bu sfera azacıq biznes təşəbbüsü olan hər bir insana açıq olmalıdır. Onların gəlir əldə etmək təşəbbüsü və bacarığına aşağı faizli kreditlərlə dəstək göstərilməlidir. Bu mənada sosial biznes ideyası hər bir insanın potensial sahibkar olmaq qabiliyyətini nəzərə alır. Həmin potensialı hərəkətə gətirmək üçün daha çevik qərarlar qəbul etmək və təlim görmüş şəxslərin biznes-planlar hazırlanmasına yardım etməkdən başlamış, çoxistiqamətli təşviq imkanları nəzərə alınır. Bununla bağlı M.Yunus özünün "Kasıbların bankiri" əsərində yazır: "Mən inanıram ki, bütün insanlar potensial sahibkarlardır. Bizim bəzilərimiz bu istedadını nümayiş etdirmək imkanını əldə edir, başqaları isə heç vaxt belə bir imkan qazanmır. Bunun səbəbi bizdə olan təsəvvürlərdir ki, guya sahibkarlar bizdən fərqli, olduqca əlahiddə insanlardır". Bu o deməkdir ki, hər kəs özündə güc, iradə taparaq, qol qoyduğu işi uğurla həyata keçirərək gələcəyini təmin etmək iqtidarındadır. Yəni, hər kəsin işıqlı gələcəyi öz əlindədir. "Sosial biznes" konsepsiyası isə sahibkarlıq fəaliyyətində irəliləmək istəyən, uğurlu başlanğıclara imza atmaq istəyən insanlar üçün ilk addımdır. Çünki bu ideya sahibkarları iri məbləğli maliyyə resursları ilə təmin etmir, pulu olmayan ailəsi üçün çörəkpulu qazanan hər bir təşəbbüskar insana dəstək olmağı qarşısına hədəf qoyur. Mikrokreditlər ailələrdə mühərriki hərəkətə gətirir və ona xidmət üçün çalışan insanların sayını artırır. Bu mənada "Sosial biznes" ideyasının bir mühərrik olaraq çalışmasında müxtəlif sosial qruplar, o cümlədən universitet tələbələri nəzərə alınır. Azərbaycan reallığında sahibkarlıq fəaliyyətinə başlamaq istəyən hər bir insan, xüsusilə startaplar vasitəsilə iş həyatına atılan gənclər, universitet tələbələri üçün bu model yeni imkan və fürsətlər yaradır. Məsələn, İKT Fondu vasitəsilə öz bisnes ideyasını reallaşdıra bilən gənclər "Sosial biznes" modeli vasitəsilə də kiçik və orta sahibkarlıq (KOS) subyektinə çevrilə, uğurlu karyera başlanğıcına imza ata bilərlər.

Təbii ki, ilk növbədə "Sosial biznes" ideyasının reallaşdırılması üçün dünya təcrübəsinə uyğun işlək mexanizmlər tətbiq olunmalı, banklar, bank olmayan kredit təşkilatları vasitəsilə mikrokreditlərin verilməsi prosesinə başlanılmalıdır.



**Biznes** ona azacıq təşəbbüsü olan hər bir insana açıq olmalıdır

# SOSİAL BİZNESƏ DƏSTƏK

dos. Niyazi Həsənov

Nəzərə alaq ki, sosial biznes sahibkarlığın ümumi nəzəriyyəsinə əsaslanır və onun əsas prinsiplərini özündə əks etdirir. Biznes haqqında fikirlərin təkamülü müxtəlif və ziddiyyətlidir. Bu konsepsiyanın tədqiqatçıları və təsisçiləri Thomas Hobbes, Richard Cantillon, Adam Smith, Jean Baptiste Sei və başqaları olmuşlar. İngilis filosofu Tomas Hobbes öz əsərlərində biznesi sosial işə cəlb edən əmək kimi qiymətləndirirdi. Richard Cantillon ilk növbədə riskli bir şəxsə müəyyən bir qiymətə hansısa əmtəə və ya xidmətlərin satılması və naməlum formada onun satılmasını nəzərdə tutan "sahibkar" tərəfindən bunun elmi əsaslarla həyata keçirilməsinin mümkünlüyünü bəyan etdi. Adam Smith azad rəqabət şəraitində sahibkarların əsas rəqiblər olduğu məsələsinə diqqət çəkərək, rəqabət mühitində qiymətlərin azaldılmasına, aşağı qiymətlərə və qabaqcıl texnologiyaların tətbiqinə gətirib çıxardığını elmi şəkildə əsaslandırmışdır. Biznesin ən çox yayılan əsas nəzəriyyəsi, sahibkarlıq fəaliyyətinin iqtisadi əsaslandırmasını və bir sahibkarın psixoloji portretini əks etdirmək cəhdi ilə birləşdirən I. Schumpeter konsepsiyasıdır. Alim iqtisadiyyatdan doğan struktur dəyişikliklərin dövrünün bir prosesi olduğunu düşünür və iqtisadi inkişaf mühərrikinin sahibkarın yenilikçi fəaliyyəti olduğunu əsaslandırır. I. Schumpeterin "İqtisadi İnkişaf nəzəriyyəsi" adlı kitabında biznes sistemində əsas rol oynayan bir innovator kimi qəbul edilir. Onun funksiyası iqtisadi inkişafı təmin etmək üçün kapitalın iqtisadi inkişafında mühüm rol oynayan yeniliklərin tətbiqi hesab edilir.

Sosial biznes sosial məqsədlər üçün əməliyyatları aparır və onlar innovasiya, sahibkarlıq və sosial məqsədləri birləşdirir və gəlirlə maliyyə sabitliyinə nail olmaq üçün çalışır. Onların missiyasının məqsədi maliyyə mənfəətindən sosial inkişafı əldə etmək üçün bu istiqamətə daha çox sərmayə qoyurlar. Sosial biznes ilk növbədə özünü ödəmə və davamlılıq baxımından cəmiyyətin sosial problemlərini həll etmək və ya aradan qaldırmaq məqsədi ilə yenilikçi bir fəaliyyətdir. Bu, ənənəvi biznes fəaliyyəti və xeyriyyəçiliyin birgə sintezidir. Burada əsas məqsəd cəmiyyətdə sosial gərginliyi azaltmaq və bu istiqamətdə mövcud olan problemləri həll etməkdir. Burada başlıca fikir sosial fəaliyyətin yenilikləri, səmərəliliyi, özünü təmin etmə və maliyyə sabitliyi ilə təzahür etməsi əsas götürülür. Sosial səmərəliliyə nail olmaq məhz, sosial biznesin uğurlu fəaliyyətini təşkil etməkdir.

## Əsas hədəflər:

- 01. İşsizliyin azaldılması
- 02. Antiböhran tədbirləri
- 03. Sabit iqtisadi vəziyyət

1980-ci illərdən başlayaraq sosial biznesin əsas mənası Ashoka və Charles Leadbeater-in şirkətinin təsisçisi olan tədqiqatçı Bill Draytonın səyləri sayəsində geniş yayılmağa başladı. 1990-cı illərin sonlarında, Duke Universitetinin Sosial Sahibkarlığa İnkişaf Mərkəzinin direktoru Gregori Diz sosial biznesi iş üçün peşə və sahə kimi təqdim etdi. 1950–1990-cı illərdə Michael Young sosial biznesin inkişafına öz əvəzolunmaz töhfələrini verdi. Harvard Universitetinin professoru Daniel Bell İngiltərədəki bir sıra sosial təşəbbüskarlıq məktəbləri daxil olmaqla dünyada 60-dan çox təşkilatın yaradılmasına gətirib çıxardı. Yanqın "dünyada sosial təşəbbüslər üzrə ən müvəffəqiyyətli biznesmen" adına layiq görüldü. İngiltərədə yaşayan sosial bizneslə məşğul olan Andrew Moson "Sosial Sahibkar" kitabının tərcüməsinin yayılması ilə məşğul olan "Andrew Moson və Partners" şirkətinin meneceri vəzifəsində çalışırdı.




Dünyada sosial biznesin öyrənilməsi üçün ən mütərəqqi yanaşmadan istifadə edilir və ən mütərəqqi kompleks yanaşmadan istifadə müasir dövrdə məqsədəuyğun hesab edilir. Ekspertlər iddia edirlər ki, inteqrativ yanaşmanın yüksək səmərəliliyini yalnız tədqiqat fəaliyyətlərində deyil, həm də praktiki sahədə şirkətin strateji inkişafında əsas kimi götürməklə, idarəetmədə inteqrativ modeli tətbiq etməklə inkişafı daha da sürətləndirmək mümkündür. Sosial biznes hal-hazırda dünyanın bir çox ölkələrində, o cümlədən Amerika, Böyük Britaniya, İspaniya, Hindistan, Polşada sürətlə inkişaf edir. Ən müvəffəqiyyətli sosial biznes Böyük Britaniya, Almaniya və Hollandiyada həyata keçirilir. Bu ölkələrdə istehsalatda innovativ metodlardan istifadə edən sahibkarlıq fəaliyyəti xidmətlərin və sosial əhəmiyyətli malların tətbiqinə xüsusi güzəştlər tətbiq edirlər. Mərkəzi və şəhər hökumətinin nümayəndələri ilə yanaşı, şəhər sisteminin inkişafı ilə bağlı ən vacib məsələləri müzakirə etməkdə onların fəal iştirakı və bu prosesdə bələdiyyə idarələri ilə sıx əməkdaşlıq nümayiş etdirilir.

Sosial biznes mühüm sosial-iqtisadi və iqtisadi mühitin zənginliyinin mənbəyi hesab edilir və dünyanın

bir çox alimləri bu sahəni araşdırırlar. Xarici alimlər sosial biznesin inkişafını, mahiyyətini və konsepsiyasını təhlil edir və sosial yönümlü şirkətlərin xüsusiyyətlərini müəyyənləşdirir və sosial biznesin növlərinin təsnifatının inkişaf etdirilməsi üçün öz təkliflərini verirlər. Elmi ədəbiyyatda sosial biznesin mahiyyətini və problemlərini öyrənməsi üçün birtərəfli yanaşma müəyyən etmək mümkün deyil. Sosial biznesin konseptual əsasları ilə bağlı nəzəri müzakirələr, onun anlayışlarının təsvirində fərqliliyin mahiyyətinin öyrənilməsi və bu istiqamətdə inkişafa təsir göstərən amillərin müəyyənləşdirilməsi mühüm elmi əhəmiyyətə malikdir. Nəzəri emprik tədqiqat metodlarından istifadə etməklə sosial biznesin hərtərəfli öyrənilməsi sosial şirkətlərin özəl xüsusiyyətlərinin öyrənilməsinə aid məsələlərin nəzərdən keçirilməsini tələb edir.

Beynəlxalq təcrübədə sosial biznes kilsələri ilə birlikdə, peşə otaqları olan Amerika Birləşmiş Ştatları ictimai fəaliyyətində həyata keçirilən qarşılıqlı yardım və xeyriyyə təşkilatları müxtəlif icmaların yaradılmasına gətirib çıxarmışdır. XVIII əsrdə bu məsələ məlum olsa da, sosial biznesin müasir inkişafı XX əsrin 60-cı illərindən daha sürətlə inkişaf etməyə başlamışdır. “Ashoka: cəmiyyət üçün yenilikçi” Vaşinqton Amerikada William (Bill) Drayton Fondunun təsisçisini sosial biznesin atası adlandırırlar.




Beynəlxalq təcrübədə sosial biznes anlayışının mahiyyəti ondan ibarətdir ki, bu anlayışın fərqləndirici cəhəti müəyyən sosial müəssisələrin inkişafına təsir etmişdir. Sosial biznes amilləri əsasında təhsilə yönəlmiş əsas xüsusiyyətləri və sosial sahibkarlıqla bağlı aktual tədqiqat xüsusiyyətlərinin işıqlandırılmaqla əsas anlayışların öyrənilməsinin nəzəri müzakirələridir.

Sosial biznesin inkişaf tarixi Azərbaycanda XIX əsrdə başlayır və bu sahə bir idarəetmə strategiyası kimi maksimum sosial məsələlərin həllinə yönəldilir. Dünyada sosial biznes XX əsrin sonlarında daha sürətlə inkişaf etməyə başlamış və işsizliyin azaldılmasına, yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, cəmiyyətdə sosial təzyiqlərin azaldılmasına imkan verən innovativ üsullar və texnologiyalara əsaslanmışdır. Müasir dövrdə sosial təşəbbüskarlığa dair fikirlərin, təşəbbüslərin və müxtəlif proqramların konsolidasiyasını maksimum dərəcədə artırmaq istəyi ölkədə sosial biznesin artmasına səbəb ola bilən amillərə daha diqqətli yanaşmanı tələb edir.

Azərbaycan Respublikasında istehsalın inkişafının iqtisadi göstəricilərinin artması və sosial gərginliyin aradan qaldırılması gələcək illər üçün prioritet bir məsələdir. Bu, bir kompleks proqramın qərarı olmaqla aşağıdakılardan ibarət olmalıdır:

1. İş yerlərinin dahada artırılması üçün strateji yanaşmasının olması;

2. Yarana biləcək hər hansı böhranın aradan qaldırılması




üçün yenilikçi üsulların tətbiqi həyata keçirilməlidir;

3. Yarana biləcək mənfi sosial prosesləri düzəltmək və ölkədəki iqtisadi vəziyyətin sabitliyinin davamlılığının təmini üçün əvvəlki nəsillərin təcrübəsinin istifadəsi və daima təkmilləşdirilməsi lazımdır.

Dünya təcrübəsi göstərir ki, son 30-40 il ərzində bu mürəkkəb məsələni həll etmək üçün uğurlu və səmərəli vasitələrdən biri sosi-al biznes institutunun inkişaf etdirilməsidir və bu istiqamətdə artıq nəzəri və praktiki biliklərin mövcud olması işin xeyrinədir.



# 4.0 SƏNAY VƏ SOSİA

## ARAŞDIRMALAR

2017–2022-ci illərdə dünya çapında internetlə bağlı sistemlərin 15% artacaq sensor texnologiyasının inkişafı nəticəsində ağıllı (smart) infrastrukturun genişlənərək şəhərlərin, pərakəndə sektorunda ağıllı evlərin, ictimai və nəqliyyat sektorunda, səhiyyə, təhlükəsizlik və kənd təsərrüfatından tutmuş bir sıra sektorlara tətbiqinin genişlənəcəyini söyləməyə əsas verir.

4.0 sənaye inqilabı iqtisadiyyatda və biznes həyatında bir sıra dəyişikliyə gətirib çıxaracaqdır. Bu dəyişikliklərin bir çox müsbət cəhətləri mövcüddür. Bunlar arasında sahibkarlığın sürətlə inkişafı, kiçik və orta biznes sahələrinin genişlənməsi, araşdırma və inkişaf (R&D) sahələrinin dərinləşməsi, "home office" saylarının artması, qadınların iş həyatında rolunun artması, innovasiya sahəsində çalışanların sayının artması və digər aspektləri qeyd etmək olar. 4.0-cu sənaye inqilabı nəticəsində sahibkarlıq fəaliyyətinin genişlənməsi və yeni bizneslər üçün şərait yaranması ilə yanaşı, bir sıra sektorda avtomatlaşdırma və yeni texnologiyaların tətbiqində dolayı insan əməyinin maşınlarla əvəzlənmə prosesi gedəcəkdir. Belə ki, bəzi araşdırmalara görə, gələcəkdə təxminən insan əməyinin 47%-i maşınlarla əvəz olunacaqdır. Bunun nəticəsində inkişaf etmiş ölkələrdə işlərini itirənlər yeni bilik və bacarıqlar əldə etməklə əmək bazarında özlərinə müvafiq işlər tapacaqlar. Lakin inkişaf etməkdə olan ölkələrdə bu prosesin nə qədər uğurlu olacağı ən çox müzakirə olunan məsələlərdən biri kimi qalmaqdadır. Belə ki, araşdırmalar göstərir ki, inkişaf etməkdə olan və kasıb ölkələrdə olan işçilərin yeni bilik və bacarıqların əldə etməsi və bir sektordan digər sektora keçmə prosesi inkişaf etməkdə olan ölkələrdən daha uzun zaman alır. Kasıb ölkələrdə, hətta bəzi hallarda bir sektorda işini itirən insanların digər sektorda iş tapma imkanı demək olar ki, qeyrimümkün sayılır. Bu baxımdan, 4.0 sənaye inqilabı nəticəsində bəşəriyyətin üzləşə biləcəyi ən böyük problemlərdən biri texnologiyanın tətbiqi nəticəsində işini itirən insanların yeni is yerləri tapması və onların həyat standartlarının yoxsulluq səviyyəsinə enməsinin qarşısının alınmasından ibarətdir.

4.0 sənaye inqilabının nəticəsində yarana biləcək cəmiyyətin müəyyən bir qrupu arasında işsizlik və yoxsulluğun əngəllənməsi və azaldılması yollarından biri də sosial biznes konseptinin daha da dəstəklənməsi, və inkişaf etdirilməsi hesab ola bilər. Çünki bugünədək sosial biznes cəmiyyətin yoxsul təbəqəsinin işlə təmin olunmasında onların sosial rifahının yaxşılaşdırılmasında özünü doğrultmuş bir konseptdir.

Sosial biznesi digər bizneslərdən fərqləndirən əsas əlamət onun cəmiyyətin hər hansı bir sosial probleminin həllinə yönəlməsi və qoyulan investisiyanın geri götürülməsi , həmçinin şəxsi investorun cüzi miqdarda mənfəətin əldə olunmasından başqa özəl marağının olmamasıdır. Sosial biznesə investiya qoyan şirkət kasıblar üçün səhiyyə, insanların təmiz su ehtiyacının ödənilməsi, yenilənə bilən enerji təminati və digər bu kimi sosial məsələlərin həllinə yönəlmiş investisiya yatıra bilər. Deyildiyi kimi, qoyduğu investisiyanı əldə etməklə yanaşı, o, cüzi mənfəət də əldə edir. Sosail biznesin uğuru əldə olunacaq gəlirin səviyyəsi ilə deyil onun cəmiyyətə və ətraf mühitə olan təsiri ilə müəyyən olunur. Sosial biznesi xeyriyyəçilikdən fərqləndirən cəhət qoyulan pulun investora və ya şirkətə geri dönmə faktıdır. Sosial biznes konseptini yaradan Muhammad Yunus sosial biznesin iki növünü qeyd edir. Bunlardan biri sırf sosial problemin həllinə yönələn biznes fəaliyyətinin qurulması, ikincisi isə əhalinin yoxsul və aztəminatlı kəsiminə uğurlu biznes qurulmasında köməklik

# E İNQİLABI
# AL BİZNES

Turan Süleymanov

**BU MÜDDƏT ƏRZİNDƏ** internetə bağlı cihazların sayının 30 milyarda çatacağı və bunun da dünya iqtisadiyyatına 3-6 trilyon dollar əlavə dəyər verəcəyi proqnozlaşdırılır. İlk dönəmlərdə sadəcə kommunikasiya vasitəsi olan internet, onun istifadə və nüfuz etdiyi sahələrin genişlənməsi ilə artıq istehsaldan tutmuş istehlaka qədər və eyni zamanda müştəri məmnuniyyətinə qədər olan bütün mərhələlərdə həyatımızın ən önəmli ünsürlərindən birinə çevrilmişdir.

göstərilməsi və bu biznesin nəticəsində investorun da birbaşa və ya dolayı yolla gəlir əldə etmə imkanın saxlanmasından ibarətdir. Hər iki halda cəmiyyətdə əhalinin aztəminatlı və yoxsul kəsimi sosial imkanlar əldə etməklə yanaşı, investorlar da qoyduğu investisiyalarını da geri əldə etmək imkanı əldə edirlər.

4.0 sənaye inqilabının yarada biləcəyi işsizlik probleminin həll olunmasında yoxsul əhalinin yoxsulluq səviyyəsindən çıxarılmasında və dünya əhalisinin sosial problemlərinin həll olunmasında sosial biznes konsepti əvəzsiz rol oynaya bilər. Dünyanın böyük şirkətləri əldə etdiyi mənəətin bir qismini sosial məsuliyyət baxımından xeyriyyə və digər fəaliyyət növlərinə xərcləməkdədir. Hətta bir sıra dünya nəhəngi insanların aztəminatlı qisminin maarifləndirilməsi, təhsilə yiyələnməsi və sosial problemlərinin həlli istiqamətində xərclərin ödənməsi üçün öz gəlirlərinin bir qismini ayırırlar.

4.0-cu inqilabı ilə yüksək texnologiyaların tətbiqi nəticəsində daha çox mənfəət əldə edən şirkətlər əldə etdiyi mənfəətlərinin bir hissəsinin yeni xidmət və məhsul tələblərinin xərclərinin ödənilməsinə, həmçinin əhalinin azgəlirli və yoxsul qismi tərəfindən irəli sürülən biznes ideyalarının təsdiqlənməsinə yönəldərək cəmiyyətimizdə yarana bilən işsizlik, yoxsulluq və digər sosial problemlərin həllinə də kömək göstərə bilərlər. Bünün nəticəsində də bütün bəşəriyyət qazanacaqdır.

Eyni zamanda qeyd etmək istərdim ki, 4.0 sənaye inqilabının iqtisadi və sosial həyata gətirəcəyi ən böyük dəyişikliklərdən biri də bu gün böyük investisiyalar tələb edən və əsasən də böyük şirkətlər tərəfindən istehsal və ya təklif olunan əmtəə və xidmətlərin ən son texnoloji yeniliklərin tətbiqi nəticəsində kiçik və orta səviyyəli sahibkarların həyata keçirmələrinə imkan verəcək. Bu da bu gün yalnız böyük şirkətlər tərəfindən istehsalı mümkün olan bir çox əmtəələrin 4.0 sənaye inqilabı nəticəsində kiçik və orta müəssisələr tərəfindən istehsalına imkan vecəkdir. Eyni zamanda internet və kommunikasiya texnologiyaların inkişafı nəticəsində dövlət və qeyri-dövlət sektorunda bir sıra yeni xidmət sahələri yaranacaq və bu, əksər hallarda kiçik və böyük sahibkarlıq müəssisələri tərəfindən həyata keçirilə biləcəkdir. Qərb dünyasında sosial biznesin inkişaf tempinə baxdığımız zaman məlum olur ki, texnoloji yeniliklər nəticəsində dövlət və qeyridövlət sektorunda fəaliyyət göstərən sosial bizneslə məşğul olan sahibkarlıq fəaliyyəti artmaqdadır. Beləliklə, sosial biznes üçün yeni imkanlar və yeni sahələrin yaranacağını qeyd etmək xüsusi lazımdır.

4.0 sənaye inqilabında sosial bərabərliyin qorunması üçün dövlətlərin və böyük transmilli şirkətlərin üzərinə çox önəmli vəzifə düşür. Dövlət 4.0 sənaye inqilabı nəticəsində yaranan biləcək çətinliklərin aradan qaldırılması üçün sahibkarlıq ekosistemini daha da genişləndirməli, yeni sənaye və biznes sektorlarında kiçik və orta sahibkarlığın fəaliyyət göstərməsi üçün münbit şərait yaratmalıdır. Böyük transmilli şirkətlər isə üzərlərinə düşən sosial məsuliyyət və biznes etikasının tərkib hissəsi kimi gəlirlərinin bir qismini müxtəlif ölkələrdə gəlir bərabərsizliyinin aradan qaldırılması və ətraf mühitin qorunması məqsədi ilə sosial biznesə yönəltməlidirlər.

# SOSİAL BİZNES: REALLIQ, yoxsa MİF

dos. Fariz Əhmədov



## İLK NÜMUNƏ

İlk sosial biznes nümunələri Banqladeşdə Prof. Məhəmməd Yunus tərəfindən yaradılan Grameen şirkəti ilə dünyada məşhur beynəlmiləl şirkətlərlə ortaq şəkildə təsis edilmiş müəssisələrdir.

## SOSİAL BİZNESİN MAHİYYƏTİ

Nobel Sülh Mükafatı laureatı, professor Məhəmməd Yunusun sosial biznes konsepsiyası müasir dövrdə çox aktualdır. Bu konsepsiyanın əsasında yoxsulluq olmayan dünya qurmaq dayanır. Sosial biznes bəşəriyyətin məcburi tələbatını qarşılayan bir iş modelidir. Sosial biznes, kommersiya biznesləri kimi bir çox istiqamətdə fəaliyyət göstərir, lakin bu işin əsas məqsədi sosial təsir olduğundan bütün gəlir yenidən biznesə inteqrasiya etməlidir və ya yeni ictimai işin təşkili üçün istifadə olunmalıdır. Yəni, enerji mənfəətə yox, insan ehtiyaclarının qarşılanmasına sərf edilir və sosial biznes qazanılan mənfəətlə inkişaf etdirilir. Burada investor yalnız başlanğıc kapitalını götürə bilər, uğur isə mənfəətlə deyil, yaradılan fayda ilə ölçülür. Sosial biznesdə idarəetmə ənənəvidir və əməkhaqqıları bazara görə ödənilir.

Prof. Məhəmməd Yunus və Grameen Creative Lab qurucularından biri olan Hans Reitz tərəfindən sosial biznesin yeddi prinsipi hazırlanmışdır. Həmin prinsiplər aşağıdakılardan ibarətdir:

1. Hədəfi mənfəətin maksimumlaşdırılması deyil, cəmiyyəti və onun fərdlərini təhdid edən problemlərin həlli (yoxsulluq, təhsil, səhiyyə, texnologiyaların əlçatan olması və ətraf mühitin çirklənməsinin qarşısının alınması kimi) bir və ya bir neçə işin öhdəsindən gəlməkdir.
2. Maliyyə və iqtisadi baxımdan davamlılıq.
3. İnvestorlar sadəcə investisiya olaraq qoyduqları kapital məbləğini geri alırlar. İnvestisiya olaraq qoyulan puldan başqa bir mənfəət verilmir.
4. İnvestisiya miqdarı geriyə qaytarıldıqdan sonra əldə qalan mənfəət şirkətin fəaliyyətlərinin genişləndirilməsinə və inkişafına sərf olunur.
5. Ətraf mühitə qarşı həssasdır.
6. İşçiləri daha yaxşı iş şəraitində çalışır və müvafiq sektordakı orta əməkhaqqından daha çox əməkhaqqı alırlar.
7. ...bütün bu işlər həvəslə, zövq alınaraq görülür.

Sadalanan yeddi prinsip sosial biznesin əsasını təşkil edir. Sosial biznesə kənd təsərrüfatı, heyvandarlıq, balıqçılıq, bərpa

Sosial biznesin dünya təcrübəsi

### GRAMEEN DANONE

2005-ci ildə qurulan GD şirkəti ilk sosial biznes nümunəsidir. GD, banqladeşli uşaqlar arasında zəif qidalanma səviyyəsinin azaldılması məqsədilə Fransanın Danone və Grameen şirkətləri arasında birgə müəssisə olaraq yaradılıb. GD tərəfindən uşaqlar üçün istehsal edilən qatıq dadlı olmaqla yanaşı, tərkibində uşaqların normal qidalanması üçün çatışmayan dəmir, sink, yod və s. kimi zəruri maddələrlə zəngindir və əhalinin yoxsul təbəqəsinin istehlak edə biləcəyi münasib qiymətə satılır.

### GRAMEEN ADIDAS

Adidas və Grameen şirkətləri arasında birgə yaradılmış müəssisənin hədəfi ən aşağı gəlirli insanlar üçün münasib qiymətli ayaqqabı istehsal etməkdir. Grameen Adidas'ın əsas məqsədi kənd yerlərində, xüsusən də uşaqlarda gəzməklə yayılan parazit xəstəliklərdən əziyyət çəkməyin qarşısını almaq üçün uşaq və ya yetkin olmasından asılı olmayaraq, heç kimin ayaqqabısız qalmamasından əmin olmaqdır.

olunan enerji, informasiya texnologiyaları, təhsil, səhiyyə, əl istehsalı – toxuculuq, məşğulluq xidmətləri və s. aid ola bilər.

## Sosial biznesin növləri:

1. Yoxsullar üçün əmtəə və xidmət istehsal edənlər – zərər çəkməyən, dividend paylamayan, sosial problemin həllinə həsr olunmuş və bütün mənfəətlərini işin daha da genişləndirilməsi və təkmilləşdirilməsi üçün sərmayə qoyan investorların mülkiyyətində olan biznes növüdür.

2. Yoxsullarla əmtəə və xidmət istehsal edənlər – məhsullar yoxsullar tərəfindən istehsal olunur və beynəlxalq bazarlara ixrac edilir, işçilər (yoxsullar) qazandıqları mənfəətdən faydalanırlar.

## Sosial Biznesdə İstifadə Olunan Əsas Hüquqi Strukturlar

Sosial biznes müəssisələri hüquqi baxımdan bütün müəssisələr üçün istifadə olunan mövcud normativ strukturlardan – xeyriyyə təşkilatları, qeyri-kommersiya təşkilatları – birliklər, fondlar, kooperativlərdən istifadə edə bilər. Bundan əlavə, məhz sosial biznes müəssisələri üçün istifadə edilən hüquqi strukturlar da mövcuddur:

- İctimai rifaha xidmət edən şirkət (community interest company – CIC),
- Aşağı mənfəətli məhdud məsuliyyətli şirkət (low-profit limited liability company (L3C), elastik məqsədli şirkət,
- Faydaya əsaslanan şirkət (benefit corporation)

## Azərbaycanda Sosial Biznes

Azərbaycanda ilk sosial biznes nümunəsinə yaxın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli fərmanına əsasən, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılması və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirən mərkəz olaraq yaradılan "ABAD"- dır.

"ABAD"- ın dəstəyi ilə yaradılan brendlər: "Təklə" – Masallı rayonu, "Bizim nemət" – Balakən rayonu, "Kəndli" – Masallı rayonu, "Şanlı" – Balakən rayonu, "Çiçəkli" – Masallı rayonu, "Şərəfə" – Masallı rayonu, "Meyvə bağı" – Balakən rayonu, "Sehirli meyvələr" – Balakən rayonu, "Bal kimi" – Masallı rayonu, "Bağımızın bəhrəsi" – Balakən rayonu, "Nübar" – Masallı rayonu, "Yay səbəti" – Balakən rayonu, "Balməkan" – Balakən rayonu, "4 Fəsil" – Balakən rayonu, "Dənə-dənə" – Balakən rayonu və s.-dir.

"ABAD"-a müraciət etmiş digər ailə bizneslərinə müvafiq dəstək göstərilməsi istiqamətində işlər də davam edir.

Hal-hazırda "ABAD"-ın sayca dörd mərkəzi var. Birincisi, turistlərin sıx olduğu "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruq İdarəsinin ərazisində, ikincisi, Azərbaycana hava nəqliyyatı ilə səfər edən turistlərin tələbatını qarşılamaq üçün Heydər Əliyev Beynəlxalq Hava Limanının "Duty Free" zonasında, üçüncüsü, Bakı Dəmiryol vağzalının ərazisində, dördüncüsü isə Şamaxının Dəmirçi kəndində "ABAD" sərgi-satış mərkəzləri kimi yaradılıb və fəaliyyət göstərir. Mərkəzlərdə Azərbaycanın müxtəlif regionlarından sənətkar ailələrinin əl işləri və "ABAD"-çı ailələrin cem və mürəbbə məhsulları satışa çıxarılıb.

VEOLIA

### GRAMEEN VEOLIA

Digər nümunə əsas məqsədi Arsenik çirklənmənin böyük problem olduğu Banqladeş kəndlərinə təhlükəsiz içməli su gətirməkdən ibarət olan Veolia ilə Grameen arasında birgə müəssisə olan Grameen Veolia Su Şirkətidir (Grameen Veolia Water Company). Artıq Arsenik suyu içmək əvəzinə, kəndlilər suyu şirkətdən çox aşağı qiymətə ala bilirlər.

BASF

### GRAMEEN BASF

Almaniyanın BASF şirkəti Grameen ilə birgə müəssisəsi olan BASF Grameen şirkəti Banqladeşdə kimyəvi cəhətdən təmizlənmiş miçətkən istehsal edir. Bu miçətkənlər insanları zəhərli həşəratlardan və onların yaydığı xəstəliklərdən qoruyur. Yoxsulların yararlanması məqsədi ilə bu məhsul mümkün qədər aşağı qiymətə istehsal edilir və satılır.

intel

### GRAMEEN INTEL

Intel Corporation və Grameen şirkətinin birgə qurduğu Grameen Intel yeni texnologiyaların, məsələn, inkişaf etməkdə olan dünya ölkələrində həkim və tibb bacılarının, həmçinin tibbi klinikaların az olduğu kəndlərə gətirilməsi yolu ilə yoxsulların problemlərini həll etmək məqsədi daşıyır.

OTTO

### OTTO GMBH

Alman şirkəti olan Otto GmbH isə Cənubi Asiyadan inkişaf etmiş ölkələrə ixrac etmək üçün tekstil və hazır geyim istehsal etməyi planlaşdırır. Otto Grameen Banqladeşdə yoxsul və əlil insanların istifadəsi üçün fabrik tikilməsini nəzərdə tutur. Fabrikin əsas məqsədi əldə ediləcək gəlirdən dünyadakı yoxsulların rifahını yaxşılaşdırmaq üçün istifadə etməkdən ibarətdir.



## UNEC və Sosial Biznes

Dünyanın 70-dən çox universitetlərində, həmçinin Azərbaycan Dövlət İqtisad Universitetində Yunus mərkəzləri açılmışdır.

2016-cı il iyunun 21-də Nobel Sülh Mükafatı laureatı, professor Məhəmməd Yunus Bakıya səfəri çərçivəsində Azərbaycan Dövlət İqtisad Universitetində olub. Məhəmməd Yunus Azərbaycan Dövlət İqtisad Universiteti ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Sosial biznes – inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransa qatılıb. Konfransda Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus "Sosial biznes – inkişafa gedən yol" mövzusunda mühazirə ilə çıxış edib. O bildirib ki, bank sahəsində fəaliyyətə başlayanda fikirlərinə görə bəzi insanlar ona çılğın kimi yanaşıblar: "Biz bank sahəsində fəaliyyətə başlamaqla bütün ənənəvi bank prinsiplərini kökündən dəyişdik. Sən nə qədər varlısansa, bank üçün bir o qədər cəlbedicisən. Amma biz kasıb insanlar üçün çalışmağa başladıq. Bizim müştərimiz olmaq üçün sən sadəcə heç nəyinin olmadığını, kasıb olduğunu sübut etməlisən. Ənənəvi banklar daha çox kişi müştərilərlə işləyir. Bizim 8,5 milyon müştərimizin isə 97%-i qadındır. Bankın Banqladeşin 80 min kəndində filialı fəaliyyət göstərir". M.Yunus dünyanın maliyyə sisteminin yanlış qurulduğunu da diqqətə çatdırıb: "Bütün banklar qapısını qadınların, xüsusilə də kasıb qadınların üzünə bağlayır. Bu isə məntiqsizdir. Kasıb olmaq insanın günahı deyil. Banklar nəyəsə görə düşünür ki, kasıb müştərilər xəstə olur və bank borcunu ödəmədən öləcəklər. Ancaq bizdə müştərilərin sağlamlığı sığortalanır. Biz bir bank olaraq gəlir əldə etmirik, mənfəət güdmürük, əksinə, insanların problemlərinin həlli üçün çalışırıq". Konfrans müzakirələrindən sonra rektor Ə.Muradov professor M.Yunusa UNEC-in Fəxri doktoru diplomunu təqdim edib.

Konfrans çərçivəsində UNEC-də yaradılan Yunus Sosial Biznes Mərkəzinin (YSBM) açılışı olub. Mərkəzdə UNEC, Yunus Mərkəzi və BAMF arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Sənəddə tərəflər arasında qarşılıqlı əməkdaşlığın inkişafı, yoxsulluğun aradan qaldırılmasında professor M.Yunusun fikirlərinin tanınması, Sosial Biznes konsepsiyasının həyata keçirilməsi nəzərdə tutulub.

Yaradıldığı gündən bəri Yunus Sosial Biznes Mərkəzi müxtəlif seminarlar, təlimlər, layihələr keçirərək insanlara, xüsusən də gənclərə Sosial Biznes konsepsiyasını və onun aktuallığını çatdırır. Son layihəsi Sosial Biznes və Sosial Sahibkarlıq adlı inkubasiya proqramıdır. Proqram çərçivəsində startapçılar icra etmək istədikləri sosial biznes layihələrini reallaşdıra biləcəklər. Proqramın məqsədi gənc startapçılara yardım etmək və müxtəlif resurslar vasitəsilə onların sosial biznes ideyalarını dəstəkləməkdir. Proqram 4 istiqamət (təhsil, texnologiya, səhiyyə, kənd təsərrüfatı) üzrə fəaliyyət göstərir və hal-hazırda davam etdirilir.

# UNEC EKSPERT

## redaksiya HEYƏTİ

**BAŞ REDAKTOR**
prof. Ədalət Muradov
MƏSUL KATİB
dos. Anar Rzayev
TƏRTİBATÇI
Zaur Əzizov
KORREKTOR
Xatun Qocayeva

REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az
MƏTBƏƏ: ŞƏRQ-QƏRB
TİRAJ: 1000
JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR.
ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ #4026

#01 (05) 2018

012 437 19 78

UNEC Əsas Tədris Binası
2-ci mərtəbə

business.centre@unec.edu.az
www.unec.edu.az

# UNEC BİZNES MƏRKƏZİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

## UNEC-DƏ BAŞLA, GƏLƏCƏYİNİ ÖZÜN YARAT